# ZƏFƏR BAYRAMIMIZ MÜBARƏK!

Bu bir xalq qəzetidi
ƏDALƏT

## Türkiyəli general XTQ-nin təlimini izlədi



**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi keçirilir. Bu gün müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıb. Həmçinin, XTQ hərbi hissələrinin qeyd olunan ərazilərdə keçirilən təlimini izləyib.**

Adalet.az xəbər verir ki, təlimi izləyənlər arasında türkiyəli general Bəxtiyar Ersay da olub.

Qeyd edək ki, ötən ilin sentyabrında Türkiyə Quru Qoşunlarının əməliyyat üzrə rəisi, general-mayor Bəxtiyar Ersay Azərbaycanda Xidmət Qrupu Komandanlığına təyin edilməklə Türkiyə Baş Qərargahının əmrinə verilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu ilin avqust ayında imzaladığı sərəncamla B.Ersaya general-leytenant rütbəsi verilib.

## Heydər Əliyev Mərkəzində Türkiyənin yaranmasının 99-cu ildönümü qeyd olunub



**Heydər Əliyev Mərkəzində Türkiyənin yaranmasının 99-cu ildönümü qeyd olunub.**

Adalet.az xəbər verir ki, tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı və Milli Məclisin sədri Sahibə Qafarova iştirak ediblər. "Türkiyə dünyanın bütün bölgələrində sülh və təhlükəsizliyi təşviq etməyə çalışan böyük bir ölkədir. Biz kənd təsərrüfatından tutmuş texnologiyaya qədər bütün sahələrdə mühüm uğurlar əldə etmişik", - səfir Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciətini oxuyaraq bildirib. Daha sonra səfir qeyd edib ki, Türkiyə və Azərbaycan beynəlxalq arenada, xüsusilə Qarabağ məsələsində hər zaman bir-birini dəstəkləyir. O, bir daha qardaş Azərbaycanı işğal olunmuş torpaqlarının azad edilməsi münasibətilə təbrik edib. "Qafqazda sülh üçün fürsət yaranıb və bu, təkcə region üçün deyil, bütün dünya üçün faydalı olacaq. Nəqliyyat və logistika marşrutlarının açılması ilə yeni imkanlar yaranacaq", - səfir əlavə edib. S.Qafarova, öz növbəsində Türkiyənin Cənubi Qafqazda oynadığı geosiyasi rolu qeyd edib: "Türkiyə qlobal məsələlərdə hər zaman balanslı və ədalətli mövqe nümayiş etdirir ki, bu da dünyada sabitləşdirici rol oynayır. İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin dəstəyi göstərdi ki, Azərbaycan tək deyil, qardaş ölkənin xalqı hər zaman bizimlədir. Türkiyə Azərbaycanla bütün sahələrdə, xüsusən də işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında əməkdaşlığı inkişaf etdirir".

## Ərdoğan Avropa liderlərini Putinə qarşı mənfi danışmamağa çağırıb



**"Praqada kiminlə görüşdümsə, Putinin əleyhinə danışırdı. Mən də dedim ki, yanlış edirsiniz. Rusiya kimi bir dövlətin başçısına hər yerdə belə mənfi yanaşsanız, o da bir lider olaraq öz duruşunu özünü əzdirmədən göstərəcək".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yerli ATV telekanalına müsahibəsində deyib. "Bir lider olaraq sizə hücumlar edilsə, siz buna göz yumarsınızmı? Etməzsiniz. Mənə qarşı edilsə, mən də etmərəm. Nə lazımdırsa, onu da edərəm. Cənab Putinin də etdiyi budur. Dünyada 3-5 hörmətli ölkələrdən olan Rusiyanın başçısı olacaqsınız və sonra durub belə hücumlara göz yumacaqsınız. Mümkün deyil", - Türkiyə lideri vurğulayıb.

## Bu il Azərbaycanda 46 500 şəxsə əlillik təyin edilib

**Bu il Azərbaycanda 46 500 şəxsə əlillik təyin edilib. Adalet.az-ın xəbərinə görə, bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-Sosial Ekspertiza xidmətinin təşkili departamentinin müdir müavini İlkin Yusifov deyib.**

Onun sözlərinə görə, son 9 ay ərzində ümumilikdə 46 500 şəxsə əlillik təyin edilib: "Onlardan 15 mindən çoxu ilkin, 31 mindən çoxu isə təkrar əlillik alanlardır".

## Medianın İnkişafı Agentliyi və Bakı Slavyan Universiteti arasında görüş keçirilib



**Noyabrın 3-də Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev arasında görüş keçirilib.**

Görüş zamanı Əhməd İsmayılov ölkəmizdə medianın keçdiyi inkişaf yolundan, aparılan islahatlardan danışaraq təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və yeni media mühitinin tələblərinə cavab verən kadr potensialının artırılmasının önəmini vurğulayıb. O, ali təhsil müəssisələri ilə media sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib. Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev media sahəsində islahatlar prosesinin geniş vüsət almasını qeyd edərək əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əmin olduğunu ifadə edib. Görüşdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, bu istiqamətdə Agentlik tərəfindən hazırlanan "MEDİA Lab" layihəsi və layihənin təşkili mexanizmləri müzakirə olunub.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 48 (5985) 5 noyabr 2022-ci il
Qiyməti 30 qəpik

Aqil ABBAS

## QURBAN QURBANOVUN NƏ ÇOX MƏSLƏHƏT VERƏNİ VARMIŞ?

Bax: səh.8

# İlham Əliyev: "Qarabağ münaqişəsi artıq tarixdə qalıb"



Bax:səh-2

## Deputat: "Ərzaq və kənd təsərrüfatı məhsullarının qiyməti artır"



**"Bu gün bazarda ərzaq məhsulları ilə yanaşı kənd təsərrüfatı məhsullarının qiymətləri də artır və bununla da inhisarçılıq öz sözünü deyir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin noyabrın 4-də keçirilən birgə iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, regionlarda kənd təsərrüfatı məhsullarının qiyməti 5 dəfə ucuzdur, amma Bakıda bahadır:

"Maliyyə orqanları bu sahədə fikirləşməlidirlər, çünki qiymətlərin bahalaşması həm sahibkarların ziyanınadır, həm də insanların rifahını aşağı salır".

## Emin Hüseynov: "Tamamilə dağıdılan ərazilərimiz yenidən qurulur"



**"Azad edilən ərazilərdə yerli idarəetmənin yeni modeli formalaşdırılmaqdadır".**

Adalet.az-ın xəbərinə görə, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov "Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konfilikt quruculuğu modeli" mövzusunda keçirilən qələbənin ikinci ildönümü - Zəfər Gününə həsr olunmuş konfransda deyib.

O qeyd edib ki, Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 illik həsrətdən sonra tarixi qələbə qazanaraq torpaqlarımızı işğaldan azad edib: "Hazırda tamamilə dağıdılan ərazilərimiz yenidən qurulur".

E.Hüseynov vurğulayıb ki, Qarabağ Azərbaycanın tarixi və mədəni ərazisidir: "Orada dayanıqlı məskunlaşmanın həyata keçirilməsi qarşımızda duran əsas məqsədlərdən biridir. Azad edilən ərazilərdə yerli idarəetmənin yeni modeli formalaşdırılmaqdadır".

## İRAN ÖZÜ MƏMMƏDİN GÜNÜNDƏDİ

**Nikol Paşinyan Putinlə Soçi görüşündən sonra ağlı bir şey kəsmədiyindən indi də gedib Tehrana.**

Yadıma bir əhvalat düşdü. Bir dəfə dəniz qırağında bir dava vardı. Bir oğlanı yerə yıxıb təpikləyirdilər. O da çığırırdı ki, Məmməd, kömək elə. Ona kömək eləyəsi olan Məmmədi də başqa bir tərəfdə yerə vurub təpikləyirdilər.

Paşinyan bilmir ki, indi İran həmin Məmmədin günündədi, öz başına çarə qıla bilmir.

## Hərbi Prokurorluqda "Müzəffər Ali Baş Komandan və qalib xalq" mövzusunda elmi-praktiki konfrans keçirilib

Bax: səh.2

## Şəkər Yusifli: Bizə yazığı gəlmir dərmana qiymət qoyanların?



*DTX, nə olar dərmanlara qiymət qoyanları da cəzalandır. İçməsəm öləcəyim dərmanın (2 adda) 6 aylıq həcmini başqa ölkədən 133 manata gətirib uşaqlar, burda yalnız birinin 2 aylığı 150-160 manatdır. Niyə bu qədər fərq ola bilər ki. Bizə yazığı gəlmir dərmana qiymət qoyanların? Bir araşdırsınlar, aylıq qazancımızın neçə faizi dərmana gedir. Çörək ala bilmirik e artıq.*

## 10 milyard dollar dərman təzminatı



**ABŞ-ın iki ən böyük aptek şəbəkəsi, CVS və Walgreens, asılılıq yaradan opioid (ağrı kəsici) dərmanlarının satışına görə onlara qarşı açılan minlərlə ayrı-ayrı məhkəmə iddialarına görə ümumilikdə 10 milyard dollar təzminat ödəməyə razılaşıblar.**

Adalet.az-ın məlumatına görə, haqqında oxşar iddiaların açıldığı Walmart şirkətinin 3,1 milyard dollar təzminat ödəməyə razı olduğu iddia edilsə də, şirkətdən heç bir açıqlama verilməyib.

2001-ci ildən bəri ABŞ-da opioid dərmanlarının yanlış istifadəsi səbəbindən 500 minə yaxın insan həyatını itirib.

Opioid asılılığı xüsusilə yerli amerikalılar arasında yayılmışdır.

## Fransa parlamentində biabırçı anlar



**Fransa parlamentində keçirilən iclasda Marin le Pen başda olmaqla ifrat sağçı Milli Cəbhə deputatının qaradərili həmkarı ilə danışarkən "Afrikaya qayıdın" deyə qışqırması utancverici anların şahidi olub.**

Adalet.az xəbər verir ki, çıxışlardan sonra zalın donması zamanı iclas yarımçıq kəsilib.

Bu sözləri Milli Cəbhənin deputatı Qrequar de Fournas deputat Karlos Martens Bilonqo ilə danışarkən deyib.

O zaman Bilonqo Aralıq dənizində liman axtaran 234 miqrantdan danışırdı.

Fransız dilində "o və onlar" əvəzliklərinin oxşar tələffüzünə görə, bu sözlərin Bilongo üçün, yoxsa Avropaya gəlməyə çalışan immiqrantlar üçün nəzərdə tutulduğu aydın deyildi.

## "Şuşa Zəfər Layihəsi" təqdim olundu

Bax: səh.4

## Günün hadisəsi



Böyük və sevilən xanəndəmiz, xalq artisti Arif Babayev cənnətdən jurnalistlərə zəng edir:

**- Salam. Eşitdim mənimlə maraqlanmısınız. Cənnətdəyəm, huri-mələklərin arasında. Hər şey də əladan da əladır. Ürəyi məni istəyən yığışıb gəlsin bura.**

## "Fermerlərə verilən subsidiyalar artırılmalıdır"

**"Bir sıra yem məhsullarının qiyməti bahalaşsa da, südün və ətin fermerdən alınma qiyməti artmayıb. Ona görə bu fermerlər üçün ciddi problemlər yaradır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin noyabrın 4-də keçirilən birgə iclaslarında çıxışı zamanı deyib. "Bilirsiniz ki, örüş yerlərini yaşayış və ya əkin yeri etdilər. Örüş yerlərinin uzaq olması da fermerlərin növbəti problemidir. İşğaldan azad edilmiş yerlərdə örüş yerləri olsa da, həmin ərazilərin minalardan təmizlənmə işlərinin nə zaman yekunlaşacağı məlum olmaması işləri yubadır. Hesab edirəm ki, fermerlərə verilən subsidiyaların məbləği artırılmalı, kredit çox aşağı faizlə, hətta faizsiz verilməlidir. Bununla da onlara dəstək ola bilərik" - o qeyd edib.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## TƏBRİZDƏ İRAN KONSULLUĞUNUN AÇILMASINA AZ QALIB



*Təbrizdə Ermənistan konsulluğunun açılması üçün razılığa gəliblər. Bu şəhərdə də nəinki erməni yaşayır, hətta bir erməni küçüyü də yoxdu, təmiz türk şəhəridi. Açsınlar. Qafanda Ermənistanın və İranın adına layiq bir yas mərasim zalı açdıqları kimi, Təbrizdə də belə bir binada konsulluq açarlar.*

*Bir dəfə Naxçıvana gedərkən Biləsuvarda İran ajanları məni çox incitdilər, təxminən 6 saat saxladılar gömrüklərində. Nəhayət, maşındakı kitablarımı (mənim şəxsi kitablarımı yox), Ərzurum Universitetindəki Abbas Zamanov adına kitabxanaya apardığım mindən çox kitablarımı müsadirə elədilər. Culfada da İran sərhədçiləri hamını buraxdılar, üç saata yaxın məni saxladılar. Artıq dava eləmək istəyirdim. Təəssüf ki, xanımım yanımdadı. Ondan xahiş etdim ki, sənin pasportunu veriblər. Sən get sərhəddi keç, uzaqbaşı bir taksiyə oturub əmingilə, bibingilə gedərsən, yanımdasan deyə ürəksizəm. Xanımım getdi sərhəddi keçdi. Sərhəd deyəndə dəmir körpüdü, üstündə bir ağ xətt çəkiblər. Xəttin bir yanı Azərbaycan bayrağıdı, bir yanı İranın. Bir qədər arxayınlaşdım.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı olub



**Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış birgə bəyanat müzakirə olunub.

Prezident İlham Əliyev Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası ”Togg”un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# İlham Əliyev Ərdoğanı Soçi görüşü barədə məlumatlandırıb

**Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Soçi görüşü barədə məlumatlandırıb.**

Adalet.az xəbər verir ki, noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış birgə bəyanat müzakirə olunub.

# İlham Əliyev Fuat Oktayı qəbul etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktayı qəbul edib.**

Adalet.az xəbər verir ki, vitse-prezident Fuat Oktay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin önəmi vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə sonuncu səfəri və həmin səfər çərçivəsində Zəngilan və Cəbrayıl şəhərlərində mühüm obyektlərin açılışlarında iştirakı məmnunluqla qeyd edilib. Rəcəb Tayyib Ərdoğan ilə iki gün əvvəl telefon danışığını xatırladan dövlət başçısı Türkiyənin elektromobil istehsalına başlamasını qardaş ölkə sənayesinin növbəti uğuru kimi dəyərləndirib.

Görüşdə nəqliyyat əlaqələrinin inkişafı baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd olunub. Azərbaycanın Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırmasının önəmi xüsusi olaraq vurğulanıb, ticarət dövriyyəsinin artdığı, energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Qaz ixracı məsələsinə toxunularaq Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd edilib, bu dəhlizin ixrac imkanlarının genişləndirilməsinin önəmi vurğulanıb.

Görüşdə, eyni zamanda, nəqliyyat və ticarət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Türkiyənin vitse-prezidentinin Şuşaya planlaşdırılan səfərini alqışladığını bildirib.

# Mayis Bərxudarova general-leytenant, Sübhan Bəkirova isə vitse-admiral rütbəsi verilib

**General-mayor Mayis Şükür oğlu Bərxudarova ”general-leytenant” ali hərbi rütbəsi verilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Kontr-admiral Sübhan Kamal oğlu Bəkirova ”vitse-admiral” ali hərbi rütbəsi verilib.

# Hacıqabulda yol tikintisi üçün 12 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Hacıqabul rayonunun Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.**

Adalet.az bildirir ki, Sərəncama əsasən, on iki min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə ”Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.26.8-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 12,0 (on iki) milyon manat ayrılır.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Azərbaycan ilə Serbiya arasında sosial təminat barədə Saziş təsdiqləndi

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.**

Qanuna əsasən, ”Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında” 2022-ci il aprelin 7-də Bakı və Belqrad şəhərlərində imzalanmış Saziş təsdiq edilib.

# *İlham Əliyev:* "Qarabağ münaqişəsi artıq tarixdə qalıb"

**Dövlət başçılarının intensiv görüşləri ikitərəfli münasibətləri kifayət qədər ətraflı müzakirə etmək və bu münasibətlərdə müsbət dinamikanı artırmaq imkanı yaradır.İki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamə çoxillik münaqişəyə son qoydu.İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib.**

Ölkəmiz tərəfindən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və bu əsasda normallaşmaya nail olmaq mümkündür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi,Qarabağ münaqişəsi artıq tarixdə qalıb. Münaqişə iki il bundan əvvəl həll edilib. Bubaxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isəçox ciddi addımlar tələb edən formatdır.



Azərbaycan Respublikası Prezidentinin,Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 31 oktyabr 2022-ci iltarixli Bəyanatı ilə əlaqədar Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə tərəflərin sadiqliyi təsdiq olundu. Təxirəsalınmaz məsələlər. Humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşma əldə olunub.

Təhlükəsizliyin qorunması. Rusiya sülhməramlı kontingentiyerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Beynəlxalq hüquq və normalara sadiqlik. Münaqişə çərçivəsində olan bütün problemli məsələlər güc tətbiq etmədən BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə etməkləhəll olunmalıdır.

Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsinin bağlanmasına hazırlıq işləri fəal aparılmalıdır. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışıdavam olunmalıdır və Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.

**İşlək dialoq. Rusiyanın köməyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin və ekspert birliklərinin nümayəndələrinin və eləcə də dini liderlərin arasında dialoqu davam etdirmək, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin başlanması üçün müsbət abhavanın formalaşdırılmasıvacibdir.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

# Hərbi Prokurorluqda "Müzəffər Ali Baş Komandan və qalib xalq" mövzusunda elmi-praktiki konfrans keçirilib

**Noyabrın 4-də 8 Noyabr-Zəfər Günü münasibətilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Milli Məclisin deputatlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları,**



**o cümlədən qazilər ilə görüş, eləcə də ”Müzəffər Ali Baş Komandan və qalib xalq” mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Hərbi Prokurorluğun mətbuat xidmətindən Adalet.az-a bildiriblər ki, tədbirdən öncə Hərbi Prokurorluğun inzibati binasında yerləşən ”Heydər Əliyev guşəsi”ndə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Əvvəlcə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anılıb, qazilərə şəfa diləyiblər.

Tədbiri açıq elan edən **Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev** mərasim iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini 8 Noyabr-Zəfər Günü münasibətilə təbrik edərək onlara xoş arzularını ifadə edib.

Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin mükəmməl siyasətini zamanın tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, dərin düşüncəsi, uzaqgörən siyasi strategiyası, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin, dəyanətinin və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə rəğmən dövlətimiz qüdrətlənir, işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, ölkəmizin dinamik tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla daha da zənginləşdirilib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Təsadüfi deyildir ki, ”Global Firepower” hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatlarda ardıcıl olaraq hər il Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlayıb.



Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək zəfərlərimizi və 44 günlük haqq savaşındakı möhtəşəm qələbəmizi təmin ediblər. Vətən müharibəsindən bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan tarixi qələbəni Prezident-Xalq-Ordu birliyinin şərtləndirdiyini xüsusi qeyd edib. Hərbi Prokuror vurğulayıb ki, Ermənistanın sentyabr ayındakı növbəti təxribatlarının qarşısı alınarkən müşahidə edilən Silahlı Qüvvələrimizin gücü və hərbçilərimizin şücaəti bir daha sübut edib ki, Prezidentin dediyi kimi: ”Dəmir yumruq yerindədir”.



Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, müharibə əlillərinin və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin prioritet istiqamətlərindən olub, bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılıb.

Qürurverici və sevindiricidir ki, ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilib, onlar müxtəlif növ dövlət təminatı ilə təmin ediliblər. Bu diqqət və qayğının təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub.

Son illərdə ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib və bu istiqamətdə işlər uğurla davam etdirilir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də, şəhid ailələri üçün verilən prezident təqaüdünün artırılması məqsədi ilə qısa zaman ərzində ölkə rəhbərinin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu zümrədən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək göstəricisi olub. Təsadüfi deyil ki, dövlətimizin başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olub. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mütəmadi olaraq şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təzahürüdür.

**Sonra Milli Məclisin deputatları Nizami Səfərov ”Vətən müharibəsinin başlanmasını labüd edən hallar və məsələyə beynəlxalq hüquqi müstəvidə yanaşma”, Aqil Abbas ”44 günlük Vətən müharibəsində qələbəmizi şərtləndirən Prezident-Xalq-Ordu vəhdəti”, İlham Məmmədov ”Müdrik liderin qətiyyəti və mahir siyasi diplomatiyası sayəsində qazanılan möhtəşəm qələbə” və hüquq müdafiəçisi Əhməd Şahidov ”Azərbaycanın haqlı mövqeyinin beynəlxalq aləmdə və dünya mediasında tanıdılması” mövzularında ətraflı çıxışlar ediblər və qarşılıqlı fikir mübadiləsi həyata keçirilib.**

Daha sonra **Müdafiə Nazirliyinin inspektorlar qrupunun inspektoru, ehtiyatda olan polkovnik Abdulla Qurbani** və çıxış edən digər şəxslər Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə və kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonda Hərbi prokuror Xanlar Vəliyev Vətən müharibəsində iştirak etməklə xidməti vəzifələrini layiqincə icra edən şəxslərə dərin təşəkkürünü bildirərək qeyd edib ki, Prezidentin müvafiq sərəncamları ilə Vətən müharibəsi iştirakçılarının mütəmadi olaraq müxtəlif orden və medallarla təltif edilməsi onların xidmətinə verilən yüksək dəyərin təcəssümüdür.

**Ardınca Vətən müharibəsində iştirak edən şəxslərə hədiyyələr təqdim olunub, onlar isə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.**

*Aqil ABBAS*

# TƏBRİZDƏ İRAN KONSULLUĞUNUN AÇILMASINA AZ QALIB

*Təbrizdə Ermənistan konsulluğunun açılması üçün razılığa gəliblər. Bu şəhərdə də nəinki erməni yaşayır, hətta bir erməni küçüyü də yoxdu, təmiz türk şəhəridi. Açsınlar. Qafanda Ermənistanın və İranın adına layiq bir yas mərasim zalı açdıqları kimi, Təbrizdə də belə bir binada konsulluq açarlar.*

*Bir dəfə Naxçıvana gedərkən Biləsuvarda İran ajanları məni çox incitdilər, təxminən 6 saat saxladılar gömrüklərində. Nəhayət, maşındakı kitablarımı (mənim şəxsi kitablarımı yox), Ərzurum Universitetindəki Abbas Zamanov adına kitabxanaya apardığım mindən çox kitablarımı müsadirə elədilər. Culfada da İran sərhədçiləri hamını buraxdılar, üç saata yaxın məni saxladılar. Artıq dava eləmək istəyirdim. Təəssüf ki, xanımım yanımdadı. Ondan xahiş etdim ki, sənin pasportunu veriblər. Sən get sərhəddi keç, uzaqbaşı bir taksiyə oturub əmingilə, bibingilə gedərsən, yanımdasan deyə ürəksizəm. Xanımım getdi sərhəddi keçdi. Sərhəd deyəndə dəmir körpüdü, üstündə bir ağ xətt çəkiblər. Xəttin bir yanı Azərbaycan bayrağıdı, bir yanı İranın. Bir qədər arxayınlaşdım.*



*Mən də əsəbi sərhədçilərlə dilləşirəm, yanımdan keçən naxçıvanlılar da deyirlər, ə, bu yazıqdan nə istəyirlər? Yəni mənim diplomatik pasportum iranlılara yaman yer eləyib. Nəhayət, üç saatdan sonra mənim də pasportumu verdilər ki, gedə bilərsən. Gəldim sərhəddə, bir addım atdım Azərbaycan tərəfə, dayandım və üzümü çevirdim İran sərhədçilərinə. Azərbaycan dilində nə qədər söyüş vardı, Xomeynidən başlayıb o vaxtkı İran prezidentinə qədər... Açdım gül ağzımı. Naxçıvan camaatını gülmək tutub. Xanımım da çığırır ki, ayıbdı, əlimi yelləyirəm ki, ayıblıqdan keçib. Söydüm, söydüm, İran sərhədçiləri də baxır. Filan yerləri çatmır ki, bir addım atıb məni geri qaytarsınlar.*

*Və axırıncı sözüm bilirsiz nə oldu:*

*- Darıxmayın, mən bir də İrana bilirsiz nə vaxt gələcəm? Təbrizdə İran konsulluğu açılandan sonra. Ondan sonra daha İrandan keçib Naxçıvana getmirəm. İnşallah, gözləyirəm Təbrizdə İran konsulluğu açılacaq, ondan sonra Arazboyu səfərə çıxacam.*

*İndi İran darıxmasın, çox az qalıb:*

*- Təbrizdə İran konsulluğunun açılmağına!*

# BU DƏFƏ QULAQLARININ DİBİNİ GÖRƏRLƏR

***Qarabağda yaşayan ermənilər yenidən 34 il əvvələ - 1988-ci ilə qayıtmaq istəyirlər. Yığışıblar meydana, yeni bir ”Miadsum” bağırırlar. Heç İrəvanda bu qədər erməni yoxdu ki, Xankəndində mitinqdə toplaşıblar. Ermənistanda avtobuslara doldurub Vardanyanın pulu ilə daşıyıblar Xankəndinə.***

***O da sirr deyil ki, 10 noyabr üçtərəfli bəyannaməsində göstərildiyi kimi, Ermənistan silahlı qüvvələri Qarabağın ərazisini tərk etmirlər. Qeyri-rəsmi məlumata görə, 20 min nəfərdilər. Ermənistan silahlı qüvvələri əsasən Qarabağda yerləşdirilib, Ermənistana lazım deyillər. Bir ölkə ki, öz sərhədlərini qoruya bilmir, daxildə böyük bir ordunu saxlamaq nəyə lazımdı?! Mitinqləri dağıtmaq üçün bir az qüvvə lazımdı, vəssalam. Qarabağdakı Ermənistan əsgərlərini də mülki geyimdə çıxardıblar mitinqə. Rusiyanın sülhməramlıları da qoşulub onlara mitinqə bir rəng qatıblar.***



***1988-ci ildə keçmiş SSRİ-nin, əslində Rusiyanın Xankəndində 366-cı atıcı batalyonu yerləşir. Düzdü, həmin batalyonda erməni zabitləri daha çox idi, həmin 366-cı batalyonda Xocalı soyqırımı da mühüm rol oynadı. İndi Rusiyanın Xankəndindəki, daha dəqiq desək, Qarabağdakı ”sülhməramlıları” hərbi hissəsini dəqiq bilmirəm, olsun 367-ci. Çox qəribədir ki, ”bu sülhməramlıların” qərargahı da 366-nın əl işi olan Xocalıda yerləşir.***

***Bəyannaməyə əsasən, hələ üç il vaxtları var. Putin və Paşinyan çalışdılar ki, vaxtı 15 il, 20 il uzatsınlar, amma alınmadı. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev qətiyyətlə bildirdi ki, Qarabağ söhbəti bitibdir. Və Soçi bəyannaməsində də Qarabağ adı çəkilmədi.***

***Paşinyan vaxt qazanmaq istəyir. Azərbaycanca atalar sözü var, get, get, görək divar qurtarandan sonra hara gedəcəksən? İndi Paşinyan üçün divar qurtarıb. Nə Makron, nə Putin, nə də İran prezidenti yeni divar tikə bilmir və bilməyəcək də.***

***Adam qorxmaya, yaza ki, Paşinyan, Putin və İran prezidenti, gedin hoppanın:***

***Qarabağ Azərbaycandır!***

# *Şimali Koreya Yaponiyanın üç əyalətində 3 raket atıb*



**Şimali Koreyanın ardıcıl raket sınaqları bölgədə gərginliyi artırmağa davam edir.**

Adalet.az xəbər verir ki, Cənubi Koreya sərhədində artilleriya atəşinin ardından Pxenyan rəhbərliyinin 3 ballistik raket atması Yaponiyada həyəcan təbili çalıb.

Şimali Koreyanın 3 raket atdığı, onlardan birinin qitələrarası ballistik raket olduğu bildirilir.

Milli fövqəladə xəbərdarlıq sistemi Yaponiyanın Miyaqi, Yamaqata və Niigata prefekturalarında həyəcan təbili çalıb. Çünki birinci raketin izlədiyi trayektoriya təhlükə yaradır.

Rayon sakinləri təhlükəsiz ərazilərə sığınmağa çağırılarkən qatarların hərəkəti müvəqqəti olaraq dayandırılıb.

**Əntiqə Kərimzadə**



Hüsnü Mahalli

# Latın Amerikası dərsləri

**Latın Amerikasının çox mühüm ölkəsi olan Braziliyada bazar günü keçirilən seçkilərdə Sol Alyansın namizədi Lula Da Silva qalib gəlib.**

**1945-ci ildə anadan olan Da Silva səkkiz uşaqlı yoxsul ailənin 7-ci övladı idi.**

**On yaşında məktəbə gedə bilən Da Silva ailəsinə kömək etmək üçün ikinci sinfi tərk edərək səyyar ayaqqabı boyayan kimi işləməyə başlayır.**

**Dörd il sonra anbarda işləməyə başlayan Da Silva 19 yaşında avtomobil zavodunda işləyərkən barmağı dəzgaha ilişir.**

**1975-ci ildə Sao Bernardo sənaye zonasında Dəmir və Polad Həmkarlar İttifaqının prezidenti seçilən Da Silva, 1980-ci ildə Fəhlə Partiyasının qurucularından biri olur.**

**1983-cü ildə Braziliya İnqilabçı Həmkarlar İttifaqları Konfederasiyasının yaradanlardan biri olur və bütün ölkədə məşhurlaşır. ABŞ-ın dəstəklədiyi ağır faşist hökumətlərin və hərbi çevrilişçilərin idarə etdiyi Braziliyada üç dəfə prezident seçkilərinə qatılan, lakin qalib gələ bilməyən Da Silva 2002-ci ildə hər kəsi təəccübləndirən böyük qələbə ilə prezident seçilir.**

**2006-cı ildə ikinci dəfə seçilən və 2010-cu ildə yerinə müavini Dilma Ruossefi seçdirən Da Silva, CIA və hərbi-mülki təşkilatın sui-qəsdi ilə ”çirkli pulların yuyulması və korrupsiya” ittihamı ilə saxta məhkəmədə mühakimə olunur, həbs edilir və 580 gün həbsdə qaldıqdan sonra Da Silva 2019-cu ilin aprelində Ali Məhkəmənin qərarı ilə bəraət alır.**

**Bu arada 2018-ci ilin oktyabrında keçirilən seçkilərdə ABŞ-ın dəstəklədiyi faşist, irqçi, qadın mizoginist və təbiətçi olan və ”Korona tədbirlərinə ehtiyac yoxdur” deyərək yüz minlərlə insanın ölümünə səbəb olan Bolsonaro prezident seçilir.**

**Gələk çox gərgin bir mühitdə keçirilən bazar seçkilərinə...**

**Bolsonaronun arxasında ABŞ, Qərb ölkələri, İsrail və onların qidalandırdığı böyük kapital, satılmış media, trollar, hədə-qorxu əməliyyatları həyata keçirən yüz minlərlə əsgər, kəşfiyyat və təhlükəsizlik bölmələri dayanırdı.**

**Da Silvanın arxasında Sol Alyansın partiyaları və qüvvələri, qadınlar, gənclər və yoxsullar dayanır.**

**İyun ayında Kolumbiyada və martda Çilidə solçu prezidentlərin qələbəsi ilə Latın Amerikası ölkələrinin böyük əksəriyyəti indi solçu hökumətlərin hakimiyyəti altındadır.**

**ABŞ-ın arxa bağçası Latın Amerikasında bir vaxtlar MKİ-nin hakimiyyətə gəlmək istədiyi və hər cür mafiyanın at oynatdığı Latın Amerikası Lulanın qələbəsi ilə indi daha önəmli olacaq.**

**1- Braziliya Rusiya, Çin, Hindistan və Cənubi Afrika ilə birlikdə BRİKS-in üzvüdür.**

**2-Braziliya və xüsusilə Da Lula Rusiya, Çin və İran dostdur. Üçlük indi yaxşı əhval-ruhiyyədədir.**

**Bəs bu qələbə necə oldu?**

**Əfsanəvi liderlər Fidel Kastro, Ernesto Çe Gevara, Alende və Çavesin inqilabi ruhu, onlara inanan və bu inanc uğrunda canından keçən milyonların mübarizəsi ilə...**

**Amerikaya və onların Amerikanın dibindəki hərbi-mülki işbirlikçilərinə müqavimət göstərmək, onlara meydan oxumaq və məğlub etmək asan olmamalıdır.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**



*Səxavət Məmməd*

# «Mənim olmayan, heç sənin də olmasın»

*Soçi görüşünün nəticəsinin nə olmasından aslı olmayaraq…*

*Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması nə qədər real görünsə də, Rusiya sülhməramlılarının nəzarəti altındakı bölgənin Azərbaycanın yurisdiksiyası altına keçməsi o qədər gerçəkçi deyil.*

*Azərbaycanın əlində Ermənistan və Qarabağdakı ermənilərə qarşı istifadə edəcək nələri var idi? Öncə buna baxmaq lazımdır. Azərbaycan ictimaiyyətində əksəriyyətin fikri bu yöndə idi ki, rəsmi Bakı hərbi gücdən istifadə edərək erməniləri razı sala biləcək. Bunun adını bəziləri antiterror, bəziləri isə sülhə məcburetmə əməliyyatı qoyurdular. Azərbaycan bu addımları atdımı? Bəli! Özü də bir neçə dəfə. Fərrux, Sarıbaba, Qırxqızda xüsusi əməliyyatlar həyata keçirildi. Nəticə nə oldu? Erməni tərəfi müxtəlif ağızlarla maksimum "Azərbaycanın sərhədlərini tanıyırıq", "Qarabağ Azərbaycanın beynəxlalq aləm tərəfindən tanınmış torpaqlarıdır", "Sülhə razıyıq" kimi bəyanat verməklə yetindi.*

*Son olaraq sentyabr ayında sərhəd toqquşması baş verdi. Nəticə nə oldu? Heç nə! Dolayısı ilə Azərbaycanın planlaşdırdığı, gözlədiyi, arzuladığı heç nə baş vermədi. Hərbi güc effekt vermədi. Bir addım atılırsa, o istənilən nəticəni vermirsə, məqbul sayıla bilməz. Sülhə məcburetmə Azərbaycanın A planı idi. Bəs B, C, D..? Bunları nə masada, nə də sahədə görə bilirik.*

*Ermənilər Xankəndidə mitinq keçirdi. Bunu rəsmi Bakı və onun mətbuatdakı (politoloq, hərbi ekspert, siyasətşünas, jurnalist) sözçüləri ciddiyə almır. Hətta siyasətçilərin belə ilk ağlına gələn antiterror olur. Partiya sədrlərinin belə alternativ fikri yoxdur. Ancaq ermənilər Xankəndidə mitinqi nə Azərbaycana, nə də Ermənistana göstərmək üçün keçirirlər. Onları planı stratejikdir, uzun vədəlidir, alibidir. Azərbaycan da Qarabağla bağlı mitinq keçirə bilərdi? Bəli! Ancaq açıq görünür ki, rəsmi Bakı xalqı proseslərdən kənarda saxlayır. Unutmaq olmaz ki, müharibə zamanı xalqın varlığı bir çox məsələləri həll etmişdi…*

*Ermənistan Azərbaycanın hərbi gücünü iliyinə qədər hiss edib. Ancaq dözdü, səbr edərək özünə tərəfdaşlar tapdı və prosesi başqa səmtə daşıdı. Fransa Makronun dili ilə, ABŞ isə Nensi Pelosinin dili ilə Ermənistanın yanında olduğunu bəyan etdi. Bəs Azərbaycanın yanında kim var? Türkiyə. Bu yenilik deyil, onsuz da Ərdoğan Zəngilan hava limanının açılışına gəlsə də, gəlməsə də, hər kəs bilir ki, Türkiyə ilə Azərbaycan ortaq hərəkət edir. Türkiyə birincidir, bəs ikinci, üçüncü? Hələ bu azmış kimi, İranı da nəzərdən qaçıra bilmərik. İran, ola bilsin, dünyada söz sahibi ölkə deyil, ancaq region üçün diqqətə alınacaq gücdür. Qarabağ hazırda, türkiyəlilər demiş, "çıxmaz sokak"dır.*

*Rusiya hələ ki Ermənistanda faktiki olaraq var olduğu üçün məsələyə radikal yanaşmır. Bir anlıq təsəvvür edək ki, Ermənistan Rusiya ilə bütün münasibətləri kəsdi. O zaman Rusiya Ermənistanı yanğın yerinə çevirəcək. Ruslar bu günə qədər girdikləri yerdən asan-asan çıxmayıblar, çıxdıqları yeri isə qan gölünə çevirirlər. Dolayısı ilə Cənubi Qafqazda hələ görəcəyimiz çox şeylər var.*

*Paşinyan Qarabağ yarasından qurtulmaq istəyir. Dolayısı ilə Qarabağı Rusiyanın qucağına atıb önünə baxmaq ən optimal variantdır. O zaman sual yaranır ki, niyə Rusiya sülhməramlılarının Qarabağda 15-20 il qalması ilə bağlı açıqlama verir. Çox sadə cavabı var. Ermənistan Azərbaycana ediləcək ən böyük pisliyi etmək niyyətindədir: "Mənim olmayan, heç sənin də olmasın", - deyir.*

# Məhərrəm Əliyev Naxçıvana getdi - Müşavirə keçirdi

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edib.**



Adalet.az xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovla keçirilən görüşdə Muxtar Respublikada daimi dislokasiya olunmuş ordu, birləşmə və hərbi hissələrin maddi-texniki təminatı, şəxsi heyətin peşəkarlığının artırılması, xidməti-döyüş və məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş fikir mübadiləsi aparılıb.

Əlahiddə Ümumqoşun Ordusu, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Əlahiddə Naxçıvan Briqadası, Dövlət Sərhəd Xidmətinin ”Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, qoşun və birləşmə rəhbərlərinin iştirakı ilə xidməti müşavirə keçirilib və məruzələr dinlənilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tələb və tövsiyələrinə uyğun olaraq Silahlı Qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silah və döyüş texnikaları ilə təminatı, hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində qarşıda duran tapşırıqlar diqqətə çatdırılıb.

**Səfər çərçivəsində dövlət sərhədinə, qərargah binalarına, əsgər yataqxanalarına, tibb məntəqələri və digər hərbi obyektlərə, həmçinin bölmələrin silahlanmasında olan zirehli döyüş texnikasına, aviasiya eskadrilyasına və hərbi təyinatlı vasitələrə baxış və hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirilib. Xidmətdə fərqlənən hərbi qulluqçulara növbəti rütbələr verilmiş və hədiyyələr təqdim olunub.**

# Samir Şərifov: "Çalışacağıq ki, xarici borclanmanı sabit saxlayaq"

**Maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində ”Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı müəyyən məsələlər barədə fikirlərin bölüşüb, rəqəmlər açıqlayıb. Nazir bildirib ki, Azərbaycanda dövlət büdcəsi xərclərini artırarkən ehtiyatlı olmalıyıq: ”Yüksək inflyasiya şəraitində xərclərin artırlması qiymət artımına daha da sürətləndirə, inflyasiya spiralına səbəb ola bilər”.**



Bundan başqa, nazirin sözlərinə görə, 2023-cü il büdcəsi hazırlanarkən iqtisadi artım 4,5%, o cümlədən qeyri-neft sektorunda iqtisadi artım 4,6% səviyyəsində nəzərə alınıb. İllik inflyasiya isə 6,3%-dən götürülüb.

Azərbaycanda gələn il dövlət büdcəsinin kəsirinin ümumi daxili məhsula nisbətinin 2,4% olacağı gözlənilir.

Nazirin bildirdiyinə görə, bu, bu ilin təsdiq olummuş proqnozu ilə müqayisədə 0,3 faiz bəndi azdır: ”2023-cü ildə icmal büdcədə isə ÜDM-in 4,7%-i qədər kəsir yaranacağı proqnozlaşdırılır”.

Ölkənin baş maliyyəçisi bildirib ki, Azərbaycanda gələn il əhaliyə birbaşa və dolayısı ilə xidmət göstərən bəzi müəssisələrdə xidmət haqlarının, tariflərin maya dəyərindən aşağı olması hesabına yaranan zərərin örtülməsi, həmçinin bir sıra dövlət və qeyri-dövlət təşkilatlarına, təhsil, idman, mədəniyyət müəssisələrinə maliyyə yardımının edilməsi üçün növbəti ilin dövlət büdcəsindən ümumilikdə 697 milyon manat vəsait ayrılacaq.

Onun sözlərinə görə, bu, illik müqayisədə 6,6% çoxdur.

Azərbaycanda gələn il İpoteka və Kredit Zəmanət Fonduna 101 milyon manat vəsaitin ayrılması nəzərdə tutulduğunu qeyd edən S.Şərifov bildirib ki, bunun 87,7 milyon manatı güzəştli ipoteka kreditlərinin verilməsi üçün Fondun nizamnamə kapitalının artırılması, 13,3 milyon manatı isə sahibkarların subsidiyalaşdırılması məqsədi ilə ayrılacaq.

Manatın məzənnəsi barədə də danışan natiq bildirib ki, Maliyyə Nazirliyi manatın məzənnəsinin sabit qalmasında maraqlıdır:

”Bunun üçün Azərbaycan Mərkəzi Bankı ilə sıx əməkdaşlıq edirik”.

Bundan başqa, nazir bildirib ki, dünyada karbohidrogen qiymətlərinin yüksək olması səbəbi ilə dövlət büdcəsinə daxilolmalar nəzərdə tutulandan xeyli çoxdur və buna görə də, büdcə kəsirinin maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitdən istifadə nəzərdə tutulmur:

”Azərbaycanda fiskal dayanıqlılığın təmin edilməsi ilk növbədə qeyri-neft baza kəsrinin ilbəil azaldılması yolu ilə təmin edilə bilər.

Digər yol isə Dövlət Neft Fondunun gəlirlərinin sabitliyini qorumaqdır”.

Dövlət borcu barədə fikirlərini bölüşən nazir bildirib ki, ”Azərbaycan hökuməti borclanmaya nəzərdə tutulandan az gedib”.

**O həmçinin bildirib ki, dövlət borcunda xarici borcun payı azaldılmalı, əvəzində daxili borclanma artırılmalıdır: ”Daxili borclanma yerli maliyyə bazarlarının dayanıqlılığını artırır. Buna görə də, çalışacağıq ki, xarici borclanmanı sabit saxlayaq və yaxud azaldaq, əvəzində daxili borclanmanı artıraq”.**

**Nicat Novruzoğlu**

# Səbuhi Sadıqovun şəhadətindən iki il ötür

**5 noyabr şəhid Səbuhi Sadıqovun şəhadətə qovuşmasından iki il ötür.**





Adalet.az xəbər verir ki, torpaqlarımızın işğaldan azad edilməsində, tarixi qələbənin qazanılmasında böyük şücaət göstərərək canını Vətən yolunda qurban verən Səbuhi Sadıqovun Nərimanov Rayon İcra Hakimiyyətində anım mərasimi keçirilib.

Mərasimdə İcra hakimiyyətinin kollektivi, milli məclisin bir qrup üzvü, eyni zamanda Füzuli rayon ictimaiyyəti iştirak edib.

Vaxtı ilə şəhidimizin təhsil aldığı 73 saylı tam orta məktəbin kollektivi də tədbirdə iştirak edib və şagirdlərin ifasında şəhidimizə həsr olunmuş ədəbi-bədii kompazisiya göstərib, vətənpərvərlik aşılayan şeirlər söyləyib.



Səbuhi Sadıqov 9 may 1996-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur. Əslən Füzuli rayonundan olan Sadıqov Səbuhi Bakı şəhəri Nərimanov rayonu 73 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıq dövründə idmana böyük həvəsi olan Səbuhi Sadıqov karate, kikboks ilə məşğul olub, 8-9-cu sinifə kimi yüngül klublararası turnirlərdə iştirak edib. Daha sonra sərbəst güləşlə məşğul olmağa başlayan Səbuhi Azərbaycan Güləş Federasiyasının milli yığmasının üzvü seçilib. O, respublika daxilində və beynəlxalq yarışlarda dəfələrlə müxtəlif dərəcələrlə təltif olunub, çempion adını qazanıb. MMA (Qaydasız döyüş) döyüş növü üzrə professional olaraq məşğul olmuşdur. Ultimax döyüş növləri federasiyasının üzvü idi.

O, bir çox yarışlarda Azərbaycan Respublikasını təmsil edərək qazandığı naliyyətləri ilə bayrağımızı yüksəltmişdir

2014-cü ildə Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrdə 1il 6 ay xidmət edib. 2015-2017-ci illərdə Ultimax Döyüş Növləri Federasiyasının təşkil etdiyi Bakı çempionatında və 2017-ci ildə Respublika çempionatında qalib olub.

Gürcüstan Respublikasında Dünya Çempionatında professional kəmər uğrunda mübarizə aparmış və qara kəmər qazanıb. Bununla yanaşı şəxsi ”Comando Fight Klub” unu yaradaraq çoxlu sayda özü kimi tələbələr yetişdirib.

Gürcüstan Respublikasında Ultimax döyüş növləri üzrə keçirilən 3-cü Dünya Çempionatında 1 tələbəsi dünya çempionu olmuş, digər 3 tələbəsi isə fərqli dərəcələrlə III yeri qazanıb.

2014-cü ildə Azərbaycan Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində 1il 6ay, 28 sentyabr 2020-ci ildə Vətən müharibəsində könüllü olaraq Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrində kəşfiyyatçı kimi 37 gün xidmət edib.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsində könüllü olaraq yollanan, ailəsi ilə ”Vətən dardadır” deyərək sağollaşan Səbuhi Sadıov ”dua et ana mən arzuma çatım” sözlərini söyləmişdi.

Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak etmiş və Laçında qəhrəmancasına şəhid oldu.

Noyabrın 5 - də Füzuli rayonunun Əhmədbəyli kənd qəbirstanliginda dəfn olundu. Səbuhi Sadıqov ölümündən sonra ”Vətən uğrunda” , ”Cəbrayılın azad olunmasına görə” və ”Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

**Məlumata görə şəhid Səbuhi Sadıqov nişanlı olub.**

**Əntiqə Rəşid**

# Həbs olunan şöbə müdirinin nədə ittiham edildiyi məlum oldu

**Bir neçə gün əvvəl həbs edilən Mədəniyyət Nazirliyinin Təchizat və əmlak şöbəsinin müdiri İlkin Nəsibovun nədə ittiham olunması məlum olub.**

Adalet.az apa-ya istinadən xəbər verir ki, nazirliyinin şöbə müdiri xüsusilə külli miqdarda mənimsəmədə ittiham olunur. İlkin Nəsibova Cinayət Məcəlləsinin 179.4-cü maddəsi ilə ittiham verilib. Qeyd edək ki, İlkin Nəsibov Dövlət Təhlükəsizliyi Xidmətinin noyabrın 1-də Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyat zamanı saxlanılıb. Onun barəsində Səbail rayon Məhkəməsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Onu da qeyd edək ki, əməliyyat zamanı mədəniyyət nazirini birinci müavini Elnur Əliyevin də istintaqa cəlb olunub. Lakin onun barəsində hər hansı bir qətimkan növünün seçilməsi ilə bağlı məlumat yoxdur. Elnur Əliyev ötən gün Prezidentin sərəncamı ilə tutduğu vəzifədən azad olunub.



Aqil ABBAS

# ARVADLA MƏSLƏHƏTLƏŞDİM, RAZIYAM

*Kişinin üz-gözündən sevinc tökülə-tökülə girir evə və evə girən kimi də qol açıb oynayır.*

*Arvad da mat-məəttəl baxır. Heç vaxt kişini belə sevincək görməmişdi:*

*- Nolub, ay kişi?*

*- Arvad, bir az asta, qonum-qonşu eşidər.*

*- Nolub, poz-qazandan nəsə udmusan?*

*Kişi yayxınır divana:*

*- Hələ ordan bir stəkan çay gətir, indi deyəcəm. Amma heç kəsə demə. Yoxsa nə qədər qohum-əqrəba var tökülüb gələcək.*

*Arvad qaçır mətbəxə, tez xoruzquyruğu bir çay gətirir, sonra yenə qaçır mətbəxə, mürəbbə gətirir.*

*Kişi nə fikirləşdisə:*

*- Arvad, bu çayla düzələn iş deyil. Ordan bir Şirvan konyakı gətir, yanında da şokolad.*

*- Ay kişi, ürəyim partladı, de görüm, nolub?*

*Kişi səsini bir qədər aşağı salır və deyir:*

*- Arvad, yuxarıdan gəlirəm. Sabah məni nazir qoyacaqlar.*

*Arvad o dəqiqə özünü nazir arvadı kimi hiss edir, xoşhallanır, durub konyak gətirir, iki bakala süzür və deyir:*

*- Baldızlarımın ürəyi partlayacaq.*

*Kişi:*

*- Sənin də dərdin-sərin elə mənim bacılarım olsun!*

*Nazir olmağın şərəfinə badəni qaldırırlar, bu vaxt qapının zəngi çalınır. Gələn böyük bacısının oğludu, bir az da kefi yoxdu, salam-kəlamsız deyir:*

*-Dayı, eşitdim səni nazir qoyurlar?!*

*- Hardan eşitdin, ay köpəyoğlu?*

*- Saytlarda yazıblar.*

*- Ə, nə sayt?*

*- Sayt də sayt. Yazıblar ki,etibarlı mənbədən aldığımız xəbərə görə filankəs filankəsovu nazir təyin ediblər.*

*Dayı dodaqlarını büzüb deyir:*

*- Ə, bu nə etibarlı mənbədir ki, mənə deyir sərəncam çıxmayanacan heç arvadına da demə, amma artıq saytlar yazıb. Sənin etibarlı mənbəyinə…*

*Bacıoğlu əlindəki çantadan bir topa pul çıxarır, qoyur stolun üstünə.*

*Dayı:*

*- Bu nədi, ə, qırışmal? Hələ nazir olmamış mənə rüşvət gətirmisən?*

*- Dayı, dədəm-nənəm sənə qurban , bu sən dediyin rüşvətlərdən deyil, bu ayrı rüşvətdi. Nazir olub pul qazanmayacaqsan, mən bəri başdan sənə bir əlli min dollar gətirmişəm ki, sən Həzrət Abbas, get atkaz elə.*

*- Niyə, ə?*

*- Dayı, birtəhər bir şirkət yaratmışam, şəhərdə üç-dörd yerdə obyektim var, krışam da var, başımı aşağı salıb balalarımı dolandırıram. Olassan nazir, sonra işdən çıxardacaqlar, onda mənim də əskimi göy əskiyə bükəcəklər. Şirkəti də əlimdən alacaqlar, obyektləri də. Odur ey, vergilər nazirini işdən çıxaran kimi nə qədər qohum-əqrəbası vardı hamısını işdən çıxartdılar. Hələ də işləri prokurorluqdadı, analarından əmdiyi südü burunlarından gətirirlər.*

*Bu vaxt qapının zəngi yenə çalınır. Gələn qardaşı oğludu. O da əlində çanta girir içəri, gəlib əmisini öpür, oturur, özünə konyak süzür və deyir:*

*- Əmi, sənin sağlığına. Eşitdim nazir gedirsən?*

*- Bəs, sən hardan eşitmisən?*

*- Bütün saytlar yazıb.*

*- Bu sayt çıxaranın lap atasına lənət.*

*Qardaşı oğlu çantanı qoyur stolun üstünə və deyir:*

*- Əmi, burda yüz min dollar pul var.*

*- Sən də rüşvət gətirmisən?*

*- Yox ey, gətirmişəm ki, bu pulu götür, get atkaz elə.*

*Əmi:*

*- Deyəsən, sizin başınız xarab olub.*

*- Yox, əmi, başı xarab olan deyəsən sənsən? İlin-günün bu vaxtı nazir gedərlər? Sonra da keqebe gəlsin, başına çuval keçirdib aparsın, biz də əsir-yesir gününə düşək? Zorla bir şirkət yaratmışam, evlər tikirəm, əməlli-başlı pul qazanıram. Səni işdən çıxaran kimi tikdiyim binaları ya sökəcəklər, ya da tutub əlimdən alacaqlar. Nazir olanda pul qazanmayacaqsan, elə bəri başdan yüz min dollar verirəm də. Görmədin gömrük naziri özündən əvvəlki nazirin bütün adamlarını işdən çıxartdı özünkünü gətirdi, indi də onları təmizləyirlər.*

*Arvad sakitcə keçir mətbəxə, qapını örtür ki, səsini eşitməsinlər, telefonda qonşunu yığır:*

*- Qonşu, xəbərin var, bizim kişini nazir qoyublar.*

*- Sən Həzrət Abbas?*

*- Hə, vallah. Deyiblər ki, amma heç kəsə demə. Bilirəm, ərin işsizdi deyəcəm sürücü götürsün.*

*Qonşu:*

*- Allah balalarını saxlasın, - deyir və sarılır telefona.*

*Beş dəqiqə keçməmiş yenə qapının zəngi çalınır. Açırlar, bir nəfər əlində tort, bir dənə də "Napoleon" konyakı:*

*- Bunu binanın altındakı bonapititin zaveduşisi göndərdi. Təbrik edir.*

*Kişi quruyub qalır. Bir daha söyür.*

*- Bu saytları çıxaranın lap atasına lənət.*

*Oturublar, hərə bir məsləhət verir. Əl telefonu zəng edir. Kişi telefona baxır və əlini atır dodağına ki susun:*

*- Qayınatadı. İstanbuldan zəng edir.*

*- Kürəkən, gözümüz aydın. Allaha şükür, təbrik edirəm. Bayaqdan İstanbulda iyirmi, otuz dost zəng edib məni təbrik edir . Mən də düşmüşəm şəhərin ən bahalı mağazalarına sənə əntiqə bir kostyum almışam, bir köynək, bir dənə də qalstuk. Hamısı Ərdoğanın geydiyindəndi. Sabah gəlirəm, dedim elə birinci bu bahalı kostyumu geyinib işə gedərsən.*

*- Ağsaqqal, hələ heç nə yoxdu.*

*- Di yaxşı, mənə də yox də. Əkrəm İmamoğlu da zəng eləmişdi, sənə salam deyir.*

*Kişi əsəbi halda:*

*- Kamal Kılıçdaroğlu zəng eləməmişdi?*

*- Yox əşi, o müxalifətdi, zəng eləsə də telefonu götürmərəm.*

*- Əkrəm də müxalifətdi də.*

*- Ağlına dua yazım, Əkrəm müxalifət olsaydı bu boyda İstanbulu ona tapşırmazdılar. Di salamat qal, səhər tezdən uçuram.*

*Kişi telefonu söndürüb başını bulayıb deyir:*

*- Deyəsən, elə axırıncı bilən mən olmuşam!*

*Yenə qapının zəngi çalınır. Bacanaq başılovlu girir içəri. Salam-kəlamsız:*

*- Sənin qadan alım, nə qədər gec deyil get atkaz elə. Bizi zibilə salma.*

*- Ə, sizi niyə zibilə salıram?*

*O da əlindəki çantanı stolun üstünə qoyub deyir:*

*- Bax, nazir vəzifəsi sənin nəyinə lazımdı? Evin var, eşiyin var, mersedesin var, obyektlərin var, oğlanların xaricdə oxuyur, Bodrumda villan var, day nə istəyirsən? Pul lazımdı, deynən pul verək də. Bax bu çantada yüz min dollar pul var, götür , halal xoşun olsun, amma sən Ətağanın cəddi , get atkaz elə.*

*- Ə, dəmşalaq, niyə? Sənə vəzifə versələr atkaz edərsən?*

*- Vəzifəni neynirəm? Bakıda ən böyük şadlıq sarayı mənimkidi. Hələ iki dənə də mərasim zalım var ki, şadlıq sarayından çox xeyir verir. Özün bilmirsən, ölənlərin sayı toy eləyənlərin sayından çoxdu? Səni nazir vəzifəsindən çıxaran kimi şadlıq sarayımı vergilər bağlayacaq. Əlimdə-ovcumda nə var tutub alacaqlar, qalacam ortalıqda. Nazir olub pul qazanmaq istəmirsən, elə bəri başdan mən verirəm də.*

*Yenə qapının zəngi çalınır. Gələn qardaşıdı. İçəridəki tünlüyü görüb çaşır:*

*- Deyəsən, mən gecikmişəm,- deyib Kişini öpür və deyir:*

*- Qaqa, qurbanın olum, bizi çevir balalarının başına, bizə yazığın gəlsin. Get atkaz elə. Keqebenin sədrindən böyük adam olacaqsan? Görmürsən, bütün yan-yörəsində olanları yığıblar türməyə. Mənim nəinki türməlik , heç kepezelik halım yoxdu. Yekə kişisən, o boyda universitet qurtarmısan, yan-yörəndə gözü çıxan qardaşları görmürsən? Qəzet oxumursan, görmədin ki, elə dünən keqebe Mədəniyyət Nazirliyini necə şimon elədi?*

*Kişi:*

*- Ayə, ay camaat, mən düz işləyəcəm. Dövlətin bir malına da əl uzatmayacam . Sizin də heç birinizə heç bir kömək etməyəcəm. Nə təhər dolanmısınız gedin dolanın. Qapını hamınızın üzünə bağlayacam. Əl çəkin məndən.*

*Oturanlar hamısı bir-birinə baxır, sonra hamısı qalxır ayağa, kinayə ilə Kişini süzüb deyirlər:*

*- Ə, day onda niyə nazir olmaq istəyirsən ki?*

*Və sonda.*

*Kişi elə gecəynən telefonu götürüb lazım olan adama zəng edir:*

*- Mən arvadla da məsləhətləşdim, təşəkkür edirik. Razıyam.*

*Aqil ABBAS*

# BU DÜNYADAN MAXARADZE KEÇDİ...

İndiki cavanlar bilməz, bir Maxaradze vardı. Stalin rolunun ifaçısı Maxaradze yox, məşhur futbol şərhçisi Kote Maxaradze. Şirin gürcü ləhcəsi ilə rus dilində şərhçiliyi adama ləzzət edirdi. O vaxtlar futbolu Ozerov, Pereturin, Maslaçenko, ya da Maxaradze şərh edərdi, hərəsinin də öz üslubu vardı. Hamısı da ləzzətliydi. Gennadi Xazanov onların hamısını parodiya edərdi, hətta bir dəfə də onların gözünə bizim Çingiz İsmayılovu da qatmışdı. Bu barədə bir az sonra.

Avropa Çempionlar Liqasında "Kopenhagen"lə "Borussiya Dortmund" qarşılaşırdı. Meydanda 7 nəfər türk vardı. Üçü "Borussiya Dortmund"un oyunçusu idi, dördü də oyunu idarə edən hakimlər.

Vaxtilə bizim dünya şöhrətli hakimlərimiz olub: Tofiq Bəhramov, Eldar Əzimzadə və Rüstəm Rəhimov. Çox maraqlıdır ki, onlardan ikisi - Tofiq Bəhramov və Eldar Əzimzadə əslən şuşalı idilər. Bunlar ayrı bir yazının mövzusudu. İndi sevinirəm ki, Azərbaycan hakimləri Avropa Çempionlar Liqasının oyunlarına təyinat alırlar, uzun illərdən sonra.



Söhbəti çox uzatmayım, gələk mətləbə. Maxaradzenin çox qəribə bir şərhi vardı. Həmin dövr SSRİ yığma komandasında dörd gürcü oynayırdı: Mesxi, Metreveli, Kipiani, deyəsən Anzor Kavazaşvili , bir az əvvəl oynayırdı, amma o da vardı, Daraseliya da ehtiyat oyunçular siyahısında idi. Maxaradze oyunu elə aparırdı ki, futbolu sanki Gürcüstanla hansısa bir Avropa ölkəsi oynayır. Yalnız top gürcülərdə olanda adlar çəkərdi: "Top Metrevelidədi, Metreveli gedir-gedir, topu Mesxiyə ötürür, Mesxi topu Kipianiyə atır...". Sonra uzun müddət susardı, gözləyərdi ki, top bir də nə vaxt gürcülərin əlinə düşəcək. Ya da meydanda dörd gürcünün adını çəkərdi, sonra da deyərdi ki, yerdə qalanları da "Dinamo" Kiyevin oyunçularıdı. Arada da məşhur heykəltəraş Seretelidən danışardı , operator da dərhal Seretelini göstərərdi. Ya da Lobanovskini göstərərdi, onda da deyərdi ki, Lobanovski Daraseliya ilə məsləhətləşir.

Xazanov da onu çox gözəl parodiya edirdi. Bu barədə bir qədər sonra.

İndi oyuna baxıram - "Kopenhagen" ilə "Borussiya"ya, istər-istəməz könlümdən keçirdi ki, elə bizim şərhçi də Maxaradzedən bir az öyrənərdi. Məsələn, nəyi: Top Tolqadadı, Tolqa topu atır, Əmrə Can gedir, Özcan sağ tərəfdən irəliləyir, Əliyar Ağayev diqqətlə izləyir, Zeynal Zeynalov bayrağını qaldırır, Əmrə Canı yıxırlar. Hakimlərimiz oyunu çox gözəl aparır. Cərimə zərbəsi, topun arxasında Tolqadı və sair və ilaxır. Təbii ki, şərhçilərimiz Maxaradzeni dinləməyib və oyunu da belə aparmırdılar. Yəni elə şərh edərdilər ki, elə bilərdik meydanda yalnız türklərdi. Necə ki Maxaradze SSRİ yığma komandasını belə şərh edərdi.

İndi gələk Xazanovun parodiyasına: Top Mesxidədi, topu atır (top Ukrayna futbolçusundadı, adını çəkməz, gözləyər ki, top nə vaxt Metreveliyə çatacaq. Top Metreveliyə çatanda çığırır). Top Metrevelidədi, Metreveli gedir (top yenə Ukrayna futbolçusundadı, yenə adını çəkmir, gözləyir ki, topu nə vaxt Kipianiyə verəcəklər və top Kipianiyə veriləndə ) çığırır:

- Top Kipianidədi, Kipiani vurur. Poka myaç v nebe ya xoçu poznokomit vas sostavami komand.

Guya Kipiani elə vurub ki, top göydə hələ 3-4 dəqiqə qalacaq.

Maslaçenkonu necə parodiya edirdi:

- Penalti.

Maslaçenko qapıçı olduğuna görə ona görə həmişə qapıçıya ya tövsiyə verərdi, ya da iradını bildirərdi. İndi Buryak penalti vuracaq, Maslaçenko deyir:

- Dosayev ağıllı qapıçıdır, bilməlidir ki, Buryak topu hara vurur. Adətən qapının sağ yuxarı küncünə. Dosayev, diqqətli ol. Buryak gəlir vurur, Dosayev necə də mənim ürəyimdəkini oxudu? Topu aşağı sol küncdən götürdü.

Gəlir Pereturinə. Pereturin oyunu şərh etməzdi, yalnız oyunçuların adını çəkərdi:

- Top Demyanenkodadı. Demyanenko , Zavarov, Buryak, Demyanenko, Bloxin, Zavarov, Yeremçuk, Zavarov, Bloxin... Qol.

Gəlir indi Ozerova. Ozerov da həmişə həm futbolda, həm də xokkeydə siyasi şərhlər edirdi . Deməli, xokkeyi şərh edir. Kanadanın xokkeyçisi vurub bizimkini yıxır. Ozerov deyir:

- Məgər bu xokkeydir? Bu vəhşilikdir.

İndi bizimki vurub Kanadanın xokkeyçisini əzir. Ozerov bağıra-bağıra deyir:

- Eto xokkey, eto mujskaya iqra.

Ya da, yadımdan çıxıb, gərək ki Finlandiya ilə SSRİ oynayır. Rəqib komandada ata-bala oynayırlar. Ozerov belə şərh edir:

- Finlandiyada vəziyyət çox ağırdır, yaşamaq çətindir. Ata gəlib xokkeyə, bir az çörək pulu tapıb, məcbur olub oğlunu da gətirib xokkeyə.

İndi gələk Xazanovun Çingiz İsmayılovu parodiya etməyinə. Onun parodiya etdiyi futbolçunun adını çəkmirəm. Çünki bizim millət zarafatı qəbul etmir, adını çəksəm verər məni məhkəməyə. Amma adını çəkmədiyim futbolçu "Neftçi"nin ən məşhur oyunçusu idi.

Və bunu rusca yazmaq məcburiyyətindəyəm, çünki azərbaycanca yazanda alınmır. Yazacağım Mamedov da təsadüfi familiyadı.

- Myaç u Mamedova, Mamedov idyot, idyot, idyot...

Sonra Xazanov əsnəyir və deyir:

- Mamedov idyoot !

Təbii ki, bunlar hamısı həm həqiqətdi, həm də zarafatdı.

Və sonda. Avropa Çempionlar Liqasını aparmış Əliyar Ağayevə, Zeynal Zeynalova, Akif Əmrəliyə və Kamal Umudluya daha böyük uğurlar arzulayıram.

Şərhçilərimizə də xatırlatmaq istəyirik ki, biz kar deyilik, bağırmasınlar, çığırmasınlar.

## Co Bayden: "ABŞ İranı azad edəcək"

**ABŞ Prezidenti Co Bayden bəyan edib ki, ABŞ tezliklə İranı mövcud hakimiyyətdən azad edəcək.**

Birləşmiş Ştatlar prezidenti bu barədə Kaliforniyada Demokratlar partiyasından olan yerli namizədi dəstəkləmək üçün qatıldığı seçki kampaniyasında deyib:

"Narahat olmayın, biz İranı azad edəcəyik. Onlar özləri tezliklə İranı azad edəcəklər".

Baydenin bu açıqlamasını zalda əyləşənlər alqış və şüarlarla qarşılayıblar.

*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoglu@box.az*



# Çörəyini on yerə bölən böyük adam

## Unudulmayan insanlar

**...Mən həmişə demşəm ki, payız fəsli bizə düşmür. Biz demirik ha, payız yaxşı fəsil deyil. Hər fəslin öz gözəlliyi, öz rəngi və öz mənzərəsi var. Belə baxanda əksinə, payızda əksər məhsullar yetişir və bolluq olur! Sadəcə olaraq payızın müxtəlif aylarında mən ən yaxın əzizlərimi itirmişəm. Sentyabrın 25-də atam dünyasını dəyişib, oktyabrın 21-də qardaşım Allahın dərgahına qovuşub, noyabrın 29-da isə anam rəhmətə gedib! Bax, ona görə də payız gələndə özümü daha çox narahat hiss edirəm və hardasa bir az da üşüyürəm...**

...Payız fəslində həm də bir neçə yaxın dostum, çörək kəsdiyim insanı, uzun müddət yoldaşlıq elədiyim adamları itirmişəm. Onlardan biri də uzun müddət bir yerdə işlədiyimiz, çörək kəsdiyimiz, xeyir-şərdə bir yerdə olduğumuz və ən nəhayət, sadəliyi, səmimiyyəti ilə heç kimə bənzəməyən istedadlı yazıçı-publisist Surxay Əlibəylidir. Surxayı neçə il bundan qabaq itirmişik və noyabrın 5-də, bir payız günündə Allahın dərgahına qovuşub.

Allahın dərgahına qovuşsa da, o, mənim üçün həmişə sağdır. Çünki elə bir vaxt olmayıb ki, onun dostları ilə söhbət edəndə Surxayı xatırlamayaq. Məsələn, Süleyman Qaradağlı ilə, Əbülfət Mədətoğlu ilə, Elşən Əliyevlə, Elman Məmmədovla görüşəndə söhbətimizin əvvəli də, sonu da Surxayla bağlı olub. Çünki Surxay hamımızın ürəyində, qəlbində özünə əbədi bir iz qoyub. Öz gözəl əməlləri, şirin və duzlu yumorları, zarafatları ilə həmişə bizi sevindirib.

Başqalarını deyə bilmərəm, mənim Surxay Əlibəyli ilə çox yaxın dostluq əlaqələrim olub. Dəfələrlə müxtəlif rayonlara ezamiyyətə getmişik, yoldaşlıq etmişik. Hətta 1995-ci ildə Milli Məclisə seçkilər olanda Aqil Abbasın vəkili kimi Bərdədə və Ağcabədidə olmuşuq. Bir dəfə də getmşdik Surxayın anadan olduğu Şərəfxanlı kəndinə. Orda da bizə elə bir qonaqlıq verdilər ki, bu gün də həmin qonaqlıq yadımdan çıxmır. Noyabr ayının soyuq günlərində hinduşka kababanı ilk dəfə biz həmin kənddə yedik. Dadı və tamı da bu gün ağzımızda qalıb.

Surxay balacaboy, kiçik adam olmasına baxmayaraq, mənən çox uca, çox saf, çox dəyərli bir jurnalist idi. Heç nədən gözəl mövzular tapar və onu şirin bil dillə qələmə alar və o yazını hamı oxuyardı. Çünki Surxayın yazılarında şablonçuluq, bəsitlik və ən nəhayət, el dilində demiş olsaq, quru məqamlar olmazdı. Yazıların dili, üslubu çox orijinal idi. Təbii ki, bu da yazıçı-publisistin mənəvi zənginliyindən, dünyagörüşündən və ən nəhayət, ədəbiyyatımızı dərindən bilməyindən qaynaqlanırdı. Onun qələmə aldığı mövzular bayaq dediyim kimi, bir-birini təkrar eləmirdi. Çünki Surxay özü də yazıları qədər orijinal və səmimi bir insan idi...

Mənimlə çox zarafatları olardı. Qanımın ən qara vaxtında bir də gördün gəldi və özünəməxsus bir tərzdə dilləndi: "Nolub ə, dəryada gəmin batıb? Dur gedək, bir yer var ora. Bəlkə o yerdə olandan sonra qanın durula, belə bikef olmayasan". Bax, Surxay belə bir insan idi. Hamının dərdinə, qəminə, kədərinə şərik olardı. Amma özünün ağrısını, acısını heç kəsə bildirməzdi. Qara bulud



kimi dolardı, bir kəlmə də danışmazdı. Elə böyüklüyü də bu idi...

Surxayın süfrəsinin ətrafında həmişə onu çox istəyən insanlar əyləşərdi. Çörəyini on yerə bölərdi. Başqası yeməyə başlamamış heç vaxt əlini tikəyə uzatmazdı. Çox qəribə adam idi o. Heç elə yeməyi də yox idi. Bir tikə əti qoyardı qabağına və başlayardı əlli-əlli vurmğa.

Bir də görürdük ki, toyuq soyutması qalıb stolun üstündə. Rəhmətliklər Lətif Süleymanlı və Məhəmmədəli Mustafanı stola dəvət edərdi və onlar da bu toyuq soyutmasını şirin-şirin yeyərdilər. Onun həm Lətif Süleymanlı ilə, həm də Məhəmmədəli Mustafa ilə çox yaxın münasibətləri vardı. Dəfələrlə rayonlara getmişdilər. Hər dəfə də Surxay o xatirələrindən danışardı. Danışdıqca da uğunub gedərdi...

Hələ Surxay Əlibəyli Ağdamda, Sovet dönəmində parkın direktoru işləyəndə Respublikanın ən hörmətli adamları onun qonağı olardı. Bir adamı yedirib-içirmədən əl çəkməzmiş. Hətta o vaxtlar rəhmətlik Elçibəy ilə də yaxın dostluq eləyir. Başqa sözlə demiş olsaq, o, başqasına əl tutmaqdan, çörək verməkdən ləzzət alırmış. Əsl kişi kimi, əsl azərbaycanlı kimi süfrəsi həmişə açıq olarmış.

Mən Ağdamı çox istəyən bir neçə adam görmüşəm. Onlardan biri də Surxay Əlibəyli idi. Rəhmətlik Ağdamla nəfəs alırdı və Ağdamla yaşayırdı və Ağdamla da ürəyi döyünürdü. Onun Ağdamla və Seyidlərlə bağlı neçə-neçə gözəl kitabları vardı. Onlardan biri də "Ağdamım - qibləgahım mənim" kitabı idi. Bu kitabların hər birində Surxayın ürək döyüntüləri, ürək pıçıltıları, yaşantıları vardı. Və o yazıları qələmə almaq üçün Surxay aylarını, illərini xərcləmişdi və axırda da gözəl bir əsər yaratmışdı və Surxayı bu gün yaşadan da həmin əsərlərdir.

Düşünürəm ki, Surxay bu gün də sağdır, çünki onun ruhu hər an, hər dəqiqə ana yurdu, Ağdamın başının üstündə fırlanır. Çünki özü də bir vaxtlar Ağdamın başına dolanırdı. Ağdam deyib dodağı dörd yerdən çatlayırdı. Özü görməsə də, onun ruhu Ağdamın başına dolanır, fırlanır və Surxayı o yurda, o obaya aparır. Mənim üçün Surxay həmişə sağdır, ən azından ona görə ki, onun olum və ölüm günündə həmişə xatırlayıram və tez-tez də yuxuma girir. Adam var ki, yuxuna girəndə ziyan tapırsan. Amma Surxay mənim yuxuma girəndə heç vaxt ziyan tapmamışam. Əksinə, xeyirlə üzləşmişəm və onun ruhuna dualar oxumuşam.

Surxay Əlibəylinin ən çox sevdiyi şairlərdən biri də Ramiz Rövşən və onun "Qara paltarlı qadın" şeiridir. Həmin şeiri bir daha dərc edirik ki, qoy, dostumuz, qardaşımız Surxayın ruhu şad olsun. Ruhundan öpürəm Surxay! Yerin cənnət olsun, qardaş!

*Kişilər bir olmur atam balası*
*Qorxağı var, igidi var,*
*Amma hər kişinin öləndən sonra*
*Qəbri üstdə ağlamağa*
*Bir qara paltarlı gözəl bir qadına ümidi var*

*Sən öləndə kim olacaq gözlərini bağlayan?*
*Qardaşmı olacaq, yadmı olacaq?*
*Bu dunyada bəlkə sənə ən çox ağlayan,*
*Ən çox ağlatdığın qadın olacaq?!*

*Göz yaşları yuduqca baş daşını*
*Qəbrində qurcalanıb,deyəcəksən: ilahi*
*İllər boyu ağlatdığım bu qadın*
*Görən necə saxlayıbdır bu qədər göz yaşını?!*

*Bircə kərə nə saçını oxşamışam,*
*Nə gözünü silmişəm.*
*Gözlərimə batır indi saçlarının hər dəni,*
*İllər boyu bu qadına mən axı dərd vermişəm*
*İndi görən niyə çəkir dərdimi?*

*Bu qadın baş daşımı öpüb sığallamaqdansa,*
*Yumruğuyla döysə-döysə yaxşıdı.*
*Qəbrimin üstündə ağlamaqdansa,*
*Məni söysə yaxşıdı.*

*Yeri-yeri,qara paltarlı qadın,*
*Kiri-kiri,qara paltarlı qadın.*
*Bu qəbir də min qəbirdən biridir.*
*Baş daşımı bəsdir basdın bağrına,*
*Bütün mənə ağlayanlar kiridi,*
*Sən də kiri, qəbrim damır, ağlama..*

**Faiq QİSMƏTOĞLU**

# Qızılı payızın bərəkət rəngi – Payızdan və Ağdamdan REPORTAJ - 2

**Deyirlər, hər fəslin öz rəngi var, qışın rəngi ağ, yazın-yayın rəngi yamyaşıl, payızın rəngi isə qızıl kimi sapsarıdır.**

Yox, sonuncu fikirlə qətiyyən razılaşmıram. Məncə, payız yeganə fəsildir ki, təbiətin bütün rənglərini onda görmək mümkündür. Yayın nəfəsi qalmış yaşıllıq, qışın nəfəsinin saraltdığı xəzan..., bir də barın- bərəkətin bəzədiyi çöllər, tarlalar, bağ-bağatlar... İndi siz seçin payıza təkcə "qızıl payız" adı bəs edirmi?

Ağdam torpağının altı da sərvət olub, üstü də. Münbit torpağa malik olması kənd təsərrüfatının inkişafına böyük töhfələr verib. İşğaldan əvvəl pambıqçılıq, üzümçülük, heyvandarlıq burada elə inkişaf həddinə çatmışdı ki, rayonda nəinki kasıb kəndliyə rast gəlinmirdi, hətta başqa rayonlardan da gələn soydaşlarımız burda işləyir, qazanır, özünə gün-güzəran da qururdular. Yeri gəlmişkən, sizə pambıqçılığın mahiyyətini anlatmaq üçün kiçik bir məlumatı çatdırım: Rayonun ən böyük təsərrüfatlarından biri olan Lenin adına kolxoz rayonun pambıq planının 60 faizini yerinə yetirirdi.

Tanışlıq üçün deyim ki, bizim Qərvənd kəndini əhatə edən bu kolxozun tarlalarında qol çırmayıb, zəhmət çəkməyən pambıq yığmayan qalmazdı. Sentyabrın 1-dən noyabrın son gününə qədər 6-7-8-9-10 -cu siniflər dərsdən ayrılaraq pambıq yığmaq məcburiyyətində qalardılar, eləcə də həkimlər, tibb bacıları, müəllimlər, İaişə işçiləri... Axşam tərəzi başında adı siyahıya düşməyənlər haqqında sabahısı dərhal ölçü götürülürdü...

Pambıq yığanlar bilir, bu məhsulun yığımı çox əziyyətli bir prosesdir.10 kloqramlıq önlükləri mütləq pambıq vərlərinin arası ilə asta-asta gedərək yığıb doldurmalıydın, sonra bir də o, 10 kq-lıq önlüyü çiyninə alıb sahədən kənara daşımalıydın, orada isə iri kisələrə (bardan meşoxu) boşaltmalıydın, sonra yenidən sahəyə dönüb işinə davam etməliydin. Proses səhər saatlarından başlayıb, - təxminən 15 saat - qaranlıq düşənə qədər davam edərdi. Alatoranda isə elə pambıqçılar tərəfindən dolu kisələr yük maşınlarına yığılardı. Bir başa "naves" deyilən yerdə tərəziyə çıxarılardı. O vaxtı böyüklər deyərdi ki, guya Karl Marks hansısa əsərində yazıb ki, pambıqçılıq qul əməyidir. Əslində heç bir fərqi də yox idi... Oxucularım, mənim bu prosesə münasibətimi bilmək istəsələr deyərdim ki, 6-cı sinifdən 10-cu sinfə qədər pambıq yığmışam, 5 ildə 50 kq-dan artıq qapana (tərəzi) pambıq qoya bilmədim! Sinif yoldaşım vardı Sara... Hər axşam



100-120 kq pambıqla hamıdan öndə olardı. Başımın üstündə hədə- qorxu olmasaydı heç 1 qarzaqdan bir lopa da qoparmazdım. Məcburən!

Tərsliyə baxın ki, pambıq yığımından bu qədər zəhləm qaçdığı halda Bərdə Kənd Təsərrüfatı Texnikumunun tələbəsi oldum. Allah sənə qurban olum, bu nə dərd idi mən düşdüm. Kəndimizdə yenə noyabrın sonunda Xuraman "bajı" (rayonda hamı ona elə müraciət edirdi) insafa gəlib yığımı dayandırırdı. Qardaş, dekabrın 15-dir, yerə-göyə şaxta düşüb, biz tarlalardan pambıq dənləyirik... Nəisə...

Amma kənd camaatı, daha dəqiq kolxozçular bu "qul əməyi"ndən yaxşı pul qazanırdı, qazandığı pulla 2 mərtəbəli ev tikdirir, maşın alır, uşağını ali məktəbə qoyurdu. Kolxozumuzun o zamankı 20 illik sədri Xuraman Abbasova da mükafatsız, qazancsız qalmırdı. Xanım sədrin pambıqçılıq sahəsindəki zəhmətlərinə görə o zaman Azərbaycan Kommunist Partiyası MK rəhbəri Heydər Əliyev onun sinəsinə düz beş dəfə orden taxıb; üç Lenin ordeni, Oktyabr İnqilabı və Şərəf Nişanı ordenləri, Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə də təltif edib. Uzun sözün qısası,pambıqçılıq uğurlu seçim idi. Hazırda 30 ildən sonra rayonda pambıqçılığın yenidən inkişaf etdirilməsinə başlanılıb.

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsindən sonra vaxtı ilə pambıqçılıqla məşğul olmuş rayonlarda o cümlədən Ağdamda bu sahəyə diqqət artırıldı. Məsələn, 2020-ci ildə Ağdam rayonunda 2120 hektar sahədə pambıq əkildi, 7100 ton məhsul istehsal edildi, orta məhsuldarlıq 33,49 sentner oldu.

Bu il ötən ildəkinə nisbətdə pambıq tarlaları artıb, yəni, 2421 hektar sahədə pambıq becərilib. Oktyabrın 23 -ü olmasına baxmayaraq hələki, Çəmənli, Çıraxlı, Əhmədağalı, Mirəşelli kəndlərində sahələrin böyük əksətiyyəti yığılıb başa çatdırılmayıb, məhsul boldu. Necə deyərlər saçaq-saçaq, qucaq-qucaq...

22 oktyabrda Kolqışlaq kəndinin üst tərəfində "Kövər" deyilən ərazidə pambıq yığımı kombaynla həyata keçirilir. Texnikaların köməyi ilə təxminən 1 saatda 20 hektar sahə tamamilə yığılıb başa çatdırılır. Beynimdən keçən fikir qeyri-ixtiyari dilimdən qopur:Nə yaxşı ki, keçmişdəki kimi, insan əməyindən istifadəyə ehtiyac qalmaır.

İndi məni çox sevindirən pambıq yığımına fərdi şəxslərin cəlb edilməməsi oldu. Texnika əsridir axı...

Yeri gəlmişkən qeyd edim ki, yonca sahələri də aqrotexniki qaydalar əsasında becərildiyi üçün yüksək keyfiyyətli bol yaşıl kütlə və quru ot məhsulu alınıb. Yonca heyvandarlığın, quşçuluğun və arıçılığın inkişafında lazım olan yem bazasıdır. Yoncanın yaşıl kütləsi, senajı, quru otu və ot unu mal-qara və quşlar tərəfindən ləzzətlə yeyilir. Əvvəlki peşəm kənd təsərrüfatı ilə bağlı olduğuna görə bilirəm ki, yoncanın yaşıl kütləsi heyvanların və quşların orqanizmləri üçün amin turşuları ilə normallaşdırılmış proteinlə, müxtəlif mikro və makroelementlərlə, vitaminlərlə, mineral duzlarla zəngindir. Yoncanın 1 kq yaşıl kütləsində 0,20-0,30 qr, quru otunda 0,60-0,70 qr, yem vahidi 130-180 qr, həzm olunan protein 9,0-16 qr, kalsium 1,5-2,5 qr, fosfor 15-30 mq karotin vardır.

Texnikumda oxuyanda Ağcabədidən Mirələm adlı bir müəllimimiz vardı. Kənd təsərrüfatının bilicisi idi. Onun mühazirələrindən 2 cümlə yadımda qalıb. Bir deyirdi ki, növbəli əkin torpaqları erroziyadan, münbitliyinin məhv olmasından qoruyur, bir də deyirdi ki, yoncanın torpağın münbitlik səviyyəsini yaxşılaşırmaqda əvəzi yoxdu.

Həmsöhbətim Yasən Süleymanovun həm pambıq, həm də yonca sahəsi var. Onu pambıqçılıq sahəsində qazancı olan təsərrüfatçılardan hesab etmək olar. Özünün dediyi kimi, ötən il qazandığı xeyir -bərəkət necə deyərlər, cibini sevindirib. Bu səbəbdən də bu il də işinə davam edib, pambıq becərib...Deyir ki, bir neçə gündən sonra məhsul sahədən yığılacaq. Yenə məhsulumuz üzümüzü güldürəcək.

Azərbaycan folklorunda deyilir ki, ağ rəng işığın rəngidir, ululuğun, yüksəkliyin rəngidir:"Xaqanların Tanrıya məxsusluğunu bildirmək üçün alaçıqlarına ağ bayraq sancılır. Ağ rəng yüksək soyun fərqlənmə əlamətidir. Yaşayış yerlərinin müqəddəsliyini bildirmək üçün adları "ağ"la başlayır : Ağdam, Ağbaba, Ağbaşlı.. Ağa sözü də "ağ"dan yaranıb. Şəkidə birinin işinin uğurlu getdiyini bildirmək üçün "o, ağanın ağ yoluna çıxıbdır" deyirlər. Ona görə Qarabağ xanının qızlarına Ağabəyim ağa, Gövhər ağa deyə müraciət edilir. Ona görə kiməsə alqış edəndə deyirik ki, ağ günlü olasan, üzün ağ olsun. Çox maraqlıdır ki, hunlarda "bay" sözünün mənası həm də "ağ" imiş".

**Bəli, ağ rəng Ağdamın da, payızın da, lap elə ağ günə çıxan, ağ əppəkli kəndlinin də ən bərəkətli, göz oxşayan, könül sevindirən çalarıdır, rəngidir.**

***P.S.** Əziz oxucularım, məni izləyin, davamı olacaq!*

**Əntiqə Rəşid**

*Zaur Əliyev*

# Rus imperiyasına qarşı cihad elan etmiş azərbaycanlı



**Rus imperiyasına qarşı Qafqazda ilk dəfə cihad elan etmiş azərbaycanlı Mövlanə...**

**Rus işğalına qarşı QƏZAVAT ( islam dinindən olmayan xalqlarla din uğrunda aparılan müharibə; cihad) barədə danışanda hər kəs Qafqazın şimal xalqlarını misal çəkir. Amma çox adam bilmir ki, Rusiya imperiyası dövründə Ruslara qarşı cihad elan edilməsi fətvası Azərbaycanlı din alimi Mövlanə İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvani tərəfindən verilib. Ləqəbi "Siracəddin" (dinin çırağı), nisbəsi "əl-Kürdəmiri" bəzən "əş-Şirvani" kimi yad edilmişdir, Böyük sufi Nəqşbəndiyyə ordeninin ruhani lideri olub. 1782-ci ildə Azərbaycanın Şamaxı qəzasına bağlı Kürdəmirdə dünyaya gələn Şeyx dövrün ən hörmətli şəxslərindən biri olub.**



**Rus işğalına qarşı Qafqazda savaşın tanınan isimlərindən biri Qazi Məhəmməd və Şeyx Şamil görkəmli islam alimi, mövlanədən fətva almalı idilər və o zaman Qafqazdan tutmuş Anadoluya qədər sözü keçən Mövlanə İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvaninin yanına gəlirlər. Olar Qafqaz xalqlarını işğalçı Rusiyaya qarşı birləşdirmək və onları bu ərazilərdən qovmaq üçün savaşa başlamaq istədiklərini bildirlər. Lakin bunun üçün onlara möhtərəm din xadimindən razılıq almaq lazım idi. Bu şəxs isə İsmayıl Kürdəmirskidən başqası ola bilməzdi. Şeyx onları dinləyir və camaatı məscidin qarşısındakı meydana çağırır. Qazi-Məhəmmədin imam çamağını taxıb elan edir " Ey müsəlmanlar biz hamınızı Ruslara qarşı cihada səsləyirəm və Qazi-Məhəmmədin imam elan edirəm. Bu gündən sonra cihada İmam Qazi Məhəmməd başçılıq edəcəkdir"..**

**Doğrudan da, ləzgi Məhəmməd Yaraqski Qafqaz müharibəsində Qəzəvətin ideoloqu və imamətin ruhani rəhbəri idi, lakin o, yalnız 1821-ci ildə Hacı İsmayıl Kürdəmirskidən böyük mürşid ( mənəvi rütbə) titulunu aldıqdan sonra belə nüfuz əldə edə bildi .**

**Çar məmurlarına məlum olur ki, şeyxlərin mürşidi İsmayıl Şirvanidir və cihadı o elan edib. Ona və ətrafına qarşı repressiyalar başlanılır və bundan xilas olmaq üçün O, 1841-ci ildə Amasiyaya gedir və ömrünün sonuna kimi burada yaşamışdır. İsmayıl Şirvanini Qafqazda rus işğal siyasətinə qarşı mübarizənin rəmzinə çevrilərək Türkiyəyə mühacirət etmişdi. Mövlanə İsmayılın övladlarından biri Şirvanzadə Mehmet Ruşdi Paşa Osmanlı dövlətinin ən yuksək vəzifəsinə - sərdəzəmlik (baş nazir) məqamına qədər yüksələ bilmiş, yeganə azərbaycanlıdı. Şeyx 1848-ci ildə vəba xəstəliyindən vəfat etmiş və Amasiya yaxınlığındakı Şamlar qəbristanlığında dəfn olunmuşdur.**

# "Şuşa Zəfər Layihəsi" təqdim olundu

**Diasporla İş üzrə Dövlət Komitəsi 8 Noyabr - Zəfər Günü münasibətilə "Şuşa Zəfər Layihəsi"ni təqdim edib.**

Adalet.az xəbər verir ki, dövlət və hökumət nümayəndələrinin, millət vəkilləri və ziyalıların qatıldığı tədbirin iştirakçıları əvvəlcə torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra qonaqlara Azərbaycan Diasporuna Dəstək Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə dəstəyi ilə ərsəyə gələn, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən "Şuşa Zəfər Layihəsi" barədə ətraflı məlumat verilib. Fondun icraçı direktoru Əkrəm Abdullayev bildirib ki, layihə "Şuşa ili" çərçivəsində və Zəfər Günü münasibətilə həyata keçirilib, onun təşəbbüskarı isə San-Fransisko Dünya Musiqi Festivalının musiqi direktoru, ABŞ-ın tanınmış universitetlərində ustad dərsləri keçən, Azərbaycan musiqisini və kamançanı xaricdə təbliğ edən İmamyar Həsənovdur.




Layihədə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, Vasif Adıgözəlovun əsərlərinə və bir sıra milli musiqi kompozisiyalarına müraciət olunub, həmin əsərlər İ.Həsənovun məharətli ifası ilə təqdim olunub. İmamyar Həsənov çıxışında xaricdə yaşayan azərbaycanlı musiqiçi kimi Azərbaycan dövlətinin dəstəyini həmişə üzərində hiss etdiyini bildirib və buna görə Prezident İlham Əliyevə təşəkkür edib.

O, Şuşanın Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olduğunu və belə bir layihənin onun yaradıcılığında parlaq səhifəyə çevrildiyini qeyd edib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin nümayəndəsi Elmira Fərzəliyeva Diasporla İş üzrə Dövlət Komitəsinə və Azərbaycan Diasporuna Dəstək Fonduna səmərəli əməkdaşlıq üçün minnətdarlıq edib.

Qonaqlar "Şuşa Zəfər Layihəsi" adlı musiqi albomunu izlədikdən sonra çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Şuşa ili" çərçivəsində və Zəfər Günü münasibətilə dünya azərbaycanlılarının həyata keçirdiyi layihələrin əhəmiyyətindən danışıb.

Bildirib ki, dünya azərbaycanlıları hər zaman ölkəmizin və Ali Baş Komandanın yanındadırlar, beynəlxalq müstəvilərdə haqq səsimizin daha ucadan eşidilməsinə töhfələrini verirlər. "Xaricdə yaşayan azərbaycanlılar üçün əsas prinsip Azərbaycanın müstəqilliyidir. Müstəqilliyimizi isə nə sağdan, nə də soldan kimsə təhdid edə bilməz" - deyən Komitə sədri xaricdəki icmalarımızın uğurlu mədəniyyət layihələri barədə məlumat verib, İmamyar Həsənovun timsalında onların Qarabağla bağlı fəaliyyətlərini yüksək qiymətləndirib. Eyni zamanda komitənin layihələrinə hər zaman dəstək göstərən müvafiq dövlət qurumlarına və Heydər Əliyev Fonduna təşəkkür edib.

Milli Məclisin sədr müavini Fəzail İbrahimli 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun "Böyük Ermənistan" ideologiyasını darmadağın etdiyini deyib və bunun əhəmiyyətindən söz açıb.

Milli Məclisin deputatı, bəstəkar Novruz Aslan "Şuşa Zəfər Layihəsi"nin dünya ictimaiyyətinin Azərbaycan həqiqətləri, eləcə də zəngin mədəniyyətimizlə bağlı məlumatlandılrılması üçün əvəzsiz vasitə olduğunu vurğulayıb.

Azərbaycanın əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev İmamyar Həsənova yaradıcılıq uğurları arzulayıb. Şuşanın Azərbaycan tarixindəki rolundan bəhs edən əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Solmaz Tohidi-Rüstəmova qeyd edib ki, Azərbaycan musiqisi ölkəmizi dünyada tanıdan brendlərdən biridir.

Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova Vətən müharibəsindəki tarixi Zəfərin Azərbaycan xalqını birləşdirdiyini və Birinci Qarabağ müharibəsindəki şəhidlərimizin qisasının alınması ilə nəticələndiyini vurğulayıb.

**İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru İftixar Piriyev "Şuşa Zəfər Layihəsi"ni böyük mədəniyyət hadisəsi adlandırıb.**



*Vaqif Tanrıverdiyev*

# DEMƏK YAŞAMAĞA DƏYƏR BİR AZ DA...

## Bu da 70...

**Hər ilin bu günü qəribə bir hadisəni xatırlayıram. İkinci sinifdə oxuyurdum, şaiyə yayılmışdı ki, 2000-ci ildə dünya dağılacaq. Onda nə qədər çətin olsa da bir təhər hesablayıb tapdım ki, dünyanın sonuncu günü mənim 48 yaşım olacaq.**



**Tezliklə doğmalar, tanışlar arasında 48 yaşlı adam axtardım. İlk "kəşfim" ana babam Kamal kişi oldu, Hündür boylu , ağ sacli adam idi. Nəsə mənə 100 yaşlı qoca təsiri bağışladı. Yaş qorxusunu unutdum, həmin o gün, dünya dağılanda mən də Kamal babam kimi yaşlı, ağ sac bir adam olacam. Nə qədər uşaq olsam da o yaşda, yəni Kamal babam yaşımda gələcək faciədən o qədər də sarsılmadım. İndi mən 70 yaşımı qeyd edirəm, Kamal babamdan 22 yaş böyüyəm. İllər belədir, hiss olunmadan keçir, insan da qəribədir, heç vaxt yaşını hiss etmir. "Mənim illərim, mənim sərvətim.." bu qədim mahnını yəqin xatırlayırsınız... 65-də bir dəfə sarsıldım. Çəkdiklərim ürəyimə "ağır" gəldi. Yarada başımın üstündə, həkimlər yanımda oldu...**

**Ürək hələ ki, döyünür, ömür hələ ki, öyünür...Demək yaşamağa dəyər bir az da... Qəribə bir deyim də var: İnsan özünü hiss etdiyi yaşdadır. Görünür bu qənaətlə yaşayanlar haqlıdırlar. Arzularınızı oxudum, səmimiyyətiniz yaşımdan çox-çox uca, yaşımdan çox-çox "qoca" (müdrik də demək olar - zarafat) təəssüratı yaratdı. Yaş da yadımdan çıxdı, onun haqqında fikirləşmək də... Rəhmətlik Hüseyn Arifin bir deyimi var: "Sizin aranızda qocalan deyləm..."**

**Və bir də "Mən uşaq deyiləm, xeyli yaşım var, Bilirəm. söz nədir, məhəbbət nədir..." Sizin arzularınız da bunu ifadə etmirmi...**

***P.S.** Hə, az qalmışdı, unudum, ən böyük hədiyyəm Yaradanın bəxş etdiyi nəvələrim, ən böyük təsəllim nəvələrimin arzularının ifadəsi kimi hazırlatdıqları şirnilik tortu...*

*O mahnıda necə deyilir: Qoy həmişə Günəş olsun... Mən də deyirəm... Siz də olun həmişə...*



*Yaqut Bahadurqızı*

# Şəhidlərim...

*Günəşə baxıram gündüzlər - günəşin şəfəqlərində görürəm sizi. Aya baxıram gecələr- ayın haləsində görürəm sizi. Dənizə baxıram - dənizin dalğalarında görürəm sizi. Oda-ocağa baxıram - alovun şöləsində görürəm sizi. Torpağa baxıram - torpağın tozunda, zərrəsində, ətrində görürəm sizi. Aydan nur, günəşdən hərarət, dənizdən cəsarət,coşqu, oddan qığılcım, torpaqdan hünər,təpər, ətir alan oğullarım! Dağ başında qarımsız, baxçalarda barımsız. Kəhkəşanım, saraylarım, dövlətimsiz, varımsız.*

*Oğullarım, igidlərim,cəsurlarım! Çayların zümzüməsi sizin gülüşünüzü çatdırır qulağıma, küləyin vıyıltısı sözünüzü-söhbətinizi çatdırır mənə. Ovcuma aldığım bir ovuc torpaqda da, bir qurtum suda da, ocağımın bir dilim şöləsində də, ciyərimə çəkdiyim bir udum havada da sizi görürəm, sizi eşidirəm: - anam, atam, yarım, xalqım,Vətənim, ğlamayın,mən varam,mən burdayam. Dərd yeməyin, qəm içməyin, qəhr olmayın - mən burdayam, getməmişəm, ölməmişəm, itməmişəm, bitməmişəm. Gözünüzün bəbəyində, ürəyinizin özəyində, dilinizin əzbərindəyəm. Vətənin çölündə, çəmənində, baxçaların çiçəyində, zəmilərin dənində, təhnələrin çörəyində, süfrənizin bərəkətində,havanın ətrində... hər yerdə,hər şeydə, hər baxışda, hər sözdə mən varam. Mən cənnətin Mələyiyəm - əbədiyaşaram!*

*Şəhadət şərbətini içən oğullarım, igidlərim,Şəhidlərim! Yaşınızın rəqəmləri artacaq, tarixləri dəyişəcək, ancaq siz heç vaxt dəyişməyəcəksiz. Siz hər zaman beləcə gənc, simasında nur, dodağında gülüş, gözlərində işıq, baxışında bir dünya ümid, arzu , niyyət gedəcəksiz. Sonu görünməyən, bitməyən,tükənməyən, uzun, ağ, müqəddəs yolda yürüyərək gedəcəksiz...Addımınız mətin, niyyətiniz aydın,əliniz havada, gözünüzsə arxada...*

## Raxitik təsbeh sindromundan ölən körpə



**Avstriyada ailə qəbiristanlığında tapılan mumiyalanmış körpənin ölüm səbəbi 400 ildən sonra məlum olub.**

Körpə haqqında məlumat virtual yarılma yolu ilə əldə edilib. Yenicə yeriməyə başlayanda vəfat edən körpənin avstriyalı nüfuzlu bir qrafın ilk övladı olduğu bildirilib. Araşdırmada varlı bir ailədə doğulmasına baxmayaraq körpənin normal qidalanmadığı və pnevmoniyaya tutulduğu aşkarlanıb.

Qəbiristanlıqda adı açıqlanmayan yeganə tabutun körpəyə məxsus olduğu deyilib.

Alman elm adamı Andreas Nerliç və onun tədqiqat komandası yeni texnologiyalarla körpənin qalıqlarını virtual yarılma və radiokarbon testindən keçirib.

Nerliç tədqiqatla bağlı deyib: "Bu, sadəcə bir olaydır. O dövrdə erkən uşaq ölümləri geniş yayılmışdı. Bu tapıntılar bunun daha yüksək siniflərdə də baş verdiyini göstərir".

Dişləri çıxmış mumiyanın uzun sümüklərinə baxan komanda körpənin öldüyü zaman bir yaşında olduğunu deyib. Körpənin oğlan olduğu, yaşına görə çəkisinin bir qədər artıq olduğu bildirilib. Uşağın qabırğalarında şiddətli raxit və sinqa xəstəliyində müşahidə olunan "raxitik təsbeh" adlı sindrom görülüb. Kilolu olmasına baxmayaraq, onun düzgün qidalanmadığı vurğulanıb.

**Araşdırma zamanı məlum olub ki, o dövrdə raxit olan uşaqlar pnevmoniyaya qarşı həssas olublar. Bundan əlavə, tədqiqatçıların fikrincə, bir çox hallarda normal qidalanmama erkən ölümlərə səbəb olub.**

**Eminquey**

**Hadi Rəcəbli - 75**

# Mən Çörəklə ucalmışam...

**Siyasi elmlər doktoru, professor, Prezident yanında İdarəçilik Akademiyasının müəllimi Hadi Rəcəbli oktyabrın 25-də 75 yaşıyla vidalaşır. Yubiley ərəfəsində zəng vurub kefini soruşdum və Xalq şairi Nəriman Həsənzadənin bu misralarını söylədim:**

*Gəlib çatdım yetmiş beşə,*
*Düşdüm necə keşməkeşə.*
*Həsəd apardım yetmişə,*
*Bu yaş o yaş deyilmiş...*

Güldü və xarakterinə uyğun olaraq zarafatla cavab verdi: "Yaş hələ ki, məni qorxutmur. Dərsimi də deyirəm, idmanla da məşğul oluram, tədbirlərdə də başdayam..."

Düşündüm elə isə, 70 yaşında yazıb "Xalq qəzeti"ndə və "Söz" jurnalında dərc etdirdiyim yazını heç nə dəyişmədən oxucuların diqqətinə çatdırım.

Mənə elə gəlir ki, Hadi Rəcəblini ilk tanıyandan bəmbəyaz görmüşəm saçlarını. İlk görüşüm 1973-cü ildə olmuşdu. O zaman mən Lənkəran şəhər 5 saylı orta məktəbin VI sinif şagirdi, Hadi müəllim isə Lənkəran şəhər Komsomol Komitəsinin I katibi idi. Hər il mayın 19-da keçmiş SSRİ-də Ümumittifaq pioner təşkilatı günü qeyd olunardı. Həmin gün rayon-şəhər pionerləri adından çıxış edəcəkdim. İndiki Heydər Əliyev adına meydanda yüksək tribuna var idi. Bu tribunaya ilk dəfə qalxırdım. Minlərlə tamaşaçının toplaşdığı meydandakılara məni Hadi müəllim təqdim etdi. Videoların, telekanalların olmadığı həmin zamanda rayonda yerli qəzet vardı və bir də yerli radio. İnsanlar səbirsizliklə yerli qəzeti və yerli radio verilişlərini gözlərdilər. Ertəsi gün adım ilk dəfə yerli qəzetdə dərc olundu, yerli radioda səsləndi.

Bir il sonra komsomol yaşımız çatırdı. Bizimçün məsuliyyətli bir zirvə olan komsomol sıralarına da bizi Hadi müəllim qəbul etdi. İndi o illərin uzaqlığına varanda görürəm ki, gözümüzdə müdrik ağsaqqal olan Hadi müəllim cəmi 27 yaşındaymış.

Həyatda elə insanlar var ki, elə anadangəlmə ağsaqqal olurlar. Xeyirxah xidmətləriylə gənc ikən xalqın gözündə ucalırlar. Bəzən qibtə ediləsi bir şəxsə deyirlər: "Bəxtəvərə anası görən necə layla çalıb?!" Bəli, anası ən xoş arzularla balasına layla çalıb. Bəylərova Firuzə Kəlbə Yunus qızını Lənkəranda tanımayan tapılmaz. Firuzə müəllimə 86 illik ömrünün 50 ilini pedaqoji sahəyə həsr etmişdi. Onun müəllimliyindən başqa, şux zarafatları, biş-düşü, hətta şeir yazması da hamıya məlumdur. Firuzə müəllimə könül duyğularını övladlarına, sevdiyi insanlara, sonra isə nəvə-nəticələrinə ünvanlayıb. Könül duyğularını nəzmə çəkərək ilkinin - Hadi balasının laylasına çevirib. "Hadi budu, başda budu, komandirdi, polkovnikdi... Moskvadan məktub yazarsan mənə. Sən diplomu alanda təbrik yazaram sənə. Raykom adın alanda əhsən deyərəm sənə. Alim adın alanda qurban kəsərəm sənə" və s.

Ana nə arzulamışdısa, balaşı hamısına nail olub. Hətta bir az da artıq. Firuzə müəllimə hərdən yarıciddi-yarızarafat deyirdi ki, şairlik arzulamamışdım balama. Əgər buna da nail olursa, uğurlar diləyirəm.

Hadi müəllimlə 50 illiyində görüşəndə avtobioqrafik bir şeir verdi ki, bəzi suallara aydınlıq gətirmək üçün tanış olum. Doğrusu, şeir yazmasının ilk dəfə şahidi olurdum. Səmimiyyətlə yazılmış həmin şeiri yubileyində özündən özünə ən gözəl sürpriz kimi "Söz" jurnalında dərc də etdik.

"Söz" jurnalı ilk olaraq Hadi Rəcəblini oxuculara şair kimi tanıtdı. Sonralar "Söz" ilə əməkdaşlığı davam etdi. "Millət vəkilinin söz sevgisindən" adlı xüsusi rubrika da açdıq ona. Dərc etdiyimiz ilk şeirində belə bir misra vardı: "Anam şeir nəfəslidir, mənsə onun avazıyam". Şeir nəfəsli anasının avazı olan Hadi Rəcəblinin şeir yazması heç kimi təəccübləndirmədi. Sonralar bu barədə xalq şairi Nəriman Həsənzadə belə yazmışdı:"Mənim tanış olduğum şeir parçaları Hadi Rəcəblinin 50 yaşından sonrakı ömrün məhsuludur. Yetkin, dərin, övlada, ailəyə bağlılıq hissləri ilə dolu bir poeziyadır! Bu şeirlərdə bir az nostalji hiss etdim, ötən günlərə həsəd duydum, yaşamaq arzuları oxudum, məhəbbətlə ömür sürmək istəyi olan qeydlərlə tanış oldum. Məni xüsusən avtobioqrafik şeirlər daha çox duyğulandırdı..."

Deyirlər ki, hər şeyin hazırına gələn adam yaxşı rəhbər ola bilməz. Gərək fəhləlikdən başlayasan. Təsadüfi deyil ki, Hadi Rəcəbli orta təhsilini başa vurmamış böyük ailələrinə yardımçı olmaq üçün 14 saylı çörək zavodunda fəhləliyə başlayıb. Sonralar həmin günləri belə nəzmə çəkib:

*Zəhmət məni tez tanıdı,*
*ağuşuna erkən çəkdi,*
*Arzu zəmim bir toxumla səpilmişdi,*
*onu da ki, tale əkdi.*
*Fikrim-zikrim çörək idi,*
*ehtiyacım onda təkdi,*
*Otuz beş il addım-addım zəfər çaldım,*
*təhsil aldım,*
*Gəlib çatıb əlli yaşım.*

*Çörək dərdi, çörək ətri*
*həyatımın mənasına çevrilmişdi,*
*Bərəkətin qədri ulu,*
*xalqım onu imdad yeri, and bilmişdi.*
*Mən çörəklə ucalmışam,*
*uşaqlığım sünbül kimi biçilmişdi,*
*Həyat adlı bir təknədə yoğrularaq,*
*əzilərək, sıxılaraq*
*Gəlib çatıb əlli yaşım.*

Uşaqlığı sünbül kimi biçilən gənc çörək zavodunda işləyə-işləyə Moskva Yeyinti Sənaye İnstitutunda təhsil alıb. Elə zavodda mühasib, texnoloq, iqtisadçı vəzifələrinə yüksəlib. Ordan şəhər komsomol komitəsinin ikinci, sonra birinci katibi seçilib. O dövrün gənclər hərəkatında, tədbirlərdə, idman yarışlarında, fənn olimpiadalarında, musiqi müsabiqələrində Lənkəran komsomolçuları nəinki Azərbaycanda, Ümumittifaqda öncüllərdən idilər. Hadi müəllim gözəl təşkilatçılığı sayəsində yaddaşlarda elə iz qoydu, indi də adı gələndə yaşlı adamlar "komsomol Hadi" deyirlər ona.

Respublika Komsomolunun Mərkəzi Komitəsində, həm də I katiblər arasında onun xətir-hörməti yüksək idi. Bu xətir hörməti və işgüzarlığını nəzərə alaraq 1976-cı ildə Hadi Rəcəbli dövlət qulluğunda yeni vəzifə perspektivləri üçün Bakı Ali Partiya Məktəbinə göndərilir və oranı fərqlənmə diplomu ilə bitirir. 1978-ci ildə "Bakinski raboçi" qəzetinin Cənub bölgəsi üzrə xüsusi müxbiri işləyir. Qəzetçilik fəaliyyətiylə də yadda qalır. Problem məsələlər qaldırır və həllinə də nail olur. Mərkəzi Komitənin rus dilində çıxan qəzetində imzasını qoya bilir. 1980-1981-ci illərdə Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri, indiki ifadəylə desək, şəhərin meri seçilir. O dövr də lənkəranlıların yaxşı yadındadır. Şəhərdə bir canlanma vardı. Hər şənbə-bazar şəhər camaatı iməciliyə çıxırdı. İnsanlar hər yerdə abadlıq, yaşıllaşdırma, səliqə-səhman işlərilə məşğul olurdular. Bu işə məktəblilərdən tutmuş idarə, müəssisə rəhbərləri də cəlb olunurdu. "Lənkəran" qəzetində sonralar da davam etdirilən "Evimiz, küçəmiş, şəhərimiz" rubrikası Hadi müəllimin təşəbbüsüylə yaranmışıdı. Hər rübün axırında "Ən təmiz küçə", "Ən yaşıl həyət" və s. müsabiqələrin qalibləri elan olunur, haqlarında qəzetdə yazılar dərc olunurdu. Eyni zamanda səliqəsiz məhəllələr, bərbad küçələr və s. tənqid edilirdi. Tənqidi yazılar əlaqədar təşkilatlara göndərilir, görülən tədbirlər barədə dərhal cavablar gəlirdi.

Hadi Rəcəblinin sonrakı fəaliyyəti respublika miqyasını əhatə edir. 1981-1983-cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təşkilat partiya işi şöbəsinin inspektoru işləyir. Burdan Şəki Şəhər Partiya Komitəsinin birinci katibi seçilir və 1988-ci ilə kimi bu vəzifədə çalışır. Şəki həmin illərdə əsl ziyalı mərkəzinə çevrilir. Sosial-abadlıq işləriylə, camaatın maddi-rifah halının yaxşılaşdırılmasıyla yanaşı Şəkidə ilk dəfə Gülüş və İdman bayramlarının, yubiley tədbirlərinin keçirilməsinə nail olur. Bütün bunlar qədirbilən Şəki camaatının yaddaşında əbədi iz qoymuşdur. Dəfələrlə özüm şahidi olmuşam, hər bir şəkili etiraf edir ki, Şəkiyə çox raykomlar, icra başçıları gəlib-gedib, heç kim Hadi müəllimin yerini verə bilmir. Maraqlıdır ki, şəkililər Milli Məclisdə öz seçdikləri deputatlardan çox Hadi müəllimə müraciət edirdilər.

1989-1995-cu illərdə Nazirlər Kabinetində referent, aparıcı mütəxəsis, bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. Həmin ağrılı illərdə qaçqınlarla, köçkün və didərginlərlə işləmək məhz onun qismətinə düşmüşdü. 1995-ci ilin seçkilərində 74 saylı Lənkəran kənd seçki dairəsindən namizədliyini verdi. Hadi müəllim əvvəl də deputat olmuşdu. Sovet dönəmində nomenklatura idi, birinci katib olan şəxs Ali Sovetin deputatı olmalıydı. Amma indi seçilməliydi. Bəziləri millət vəkilliyinə vəzifə kimi gəlsələr də, Hadi Rəcəbli Nazirlər Kabinetindəki şöbə müdirliyini təhvil verib millət vəkilliyini üstün tuturdu. Və 37 min seçicinin səsini toplayıb millət vəkili seçildi.

Hadi Rəcəbli beş çağırış eyni dairədən namizədliyini irəli sürüb və seçilib. Xalq elçisi kimi özünü doğrultmuş, millət vəkili kimi özünü təsdiq etmişdir. Hadi müəllim üçün kənd-şəhər problemi yoxdur. Bütün fəaliyyəti şəhərlə bağlı olduğundan şəhər camaatı onu daha yaxşı tanıyır, sevir və işgüzarlığına bələd olduqlarından inanırdılar. Hadi müəllim isə namizədliyini kənd dairəsindən verir. Çünki Veravul kəndində dünyaya göz açdığından özünü həmişə kəndli balası sanır. Hamı kimi onun üçün də Vətən kəndindən başlayır. Kənd üçün yeni məktəb binasının tikintisinə, müasir avtomat telefon stansiyasının istifadəsinə və s. işlərə nail olub.

Beynəlxalq Konfranslarda tez-tez Azərbaycanı təmsil edib. Elmi məruzələri və çıxışları maraqla dinlənilib. Qaldırılan ən qlobal məsələ - Qarabağ, qaçqın, köçkün problеməri olub.

Başqa komitələrin qanun müzakirələrində də Hadi müəllim ən fəal deputatlardandır. İçtimai televiziyanın operatoru Ramin Nuriyev iştirak etdiyi iclaslardan bir məqamı mənə danışmışdı. Yeri gəlmişkən xatırlayaq. Milli Məclisdə Lerik rayonunun iqtisadi, xüsusilə yol problemi müzakirə edilirmiş. Çox hörmətli xanım deputatlarımızdan biri deyir ki, Lerik Azərbaycanın ən ucqarı



olduğu üçün ora pul sərf elmək labüd deyil. Bu fikrə ilk etirazını bildirənlərdən biri Hadi Rəcəbli olur və bildirir ki, Qarabağ da elə diqqətsizliyimizin ucbatından erməni tapdağına çevrildi. Lerik də digər bir ölkənin beş addımlığındadır.

Bütün bunların nəticəsidir ki, bir sıra qeyri hökümət və beynəlxalq təşkilatların sorğu nəticələrinə görə "İlin deputatı", "İlin ziyalısı", "Jurnalistlərin dostu" elan edilmiş, Yusif Məmmədəliyev adna medala layiq görülmüşdür. Uşaq hüquqlarının müdafiəsi üzrə BMT-nın müəyyən etdiyi lider siyasətçilərdən biri idi.

Həyatda minnətdar olduğu şəxslər arasında ilk növbədə ulu öndərin adı məhəbbətlə çəkir. 20 yaşından məhz onun rəhbərliyi altında işləməsini fəxarətlə anır. Ulu öndərimiz haqqında xatirələri şübhəsiz ki, bir yazıya sığan deyil. Amma elə xatirələr var ki, onları anmamaq mümkün deyil. Belə görüşlərdən biri Heydər Əliyevlə birgə müqəddəs Məkkə, Mədinə və Ciddə şəhərlərinin ziyarətidir. Məlumdur ki, Həcc ziyarəti müqəddəs Qurban bayramındadır. Məhz Heydər Əliyev cənablarına olan hörmət və məhəbbət sayəsində Kəbə evinin qapıları Qurban bayramında deyil, adi vaxtlarda ziyarətçilərin üzünə açılıb. Xarici səfərlərdə ümummilli liderin nələrə qadir olduğunun dəfələrlə şahidi olub. Belə saysız-hesabsız görüşlər, qəbullar yaddaşının ən unudulmaz xatirələrindəndir.

60 yaşının tamamında möhtərəm İlham Əliyev cənabları Hadi Rəcəblini ən ali mükafatlardan olan "Şöhrət" ordeniylə təltif etmişdir. 70 yaşında isə "II dərəcəli Vətənə Xidmət" ordenilə təltif olundu.

Hadi Rəcəbli Azərbaycanda ilk dəfə "BMT-nin ixtisaslaşmış qurumları ilə Azərbaycan arasında əlaqələr" mövzusunda namizədlik dissertasiyası, "Azərbyacan Respublikasında sosial siyasətin transformasiyası və komporativ təhlili" mövzusunda doktorluq işi müdafiə etmişdir. "BMT-nin ixtisaslaşmış qurumları ilə Azərbaycan arasında əlaqələr", "BMT-nin ixtisaslaşmış qurumları" və digər 11 kitabın müəllifidir. Dərs dediyi akademiyada tələbələrə beynəlxalq təşkilatlara aid xüsusi kurslardan mühazirələr oxuyur.

Gənclərlə işləmək gəncliyindən əzizdir Hadi müəllimə. Gənclərdə iki xüsusiyyət - mənəvi və fiziki tərbiyənin inkişafı həmişə diqqət mərkəzindədir. Çox zaman tələbələrini təcrübəyə Milli Məclisə gətirir. Tələbələr Əmək və Sosial Siyasət və digər komitələrinin iclaslarında olur, məsələlərə müdaxilə edir, fikir mübadiləsi aparırdılar. Tələbələrlə Hadi müəllim arasında qibtə ediləcək dərəcədə səmimi münasibət vardır. Buna nail olduğuna görə daxilən qürur hissi keçirir.

Akademiyada həmçinin məmurlara - nazirlərə, icra başçılarına... siyasi elmlərdən mühazirələr oxuyur.

Lənkəran diyarı dövri-qədimdən generalları, hərbi sərkərdələri, təbabətin bütün sahələri üzrə dünyada marşallıq etməyə layiq olan tibb alimləri ilə məşhur olub. Siyasət sahəsində isə Hadi Rəcəbli səviyyəsinə yüksələn ikinci siyasətçi yoxdur. Hər kəs bundan yalnız fəxarət duya bilər. Bəzən fikirləşirəm, bu gün onun müasiri olan bizlər onun böyüklüyünü dərk edirikmi? Təəssüf ki, yox. Ononun işinə yarıyıb, birinə yarımayanda dünya şöhrətli siyasətçinin ünvanına qəzetlərdə, sosial şəbəkələrdə nələr yağdırmırlar? Bütün bu böhtanlara, ədalətsizliklərə cavab verməsə də, ağrılar ürəkdən keçir axı... Görən nə vaxt dərk edəcəyik ki, Lənkəranın ziyalılıq simvollarından biri olan Hadi Rəcəbli ictimai-siyasi həyatın önündə gedən, BMT-də tanınan siyasətçilərdən idi. Milli Məclisdə qəbul etdirdiyi qanunlar - duzun yodlaşdırılması, ana südü, ana və uşaq, ailə qanunçuluğu və s. məsələlərlə bağlı problemlər BMT-də dünya dövlətlərinə nümunə olan modern qanunlar siyahısındadır.

Böyük enerji və iş qabiliyyətinə malik bu şəxsin vaxtını necə böldüyü məni həmişə düşündürür. Şəxsən özümlə bağlı bəzi məqamları xatırlamaq istəyirəm. Dəfələrlə icra strukturlarında yüksək vəzifələrə - Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavinliyinə mənim namizədliyim irəli sürüləndə məni dəstəkləyənlərdən birincisi Hadi müəllim olub. 5-6 il əvvəl Şüvəlanda "Yaşıl bağ" deyilən Reabilitasiya xəstəxanasında müalicə alırdım. Xəstəxanada müalicə alanlar əsasən elm yə sənət adamları, təqaüddə olan keçmiş vəzifə adamları idilər. "Söz" jurnalıyla görüş keçirmək istədiklərini bildirdilər. Görüşə Hadi müəllimi də dəvət etdik. İşinin çoxluğuna baxmayaraq görüşümüzə gəldi, çıxış etdi, xəstəxananın problemləri ilə maraqlandı. BDU-da daxili xidmət general-mayoru Aydın Məmmədova həsr olunmuş "Xəzərin general oğlu" kitabının təqdimatı keçiriləndə bütün təşkilati məsələlər onun diqqət mərkəzində idi. Cənub bölgəsinin ən məşhur jurnalistlərindən olan Əyyub Rzayevin Lənkəranda - doğulub yaşadığı və əbədiyyətə qovuşduğu Bala Şürük kəndində vəfatının on illiyi ilə əlaqədar anım gününü keçirirdik. Zəng vurub Hadi müəllimi də dəvət etdik. Dediyi vaxtda gəlib anım günündə iştirak etdi. "Söz" jurnalının yubiley tədbirlərində də eləcə.

Bəlkə də, onu sevdirən cəhətlərindən biri sadəliyi, səmimiliyidir. Bir də ki, işgüzarlıq, insanlara gərək olmaq mayasında, qanındadır.

Gərgin iş saatlarından sonra dost-tanışların, imkansız və əlillərin toy, şadyanalıq, məclislərində qol götürüb süzəndə, kimsənin sevincinə şərik olanda bütün yorğunluğunu unudur. Son dərəcə ailəcanlı olan Hadi müəllim nəvələrini qeyri-adi məhəbbətlə sevir, ömür-gün yoldaşı Mehriban xanımla birgə nəvələrilə olanda yorğunluğunu unudur.

Torpağı çox sevir. Lənkəranla nəfəs alır. Şüvəlandakı bağında adam özünü Lənkəranda hiss edir. Limon, naringi, feyxoayla yanaşı nanə, giləmərzə də əkib becərir. Onların ətrini duyub bəhrəsini görəndə sanki bir ömür cavanlaşır. Tanıyanlar bilir ki, boş vaxtı varsa, ya Şüvəlandakı bağındadır, ya nəvələrinin yanında.

Dediyim kimi, Hadi müəllimlə yazı-pozu adamı olaraq ən yaxın ünsiyyətim 50 illik yubileyində olmuş, yazı hazırlamışdım. 50 yaşına "cavanlığın qocalığı" söyləmişdi. 60-da daha gümrah görünürdü. "Söz" də dərc etdirdiyi bir şeirində deyirdi:

*Qınamayın, yaşıdlarım, gəlin məni,*
*Bilməm nədən sevə-sevə qocalıram?*
*Məhəbbətin əziyyəti saçlarıma salıb dəni,*
*Bəlkə, elə mən həyatdan bu minvalla bac alıram?!*

İlahi sözü yüksək qiymətləndirən Hadi Rəcəbli onu sevənlərin istəyiylə 60 yaşdan sonra özü haqqında kitab yazılmasina razılıq verdi.

"Hadi Rəcəbli düşüncələr işığında" adlanan həmin kitab qarşımdadır. Kitabın üz qabığından tutmuş icərisindəki fəsillərin tərtibatı da gözoxşayandır. Yazıların "dadınaduzuna" da irad tapa bilmədim. Müəllif tapmaqda da Hadi Rəcəbli yanılmayıb. Son dərəcə səmimi və orjinal qələm sahibi Kamal Turalla (Rəhmanov) "Lənkəran" qəzetində uzun illər birgə işləmişik... Müəllif "Kəsişən yollar" bölümündə fikirlərinə belə aydınlıq gətirir: "Bir ailənin xoşbəxt övladı, anasının "Şah əsəri" sayılan Hadi Rəcəblinin arxada qoyduğu ömür yolunun uğurları ilə öyünməyə haqqı çatır. Gərgin əmək və işgüzarlıq keyfiyyətləri ilə bir insanın hamının gözləri önündə reallaşan canlı obrazı həqiqətən də çox dəyərli, çox mənalı bir ömrün simvoludur. Elə buna görə də düşüncələrimin işığında gedəcəyim yolun oxucular üçün də ibrətli məlumatları üzə çıxaracağına inanıram".

İnamında haqlı idi Kamal Tural. Və bu haqlı inamla kitabı yazıb başa çatdırıb. Təəssüf ki, ilk və yeganə kitabını görmək sevincini yaşaya bilmədi. Amansız ölüm onu aramızdan vaxtsız apardı. Amma onu da bilirik ki, dünyada ən uzunömürlü varlıq sözdür. Kamal Tural sözlə təkcə Hadi Rəcəbliyə yox, özünə də əbədiyaşar söz abidəsi ucaltdı.

Kitabla bağlı daha bir nüansı xalq yazıçısı Anar "Ön söz"də yazır:"...Hadi Rəcəblinin rəhbərlik etdiyi rayonda bölgənin bütün incəliklərini, dadını, duzunu, koloritini özündə əks etdirən, ömrüm boyu unuda bilməyəcəyim bir tədbir - "Şəki bayramı" keçirilirdi. Həmin gün bir sıra obyektlərlə yanaşı, hamımız üçün əziz olan kitaba hörmət abidəsi kimi xüsusi zövqlə tikilmiş "Rəhil" kitab evi də açılırdı. Kitaba hörmət, sevgi, qayğı Hadi Rəcəblinin tutduğu bütün vəzifələrin tərkib hissəsi olmuşdur. Hələ cavan çağlarında Lənkəranda şəhər başcısı olarkən ənənəvi Kitab bayramının keçirilməsi yaddaşlarda onun adıyla qalıb".

Hadi Rəcəbli 70 yaşına təmtəraqlı yubiley tədbiri keçirmədi. Haqqında Kamal Turalın yazdığı kitabı daha da təkmilləşmiş şəkildə rus dilində çapa hazırladı. "Şeirə həvəs tükənmir" deyibən özünü təbrik etdi.

*Arxam oldu doğma yurdum,*
*Qucağında yuva qurdum.*
*Dağlar aşdım, yollar yordum,*
*Qaralmayıb hələ nəfəs,*
*Canımda var min bir həvəs...*

Hadi Rəcəbli ömrün 75 illik zirvəsindən geriyə boylananda şərəfli bir yol görür. Mübarizə və gərginliklərlə dolu ömür yolu. 40 ildən çox pedaqoji fəaliyyətlə məşğul olan həyat yoldaşı Mehriban xanım respublikanın Əməkdar müəllimidir. Birgə boya-başa çatdırdıqları övladlarının dördü də cəmiyyətdə layiqli mövqe sahibidirlər. Estafeti nəvələr davam etdirir. Ali və orta məktəblərdə qazandıqları uğurlarla ailəyə başucalığı gətirirlər. Ailədə nəsil davamçısı olaraq Hadi Rəcəbli də yetişir, Mehriban Rəcəbli də...

On nəvə toyu, nəticə sevinci gözləyir onu. Özünün dediyi kimi:

Nəvələr yaşadar məni yüzədək.

Hadi Rəcəbli 75 illiyini yenicə çapdan çıxmış "Sosial sahələrin idarə edilməsi" kitabıyla qarşılayır. Bilir ki, bəşəriyyət üçün kitabdan dəyərli heç nə yoxdur.

Hadi Rəcəblinin ömür yoluna qısa nəzər saldım. Onun təbiətinə, xarakterinə uyğun yazmağa çalışdım - səmimi, pafosdan və gəlişigözəl sözlərdən uzaq.

***

Yazını hazırladığım zaman Hadi müəllimə maraqlandığım bir sualı da ünvanladım - artıq Milli Məclisdə komitə sədri deyilsiniz. İnsanların sizə münasibəti necədir? Aydınlıq gətirdi ki, uzun illərin təcrübəsindən məlumdur, vəzifədə olanda ətrafında yüzlərlə adam fırlanır. Elə ki, enişlər olur, əksəriyyəti gözə görünmür. Onda bilirsən ki, onlar çörək dostları imiş... Birinci sinifdən parta yoldaşım olan Hüseynbala Mirələmov bu gün də ən yaxın dostum, sirdaşımdır. Eləcə də 3-4 nəfər. İndi yaşımızın elə dövrüdür ki, 30-40 nəfərlə oturub-durmağa nə vaxt var, nə də ovqat. Elə 3-4 nəfər bəs edir. Bir də ailəm, 4 övladım, 2 kürəkənim, nəvələrim... Bu gün onlar cəmiyyətdə nüfuzlu mövqe sahibidirlər. Kiminsə işinə yarınmaq istəyəndə onlara müraciət edirəm. Mənə ümidlə müraciət edənlərə onların vasitəsilə kömək etməyə çalışıram.

***

***SÖZARDI:** Elə bilirəm insanın ilk sevgisi ana sevgisidir. Qalanları ondan sonra gəlir... Hadi Rəcəbli ilə Firuzə müəllimə arasında qeyri-adi ana-bala sevgisi vardı... Firuzə müəllimə yeddinci ildir dünyasını dəyişib. Lakin ailədə xatirəsi hər zaman ehtiramla anılır... Firuzə müəlliməyə niyə qayıtdım? Ötən yay Lənkəranda "Palıdlı sahil" istirahət mərkəzində dincəlirdim. Tibb elmləri namizədi, uzun illər Şüvələndakı Yaşıl bağdeyilən Reabiltasiya mərkəzinin baş həkimi işləmiş şairə Tamilla xanım Hacıyeva ilə birgə dincəlirdik. İstirahət üçün hər şərait nümunəvi qaydada idi. Amma diqqətimi çəkən və yadımda əbədi qalacaq "Nənəmin xatirə otağı" oldu. Tural Rəcəblinin yaratdığı bu xatirə otağı nənəsi Firuzə Bəylərovanın şəxsi əşyalarından ibarət olsa da, bir növ sanki onun yaşadığı dövrün salnaməsini əks etdirir. Bütün varlığı ilə ziyalılıq və xeyirxahlıq simvolu olan Firuzə müəllimənin qab-qacağı, xalşa-palazından çox, ona bağışlanan kitablar, qəzet və jurnallar diqqəti cəlb edir. Qəzet və jurnallar arasında bizim "Söz" jurnalının da müxtəlif sayları yer alır.*

**Sevda ƏLİBƏYLİ**

# Yetişməkdə olan indiki və gələcək nəsillər Vətən müharibəsində qazanılan Zəfərin nəticələrini qorumağa köklənməlidirlər

**Azərbaycan torpaqları 30 ilə yaxın idi ki, işğal altında idi. Bütün dünya işğal altında olan Qarabağı və ətraf rayonları Azərbaycanın ərazisi kimi tanısa da, BMT Təhlükəsizlik Şurası tərəfindən müvafiq qətnamələr qəbul edilsə də, bu dövrdə Ermənistana qarşı heç bir beynəlxalq təzyiq baş vermədi. Əksinə, əksər beynəlxalq təşkilatlar, problemin həllində vasitəçilik missiyası həyata keçirənlər ikili standartlar siyasəti yürüdərək işğal siyasətinə dəstək vermiş oldular.**

İşğala məruz qalan Azərbaycan olsa da, danışıqlar prosesində kompromisə getmək üçün ölkəmizə təzyiqlər edildi. Lakin Azərbaycan milli maraqlarından bir addım da belə geri çəkilmədi. Respublikamız heç zaman torpaqlarının işğal altında olması ilə barışmadı. Prezident İlham Əliyev həmişə bəyan edirdi ki, torpaqlarımız mütləq azad olunacaq. Ordumuzun döyüş imkanlarının artırılmasının, ən müasir silah və hərbi texnikanın alınmasının bu məqsədə xidmət etməsi də məlum idi. Beləliklə, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin dinamik inkişafı və yüksəlişi həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün tarixi şərait formalaşdırdı və nəhayət, Vətən müharibəsi xalqımızın ən böyük arzusunu çin etdi, dövlətimizin yeganə ağrılı probleminə son qoydu.

Bəli, bu müharibədə torpaqlarımızı Ali Baş Komandanı İlham Əliyev olan Silahlı Qüvvələrimizin əsgərləri, zabitləri, çavuşları, gizirləri azad etdilər. Onlar müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdu, necə lazımdırsa onu cəzalandırdı. Bu müharibədə rəşadətlə döyüşən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrildi. Hərbçilərimiz döyüş meydanlarından bütün dünyaya göstərdilər ki, torpaq uğrunda mübarizə necə olur. Hər bir vətən övladı




igidliyin, cəsarətin, qorxmazlığın nümunəsini yaratdı, qəhrəmanlıq salnaməsi yazdı. Vətən müharibəmiz şanlı Qələbə ilə tariximizin ən parlaq səhifələrinə qızıl hərflərlə həkk olundu. 30 illik yurd həsrətimiz, Qarabağ nisgilimiz sona yetdi, məcburi köçkünlərimiz qəribçilikdən qurtularaq doğma el-obalarına qovuşdular. Bu möhtəşəm qələbəni, hədsiz sevinci, böyük xoşbəxtliyi Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq.

"Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan 44 günlük Vətən savaşı ərzində əsgərlərimizin hər biri öz şücaəti ilə qəhrəmanlıq dastanı yazdı. Canlarını Vətənə sipər edərək, qanlarını qurban verərək bayrağımızı zirvələrdə dalğalandırmaq naminə bizi zəfərlə müjdələdilər.

2020-ci il dekabrın 10-da isə Azərbaycan xalqı bu igidlərimizin müəyyən hissəsini böyük fəxr, qürur, minnətdarlıq duyğusu ilə seyr etdi.

Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradında Azərbaycan xalqı ordusu ilə qürur hissi keçirdi.

**Şanlı Qələbə ölkəmizin, xaılqımızın tarixinə qızıl hərflərlə yazıldı. İndi orta məktəblərin tarix dərsliklərinin üz qabığını Topçu Vüsalın, digər qəhrəmanlarınızınm şəkilləri bəzəyir, tarix fənnində Zəfər yolu işıqlandırılır, Vətən müharibəsinin 44 təqvim günü ərzində azad edilən şəhər, rayon və kəndlərimizin adları bir-bir sadalanır, Cənubi Qafqazın ən qüdrətlisi olan Azərbaycan ordusu tərənnüm olunur, qardaş Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstəkdən bəhs olunur. Milli yaddaşın qızıl fondu olan Böyük Qələbənin əhəmiyyətini təbliğ etmək Azərbaycan məktəbinin, müəllimlərin mühüm vəzifəsidir. Çünki yetişməkdə olan indiki gənc nəsil, eləcə də gələcək nəsillər Zəfərin nəticələrini qorumağa köklənməlidirlər.**

**Aynurə Rüstəmova,**
**200 saylı Məktəb Lisey Kompleksinin ingilis dili müəllimi**



Əbülfət MƏDƏTOĞLU

# Dünyanın ən müqəddəs varlığı

## Şair-publisist Mahmud Qacarla bölüşdüyüm fikir

İnsan sevinəndə də, kədərlənəndə də, ağrıyanda da, şən olanda da ilk axtardığı, ilk aradığı, ilk yadına düşən varlıq ANAdı! Bu elə bir varlıqdır ki, ona sığınıb, onun dizinə baş qoyub ağlamaq da, yatmaq da, layla dinləmək də, ürəyindəkiləri nöqtə-vergülə qədər çəkinmədən danışmaq da mümkündü. Yalnız onunla baş-başa qalanda, onunla özünü, sözünü bölüşəndə rahat olursan, dinclik tapırsan və hətta son nəfəsdə də bəzən gözlərini yummamış "ANA" deyirsən. Yuxuda da "ANA" sayıqlayırsan. Özünü də, cansız başdaşını da sinənə sıxanda ayrı bir hisslər yaşayırsan. Bütün bunlar hər kəsin yaşadığı hissdi, bir az az, bir az çox. Amma...

Elə insanlar da var ki, sağlığında hər kəs kimi Anaya da göstərdiyi laqeydliyini sonradan, guya borcunu qaytarırmış kimi , məzarı üstündə yapdığı möhtəşəm məqbərə ilə ödəməyə çalışırlar. Guya ki, o bahalı başdaşı, o təmtəraqlı kümbəz, daha nəbilim nələr və hətta gecələr məzarı üstə yanan "İliç" lampası Anaya borcu qaytarır, sevgi qarşılığı olur!.. Yox, yanılırsınız. Ayaqları altda Cənnət olan analar üçün bal kimi şirin "Ana" sözü yetər, amma sağlığında... Qucağına sığınmaq, saçlarından öpmək, əlini üz-gözünə sürtmək kifayət edər ona - amma sağlığında və...

Bəli, bu mövzunu uzatmaq olar, özü də dayanmadan, durmadan. Çünki ANA həm ən uca varlıq, həm sığındığın torpaq, həm də and yeridi. Axı biz onun südünə də and içmişik. Deməli, bütün bu çalarların içində fərdi bir məqam da var. O fərdilik də daha çox ruh adamlarına, söz adamlarına məxsusdur. Onlar anaya olan sevgini öz yaradıcılıqlarında göylərə qaldırırlar. Və elə kainatın ən halal yeri də göy üzüdü! Həmin mərtəbədə olan ANA rəssamın, bəstəkarın, şairin, heykəltəraşın, aşığın fırçasında, qələmində, sazında öz layiqli mərtəbəsinə qalxır və bu mərtəbənin ucalığı həm əlçatan olur, həm ünyetən olur, həm də həsəd aparılacaq mərtəbə.

Bu gün yenə kitab rəfimin önündə dayanıb baxaram. Diqqətimi şair-publisist, dəyərli dostum, zamanında birlikdə çalışdığım və halallığı, səmimiyyəti ilə hər zaman mənim üçün əziz olan Mahmud Qacarla dərdləşəcəm. Onun "Bağışla, ANA" şeiri bizim vətənsiz - Qarabağsız günlərimizin ifadəsidir. Həmin zamanın diktəsidi. Biz qaçqınçılığı, yurd nisgilini yaşayanda ən çox üz tutduğumuz, ən çox dərdləşdiyimiz Analarımız və onların ruhları olubdur. Həmin dərdləşmə məqamında elə bilirdik ki, anamızın bir kəlməsi bütün problemlərimizi çözəcək. Bilə-bilə ki, bu problem onların gücündən asılı deyil, amma yenə onlarla dərdləşirdik, onlardan üzr istəyirdik. Olduqları mərtəbədə saxlaya bilmədiyimiz üçün. Bizi dünyaya gətirdikləri yurd-yuvanı qoruya bilmədiyimiz üçün. Bu dediklərimi Mahmud Qacar belə ifadə edib:

*Baxırsan nə qəmli baxışla, Ana,*
*Belə görməmişdim heç harda səni.*
*Oğlun aciz çıxdı, bağışla, Ana -*
*Dəfn edə bilmədi Qacarda səni.*

Bir oğulun bundan ağır kədəri, bundan ağır dərdi olarmı? Məncə yox. Elə o ağrını da, o kədəri də etiraf etmək və öz oğul acizliyini ANA qarşısında dilə gətirmək də şair üçün ölümə bərabər bir məqamdı. Çünki Ananın arzuladığı, dilinə gətirdiyi məzarlıqda doğmaları ilə birlikdə torpağa tapşıra bilməmək bu kədərin son həddidi. Bu ağrının son nöqtəsidi. Bax, Mahmud da onu həm oğul kimi, həm də şair kimi yazanda nələr çəkdiyini kim də bilməsə, mən də öz içimdə təkrar yaşayıb təkrar ağrıyıram və ona qoşularaq üzümü Anama tuturam :

Telefonda
qırıq-qırıq
səsini eşitdim,
Elə bil
xəncər yeridi
ürəyimə...

Bəli, səsinin titrəyişi, üzünün qırışları, əlinin qabarı gözümün önündən getməyən Anamın qaçqın şəhərciyində, çadır küncündə "Allaha pənah" deyib hər səhər, hər axşam qoyub gəldiyi, daha doğrusu, qovulduğu kəndə doğru baxıb ah çəkməsi bir film deyil, bir həyat hekayəsidi, özü də yaşanan, yaşandıqca da adamın tüstüsünə təpəsindən çıxaran həyat hekayəsi. Burda da oğul acizliyi, oğul fərsizliyi etiraf edilsə də, heç nə günahı yumur və bunu mən əzizim Mahmud Qacarın misralarında da hiss edirəm, daha doğrusu yaşayıram:

Nisgilli məzarda ağırlığa bax -
Elə bil əyilib dağın çiyini.

Bağışla, anacan, özündən qabaq
Dəfn edə bilmədim qəribliyini.

Məzarın qərib olmağı insanın qərib olmasından daha ağrılıdı. Çünki insan qəriblikdən dönə bilər, amma məzarın qəribliyi ürəkdə ömürlük yara, ömürlük sızıltıdı. Bunun üçün nə qədər üzrxahlıq etsən də, o üzrxahlıq təsəlliyə çevrilmir. Deməli, burda mənim düşüncəmə görə, bir məqam var. O da o məzarı içində daşımaq və bir də o məzarın qisasını almaqdır. Şükürlər olsun ki, bu qisas 44 günlük savaşımızda alındı. Amma Ana qarşısındakı qəriblik xəcaləti qaldı ürəyimizdə. Mən də o xəcaləti yaşayanlardan biri kimi Anama pıçıldadım:



Zorla danışdığını
təxmin etdim
Telefon
xəcalət çəkirdi
sanki mənim
yerimə.

Bəli, bu bir özünə təsəllidi, bu hardasa bir şairin özünü dərdin içindən, xəcalətin içindən çıxartmaq üçün söylədiyi şair yalanıdı. Gerçəkdə isə oğul da, qardaş da, ər də bu xəcalətin bir çıxış yolunu bilir, o da savaş, o da qisas, o da yurda dönüşdü. Bax, bunu təkcə mən yox, hər kəs bilir və hər kəs də bildiyi kimi etiraf edirdi. Onu Mahmud Qacar da öz bildiyi, öz duyduğu və yaşadığı kimi qələmə alıbdı. O, oğul olaraq, şair olaraq ANA məzarı qarşısında, Ana qarşısında bütün səmimiyyəti və bütün ürəyi ilə hər kəsin eşidəcəyi səslə deyib:

Yurd-yuvası talan olan oğulun
Yurddaş adı daşımağa haqqı yox.
Anası qürbətdə ölən oğulun
Torpaq üstə yaşamağa haqqı yox!

Gördünüzmü, nə qədər konkret, nə qədər içdən gələn yanğı və fəryadla yazılıb bu misralar. Etiraf edilib gerçəklik, göstərilib çıxış yolu. Mən Mahmud Qacarın bu duyğularına böyük sayqı ilə qəbul edib özüm də həmin o yazılalara qoşulub öz düşüncələrimi, öz fikirlərimi, öz Anamın timsalında kağıza köçürməyə çalışmışam. Bununla Anama və bütün Analara demək istəmişəm ki, həqiqətən biz günahkarıq və sizin bizi bağışlamağınız üçün yeganə yol yurda dönüşdü, ocağa qayıdışdı. Əks halda bu xəcalət bizi üzdüyü kimi də, bizim fərsizliyimiz sizə ikinci bir ağrı olacaqdı:

Çadır taleyi anam,
bacarırsan bağışla
indi nə söz urvatdadı,
nə qələm
Əli ciblərinə yük
sual işarəsi tək
boynu bükük
günahkar bəndə
mənəm -
Sənin fərsiz oğlunam
heç nə edə bilmirəm.
Ancaq başa düşürəm -
çat vermiş ürəyində
mən ən böyük
ağrınam...

Deməli, hər iki şeirdə edilən etiraf təqdim olunan hisslər bir ünvana yönəldilsə də, bu müəlliflərə rahatlıq vermir. Onların üzrxahlığı keçərli sayılmır. Çünki ANA qarşısında borc ödənildiyi halda övladlar rahatlıq tapa bilir. Bax, bu mənada mənim və Mahmudun Anaya ünvanlanan şeirləri yalnız o borcu özümüzə və oxuculara xatırlatmaq - yəni bir azca təsəlli tapmaqlı. Əsil təsəlli həmin o dönəcəyimiz yurdda, yuvada yandıracağımız ocaqlardan və işıqlardan gəlib keçir. İnşallah, dönüş başlayıb o işıqlar, o ocaqlar yanacaqdır. Analarımızın özləri, yaxud da ruhları onda bizi bir iynə ucu boyda bağışlayacaq.Bütünlükdə isə ANAların borcu övladın özüdü ...

# İstiqlal şairi Əhməd Cavad

## "Çırpınırdı Qara dəniz" nəğməsi necə yarandı...

**Əhməd Cavad Axundzadə 1892-ci il mayın 5-də Gəncə quberniyasına bağlı Şəmkirin Seyfəli kəndində tanınmış bir ailədə dünyaya gəlmişdir. Çox kiçik yaşlarından atasız qalan şair ilk təhsilini Gəncədə Şah Abbas məscidinə bağlı Ruhani Seminariyada almışdır. Lakin yeni əsr başlamaqla bərabər özü ilə azadlıq ruhu, milli kimliyini dərketmə coşqusu ilə bir dəyişmə, yenilənmə havası da gətirirdi. Müəllimlər də ruhani seminariya müəllimləri olsalar da uşaqlara yalnız dərs verməklə qalmır, onlara həm də söhbətlərində vətən sevgisi, millət qayğısı kimi milli ruh aşılayırdılar. Onların arasında şair Hüseyn Cavid, ədəbiyyatşünas Abdulla Sur, Şeyxülislam Pişnamazzadə, İdris Axundzadə kimi tanınmış simalar var idi. Əlbəttə, ustadına, tərbiyəçisinə bağlı bir gənc olaraq onların aşıladığı fikir və qayəsini izləyən yeniyetmə Cavadı azadlıq istəkləri istiqlal yoluna gətirib çıxardı. Elə buna görə də bəxtinə düşən elm-maarif bayraqdarlarının açdığı yolun işığına öz emosional davranışı və çılğınlığı ilə seçilən gənc Əhməd bu illərdə - yeniyetməlik çağlarından gələcək şeirlərinin ilk təcrübəsinə başlayır. Lakin bu yolun bir ömrü işıldada biləcək bəhrələri vardıysa da digər istiqlalçılar - mühacir Almas Yıldırım, Mirzə Bala Məmmədzadə, Ceyhun Hacıbəyli, Əli Mərdan bəy Topçubaşov və general Məmmədsadiq bəy Ağabəyzadə, mücahid Sarı Ələkbər, erməni gülləsinə tuş gələcək olan Həsən bəy Ağazadə, Fətəli xan Xoyski, Behbud xan Cavanşir kimi bir kədərli ömür payı da varmış**

Hələlik bunlar qalsın...

Əhməd bəyin qısa yarımçıq ömrü təkcə ölkəmizin deyil, hətta Qafqazın da deyil, dünyanın silkələnib dağıldığı böyük çevrilişlər, inqilablar, müharibələr, bunlar da azmış kimi bu savaşların gətirdiyi mənəvi dağıntılar dövrünə düşür. Əsrin ilk onilliklərində Türkiyəni, ardınca dünyanı bürüyən savaşlar onu da atılan top səsləri diksindirər kimi Əhməd Cavadı da diksindirib məhvərindən çıxarır. Türkiyənin düçar olduğu Balkan hərbində İstanbula gedir, orada təşkilatlanan Qafqazlı könüllülərə qoşulur. Faciə isə günü gündən böyüyür, dünyanı saran I Dünya mühaibəsi başlayır, ən qanlı savaş meydanı olan rusların bitərəf sakit, zərərsiz sandığı Qafqaz cəbhəsi açılır. Çar II Nikolayın Qafqaz cəbhəsinə gəlişi, Kars və Sarıkamış cəbhələrində imperiyanın Qafqaz Ordusu əsgər və zabitləri ilə görüşü və erməni kilsəsindəki provaksiyon çıxışı, ermənilərə müraciəti öz meyvəsini verir. Bir neçə zamandı fəallaşan ermənilər açığa çıxır, artıq müharibə soyqırıma çevrilir.

Yaş az, təcrübə yoxsa da düşüncə, öz soyuna-sopuna sevgi çox yetkin, bişgin... Gənc Əhmədi gah cəbhələrdə, gah da Rus basqısı altında olan Ərzurum, Qars, Acarıstan bölgələrində qırğına məruz qalan əhalisinə yardım üçün yaradılmış "Qardaş köməyi" təşkilatında qızğın fəaliyyətdə görürük. Gördüyü yerlərdəki qətl-qarətlər onun yanar ürəyinə od salır. Həmin ürəyin odunda şeirinin atəşli misraları doğulurdu. Əhməd Cavad şeirinin hər misrası bir çağırışdır, azadlığa, hürriyyətə səslənişdir.

Mənim qələm dostum Nəsiman Yaqublunun dediyi kimi Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi mövqeyini qazanmaq məhz Əhməd Cavada nəsib oldu. Bütün Şərqdə və Türk dünyasında ilk demokratik dövləti - Azərbaycan Xalq Cümhuriyyətini o, böyük sevgi və vətən məhəbbəti ilə tərənnüm etdi.

Türk və Azərbaycanın birləşmiş qüvvələrilə birlikdə addımlayaraq Bakının xilasına tələsən bu zaman ərzində "Nə gördümsə", "Türk bayrağına", "Türk ordusuna", Xəlil paşaya həsr etdiyi "Röyasını görmüşdüm" və "Ey əsgər" (Ordumuza ərməğan) "Bismillah", "Qalx, sarmaşıqlı məzar altından" və b.k. şeirlərində Qafqaz İslam Ordusunun xilaskarlıq missiyasından doğan ümid və sevinc hissləri bu bədii nümunələrdə çağlamaqdadır.

Tarixdən yarpaqlar 1918-ci il avqustun 5-də sübh tezdən Birinci Bakı döyüşü başlandı. İlk saatlarda Türk qoşununun hücumu qarşısında erməni, rus və ingilislərdən meydana gələn Bakını "müdafiə" qüvvələri geri çəkilmək məcburiyyətində qalmışdılar. Şəhərə hakim olan Bayıl təpələri də ələ keçirilmişdi. Şəhərin xristian əhalisi xof və dəhşət içində qaçmağa qalxmışdı. Bakının qurtuluşu yaxınlaşmaqda idi. Lakin topçuların irəliləyən qoşun hissələrinə verdiyi atəş dəstəyi getdikcə azalmağa başlamış və günortadan sonra tamam kəsilmişdi. Beləliklə, top mərmisi ehtiyatının olmaması üzündən hücum başa çatdırıla bilmədi. Bol silah-sursatla təchiz olunmuş düşmənin top və makinalı tüfəng atəşləri qarşısında türk birlikləri Heybət-Biləcəri dəmiryolunun qərbindəki xəttə çəkilməyə məcbur oldular. Orduda böyük məyusluq başlanmışdı. Milli istiqlal şairimiz "Bismillah" şeirini Bakı altında məğlubiyyətə düçar olmuş ordunu ruhlandırmaq məqsədilə yazmışdı.

***Atıldı dağlardan zəfər topları***
***Yürüdü irəli əsgər bismillah***
***O Xan sarayında çiçəkli bir qız***
***Bəkləyir bizlərdən zəfər bismillah!***

Əhməd Cavad bu şeirini Güzdəkdə, Bakını mühasirəyə almış, xilasa çalışan Qafqaz İslam Ordusuna yazmışdı. Yenə həmin gün "Bən röyada nazlı yarın Tellərini örmüşdüm. Bu sevincli zamanların röyasını görmüşdüm..." ("Azərbaycan" qəzeti, 14 təsrini əvvəl (oktyabr) 1918- ci il sayında çap olunmuşdur) şeirini Əhməd Cavad Şərq Orduları qrupu komandanı Xəlil Paşaya həsr etmişdi.

Əhməd Cavadın qəhrəman Türk ordusuna sevgisi bitib tükənmir. Qurulmuş müstəqil Cümhuriyyətin mövcudluğunu bu ordunun zəfərində görür.

***Ey şanlı ölkənin şanlı ordusu,***
***Unutma Qafqaza girdiyin günü!***
***Gəlirkən qovmağa Turandan Urusu,***
***Ayağını Qara dəniz öpdümü?!***

Bəs "Çırpınırdı Qara dəniz" şeiri və nəğməsi necə yarandı...

Böyük Britaniya (admiral Kaltorn) və Türkiyə (Rauf Hikmət və Sədulla bəy) nümayəndələri arasında 30 oktyabr 1918: İngiltərənin Mudros limanında (Ege dənizi, Lemnos adası) dayanmış "Aqamemnon" krayserində sülh imzalanmışdı. Mudros barışığının şərtləri Türk ordusunun danışıqsız təslim olmasını, Türk ordusunun İrandan, Kilikiyadan, Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan və Dağıstandan çıxarılmasını nəzərdə tuturdu. Mudros barışığının 11-ci maddəsinə əsasən, Azərbaycan İngiltərənin nüfuz dairəsi elan edildi. Bundan sonra bu mənhus "sülh"ün məhdudlaşdırıcı şərtlərinə görə Qafqaz İslam Ordusu öz azadlıq və qardaşlıq missiyasını şərəflə başa vuran və indi Azərbaycanı tərk etməli olan Qafqaz İslam Ordusunun komanda heyətinə minnətdarlıq ifadə edən vida ziyafəti hazırlıqlarına başlanır. Bu möhtəşəm ziyafət həmin günlərin mətbuat səhifələrində geniş işəqlandırılmışdı: Təşrini -sani (Noyabr ayı)nın 10-da Bakılı milyonçu Ağa Musa Nağıyevin Yay klubunun zalında (indi Zabitlər Evi - müəllif) bu ayrılığı ayrılıq kimi deyil, böyük şərəfli bir iş kimi - xilaskar Türkiyə ordusunun və baş komandan qəhrəman Nuri Paşanın qələbəsi naminə böyük bir ziyafət başlamışdı. Bu gecə həm də indi bir Türk xalqları birliyinin himni kimi qarşılanan "Çırpınırdı Qara dəniz" nəğməsinin doğuş gecəsiydi... Gecə çox şahanə təşkil olmuşdu. O zamanın Abbas Mirzə Şərifzadə isə Osmanlı generallarına məxsus tam Ənvər



Paşanın qiyafəsində yalnız ona məxsus vüqarla salona daxil oldu. Nuri Paşa qardaşı Ənvər Paşaya yazdığı məktubda hətta özünün bir anlığa şaşqın hala düşdüyünü, içəri girən artistin həqiqətən qardaşı olduğunu zənn etdiyini də göstərirdi. O günlərdə "Azərbaycan" qəzetinin "Ə" imzasıyla gedən "Nuri paşa həzrətləri şərəfinə böyük ziyafət" adlı məqalədə Bakı şəhəri əhalisi tərəfindən Qafqaz İslam Ordusu komandanı Nuri paşanın şərəfinə verilən vida ziyafətindən, baş nazir Fətəli xanın Azərbaycan türklərinin əsarət zülmündən qurtulmasında tökülən Osmanlı türklərinin qanına işarə ilə dediyi "Nə bu qan, nə bu qan tökülən mübarək yerlər heç vaxt unudulmaz və xatirdən çıxmaz" tarixi sözlərindən, habelə həmin axşam söylənilən çıxışlardan söz açılır. Lakin daha yaddaqalanı isə Bakı məktəblilərindən təşkil olunmuş xorun ifasında "Çırpınırdı, Qara dəniz" nəğməsinin ifası olmuşdu. Tədbirə hazırlıqlar zamanı əlüstü musiqisi yazılan və Bakı məktəblilərinin birləşmiş böyük xorunun coşqu və həyəcanla ifa etdiyi ilk bənd -

***Çırpınırdı Qara dəniz***
***Baxıb Türkün bayrağına!***
***"Ah!..." deyərdim, heç ölməzdim,***
***Düşə bilsəm ayağına.***

oxunan kimi salon eynən tufana, borana düşən Qara dənizin özü kimi dalğalanır. Böyük alqışlarlar qopur; ara verməyən bu alqışlar gözləri yaşardırdı. Ard-arda baş verən müharibələr görmüş hərb adamlarında bu şərqinin oyatdığı o kövrək duyğular indi gözlərdən yaş olub axırdı. Xüsusən sondakı "Yol ver Türkün bayrağına!" harayı damarda qanı coşduran son damla oldu. Bir-birindən artıq qanlı savaşlara girmiş, çıxmış hərb adamlarının sevinc həyəcanlı bağırtıları möhtəşəm salonu titrədirdi.

Şeir Rusiyanın "Kazbek" və "Kaqul", yunan "Averof" zirehli gəmisinə meydan oxuyan məşhur "Həmidiyyə" hərbi gəmisinin və onun hərbi heyətinin qəhrəmanlığı münasibətilə qələmə alınmışdı.

... Müharibələrdən dolayı Türkiyəyə, xüsusən Qara dəniz sahillərinə xeyriyyəçilik fəaliyyəti zamanı yolu tez-tez düşürdü. Bu səfərlərdən yaranan bir çox şeirləri vardıysa da Türk birliyinə məhəbbətini izhar edən ən möhtəşəmi isə 1914-cü ilin dekabrında Gəncədə qələmə aldığı "Çırpınırdı Qara dəniz" şeiridir. Türkiyədə daha çox "Yol ver türkün bayrağına" adıyla böyük şöhrət qazanmış və Üzeyir Hacıbəylinin 1918-ci ildə Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra böyük qələbə münasibəti ilə musiqisini bəstələdiyi "Çırpınırdın, Qara dəniz" şeirinin sevilmə səbəblərindən biri şairin türkçülüyü, Türk dünyasına rəğbəti, sevgisi ilə bağlı idi. Lakin bir səbəbi də 1912-ci ildə Balkan hərbi zamanı baş verən dəniz savaşında admiral Hüseyn Rauf Orbayın komandasındakı Türkiyənin məşhur "Həmidiyyə" zirehli gəmisinin Yunanıstanın "Averof" hərbi gəmisini məhv etməsi, yenə ardınca I Dünya müharibəsində "Həmidiyyə" kreyseri ilə gecə rusların dəniz qüvvələrinin Osmanlı donanmasını vurmağa hazırladıqları "Kazbek" və "Kaqul" adlı hərbi gəmilərini qeyri-bərabər döyüşdə məhv edib suda batırması; Odessa limanını bombardman etməsidir. Osmanlı dövlətinin I Dünya müharibəsinə qoşulmasından həyəcanlanan Əhməd Cavad bu tarixi şeirə səbəb olacaq, onu ilhamlandıran Türk flotunun Balkan hərbində qazandığı qalibiyyətli olaylardan nə qədər ruhlansa da işğalçı Rusiyaya qarşı Türkiyənin savaşa qoşulması da (1914 noyabr) onu bir o qədər həyəcanlandırıb coşdurmuş, onda böyük ümidlər doğurmuşdu. Gənc şair də 1912-ci ildə baş vermiş bu hadisədən ilhamlanaraq, 1914-cü ilin dekabrında həmin şeiri yazmışdır.

Əhməd Cavad tədqiqatçılarının yekdilliklə bütün Türk dünyasının ortaq himni adlandırdığı bu şeir daha irihəcmlidirsə oxunan bəndləri bunlardır:

***Ayrı düşmüş dost elindən,***
***İllər var ki, çarpar sinən!..***
***Vəfalıdır gəldi, gedən,***
***Yol ver Türkün bayrağına!***

***İncilər tök, gəl yoluna,***
***Sırmalar səp sağ, soluna!***
***Fırtınalar dursun yana,***
***Salam Türkün bayrağına!***

***"Həmidiyyə" o Türk qanı!***
***Həç birinin bitməz şanı!***
***"Kazbek" olsun ilk qurbanı!***
***Qurban Türkün bayrağına!***

***Dost elindən əsən yellər,***
***Bana şer, salam söylər.***
***Olsun bütün Turan ellər***
***Heyran Türkün bayrağına!***

"Çırpınırdı Qara dəniz" şeiri 1919-cu ildə Əhməd Cavadın ikinci şeir kitabı olan "Dalğa"ya daxil edilərək nəşr olunmuşdur.

***PS.: Şairin Bayıl türməsində edamından sonra mahnının taleyi naməlum qalmış, yaddaşlardan silinmiş, sonrakı nəsillər bundan uzun illər xəbərsiz qalmışdı.1990-cı ildə İstanbul Texniki Universitetinin müəllimi, o zaman Azərbaycan Dövlət Konservatoriyasında təcrübə keçən Süleyman Şenel Hacıbəyovun xatirə evmuzeyinə bu mahnını məlumat verdi. Mahnı ilk dəfə Bakıda 1993-cü il martın 10-da Respublika Sarayında Əhməd Cavadın anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan ictimaiyyəti qarşısında səsləndirilmişdir.***

**Minaxanım Nuriyeva Təkləli,**
**Professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti**



Ayaz Arabaçı

## ORDU

*Qolumuzun qüvvəti, dizimizin dirənci,*
*Kişiliyə,qeyrətə, namusa məhvər ordu.*
*Ümidləri günəştək qar altından oyadan,*
*Bir qom bənövşə kimi təzə ordu, tər ordu..*

*Gördüm ilk savaşını barmağımı dişlədim..*
*Dalbadal qazandığın zəfərə vərdişlədim,*
*Səni öyməkdən ötrü hansı sözü işlədim,*
*Hansı sözü işlədim, igid ordu, ər ordu?..*

*Sənə qucaq açıb, get, Şuşa adlı pirimiz..*
*Sonuncu pəncəsini qolaylayır şirimiz..*
*Bir ananın döşündən əmmişik hər birimiz,*
*Bu gün bu torpaqdakı hamı, bir nəfər ordu.*

*Ürəyim gedən yerə həmişə tək getmişəm..*
*Nə səndən qırıq qalıb, nə sənə şəkk etmişəm,*
*Adını ürəyimin başına həkk etmişəm,*
*Sən bir qalib ordusan, sən bir müzəffər ordu.*

*Can qurban etməzmiyəm, hayqırtına-səsinə..*
*Səsimi duydurmusan dünyanın hər kəsinə,*
*Hamının gözü çıxıb heyrətdən kəlləsinə,*
*Misilsizdi çaldığın bu böyük zəfər, ordu..*

*Gör necə vüqarlısan zirvələrin qaşında,*
*Hər oğlu bir Babəkim, dəbilqəsi başında..*
*Tanrı özü dayaqdı sənə haqq savaşında,*
*Səni yenə bilərmi şeytan ordu, şər ordu.*

*Sənin belə hirsini, qeyzini gözləmirdim,*
*Dronların səmada feyzini gözləmirdim..*
*Açığı mən bu qədər tezini gözləmirdim..*
*Göstərdin necə olur yağıya məşhər, ordu..*

*Sən bu gün hər nəzmdə, sən bu gün hər nəsrdə,*
*Qalmaz daha bir arzum, qalmaz daha, kəsrdə..*
*Bir onu bilirəm ki, bu möhtəşəm əsrdə,*
*Sənə bənzəmək istər cəsarətdə hər ordu.*

## *COVID-19 əleyhinə peyvənd olunanların sayı açıqlanıb*

**Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 379 vaksin vurulub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 78, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 69, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 207, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 25 nəfərdir.

**Vurulan vaksinlərin ümumi sayı 13 912 976, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 390 435, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 871 815, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 387 568, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 263 158 nəfər təşkil edir.**

## *Tələbə kreditinin verilməsi üçün əlavə vəsait ayrılacaq*

**Tələbə kreditinin verilməsi üçün növbəti il üçün dövlət büdcəsindən 8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət və icmal büdcələri üzrə layihədə qeyd olunub.

**Bildirilib ki, 2021-ci və 2022-ci illərdə ayrılmış vəsaitləri də nəzərə aldıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 110 milyon manat təşkil edəcək.**



Elnur Uğur Abdiyev

## Azərbaycanım

Nə böyük səadət, nə böyük eşqdi?
Oğullar yolunda canından keçdi.
Qarabağ azadlıq şərbətin içdi,
Tarixə yazıldı bu eşq dastanım,
Zəfərin mübarək,Azərbaycanım!

Uğrunda oğullar verdilər ki,can
Təki yaşayasan,can,Azərbaycan!
Xoşbəxtəm dadıram azadlığından,
Hər şəhid sevdası canımda canım,
Zəfərin mübarək,Azərbaycanım!

Səmanda keşikçi üçrəngli bayraq,
Gülür gələcəklə nə gözəl növraq.
Şəhid qanlarıyla yoğrulan torpaq,
Kəbəm,müqəddəsim,ən xoş ünvanım,
Zəfərin mübarək,Azərbaycanım!

Samidlər diyarı,Camallar yurdu,
Hər qazin, şəhidin biri bir ordu.
Axan qanlar üstə Vətən dik durdu,
Ey mənim yenilməz şərəfim,şanım
Zəfərin mübarək,Azərbaycanım!

Ali Baş Komandan verdi "vur!"əmrin
Ha dünya hər yerdən versin dur əmrin.
Ordumuz göstərdi yurdumun əzmin,
Güldü bulud örtmüş Gün üzlü danım,
Zəfərin mübarək,Azərbaycanım!

## IX siniflər üçün buraxılış imtahanının yeni modeli 2024-cü ildən keçiriləcək

**Dövlət İmtahan Mərkəzində (DİM) 2023-cü ildə ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə keçiriləcək buraxılış imtahanında xarici dil fənlərindən istifadəsi planlaşdırılan yeni imtahan modelinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nümayəndələri ilə birlikdə müzakirəsi aparılıb.**

DİM-dən verilən məlumata görə, modelin strukturunun fənn kurikulumunun müəyyən etdiyi məzmun xətlərinə aid alt standartlarının tələblərinə uyğun olması qeyd olunmuş, bilik və bacarıqların qiymətləndirilməsində yeni yanaşma kimi onun tətbiqi məqsədə müvafiq hesab edilib. Müzakirə nəticəsində yeni imtahan modelinin ümumtəhsil müəssisələrində aprobasiyadan keçirilməsi, ictimaiyyətə təqdim edilməsi, onlayn sınaq imtahanının təşkili və 9-cu siniflər üçün DİM tərəfindən hazırlanmış "Qiymətləndirmə kitab-



çası"nda yeni modelə uyğun tapşırıq nümunələrinin verilməsi qərara alınıb.

Qeyd edilənlərin həyata keçirilməsi üçün uzun müddət tələb olduğundan, qarşılıqlı razılaşma əsasında yeni imtahan modelinin 2024-cü ildən başlayaraq buraxılış imtahanında tətbiq edilməsi nəzərdə tutulur. 2023-cü ildə isə ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı ötənilki imtahan modeli əsasında keçiriləcək.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 42 (2316) 5 noyabr 2022-ci il

# Komandanımız və ordumuz gücümüzü dünyaya göstərdi

**Bu gün dünyanın ən qlobal problemlərindən biri təbii ki, Ukrayna-Rusiya müharibəsidi. Həmin müharibənin fəsadları dünyada böyük bir qarşıdurmanın baş verdiyini artıq birmənalı şəkildə təsdiq etməkdədir. Hətta bəzən yeni bir dünya müharibəsinin başlanacağı barəsində fikirlər də yaradır. Amma həyatın bir gerçəkliyi də var ki, o da hələ 1988-ci ilin fevralından başlamış Qarabağ problemi idi. Özü də bu problem zaman-zaman beynəlxalq güclərin laqeydliyi və bəlkə də müəyyən göz yummaları hesabına Qarabağ problemi artıq beynəlxalq müstəviyə çıxmışdı.**

Məlumdur ki, bununla bağlı BMT-nin məlum 4 qətnaməsi də qəbul olunub. Üstəlik, bu problem ən yüksək səviyyələrdə, ən böyük auditoriyalarda, arenalarda müzakirə edilibdi.

Çox təəssüf ki, nə BMT-nin bəlli 4 qətnaməsinin, nə də beynəlxalq müzakirələrin çözümündə heç bir faydası olmayıb. İşğalçı dövlət, yəni Ermənistan bütün məlum qətnamələri, müzakirələri saymazyana şəkildə rədd edib və öz işğalçı siyasətini bu gün də geri çəkilmir, hələ də havadarlarına söykənib "Qarabağ" söhbəti aparır. Əgər xatırlayırsınızsa, onda da, indi də ermənilər bu həyasızlığı o, problemi çözmək missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun gözləri önündə edirdilər. Minsk qrupu da öz növbəsində susqunluq, görməməzlik nümayiş etdirirdi.

Ən yaxşı halda regiona onların mənasız, əslində özlərinin varlıqlarını göstərmək xarakterli səfərləri və sonda da həmişəki şəkildə, həmişəki məzmunda bəyanatları ilə gündəmə gəlirdilər, özü də qısa müddətli.

Söylədiyim bu məqama özünün bütün çıxışlarında birmənalı şəkildə toxunan Azərbaycan prezidenti cənab İlham Əliyev vurğulamışdı ki, "Bütün bunlar göstərir ki, Ermənistan tərəfi birmənalı şəkildə danışıqlar prosesini süni qaydada davam etdirmək və öz istəklərinə çatmaq yolunu tutublar. Amma biz danışıqlar xatirinə danışıqlar aparmağın əleyhinəyik. Və bir daha bildiririk ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik".

Ölkə başçısı özünün Azərbaycan xalqına olan güvənini, inamını və xalqın da öz prezidentinə olan etimad və etibarını dilə gətirərək onu da bildirmişdi ki, "Özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Xalqımız bilməlidir ki, bu gün Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe, Ermənistan iqtidarının siyasi cəhətdən qüsurlu və ziyanlı bəyanatları danışıqlarda çətinlik yaradır".

Bax, əsl həqiqət budur. Və bu həqiqəti də Azərbaycan prezidenti cənab İlham Əliyev bütün dünya ictimaiyyətinə açıq şəkildə bəyan edibdi.

Xalqımız, o cümlədən də bu ölkənin sıravi vətəndaşlarından biri kimi mən də bu gerçəkliyə görə, öz Prezidentimə, Ali Baş Komandanıma minnətdaram. Zaman-zaman prosesləri izləmiş, bəzən də şahidinə çevrilmiş vətəndaş olaraq görmüşəm ki, işğalçı Ermənistan bütün vasitələrlə öz yalanını gizlətməyə, öz işğalını pərdələməyə çalışıbdır.



Hələ 1988-ci ilin fevral ayından başlayaraq, Ermənistan və hadisələrin ilhamvericisi olan Moskva sülh danışıqlarını əldə bayraq etməyə, əsl həqiqətdə isə bu danışıqlarda işğal üçün bir vasitə kimi yararlanmağa çalışmışdı. "Sovet dönəmində Kremlin, xüsusilə SSRİ prezidenti Qorbaçovun atdığı addımlar Qarabağda yaratdığı xüsusi idarə ermənilərə əl-qol açmaq üçün yaradılmış şərait idi. Bu cür yanaşmaların nəticəsində də Ermənistan silahlanmağa və daha böyük iddialarla çıxış etməyə başladı. Ona görə də Azərbaycan Prezidentinin çıxışında birmənalı şəkildə göstərilir ki, Ermənistan təcavüzkar dövlətdir, üstəlik də Ermənistan terrorizmə sponsorluq edən ölkədir".

Bu gerçəyi hər kəsə birmənalı şəkildə çatdıran Azərbaycan prezidenti bəlli reallığı şərh edərkən ölkəmizin mövqeyini də diqqətə təqdim edib və həm beynəlxalq aləmə, həm də birmənalı şəkildə ATƏT-in Minsk qrupuna mesaj verdi. Bu mesajda cənab İlham Əliyev bildirib ki, "Bizə qarşı ciddi təxribat törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq. Artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur".

Ali Baş Komandanın bu kəskin mesajı bir daha göstərir ki, Azərbaycan xalqı öz prezidentinin yanındadır və Ali Baş Komandan "danışıqlar xatirinə danışıqlar"dan imtina etməyin vaxtı çatdığını, əvəzində isə onun özünün də dediyi kimi, "Ermənistan beynəlxalq hüququ yerə vurursa, Azərbaycan da beynəlxalq hüququ gözləməyəcək" məqamının yetişdiyini dünyaya bildirmişdir. Görünür, bu sərt açıqlamalar, məsələyə kəskin münasibətlər artıq həm Ermənistanın, həm də ona havadarlıq edənlərin kürkünə birə salıb.

Mətbuatdan məlum olduğu kimi, son günlərdə Ermənistan tərəfi danışıqlara gedir. Hələ böyük Zəfərdən öncə, yəni tarixə baş vursaq, 2020-ci ilin yayında Moskvada Azərbaycan Parlamentinin sədri ilə görüşən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirmişdi ki, "Rusiya Azərbaycanın işğal olunmuş 5 rayonunun qaytarılmasına tərəfdardır". Bu da o demək idi ki, həm işğalçını, həm də onun güvəndiyi dövlətləri Azərbaycan ordusunun gücü artıq narahat etməyə başlamışdı. Ordumuzun gücünə həm Füzuli istiqamətində, yəni 2016-cı ilin aprelində, həm də bu ilin Tovuz istiqamətində olan döyüşündə bələd olan düşmən vəziyyətin ciddiliyini yəqin ki, anlamışdı. Üstəlik, Ali Baş Komandanın bu mesajı da öz təsirini göstəribdi. Yəni cənab İlham Əliyev vurğulayıb ki, "Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq".



Tarixi prosesləri diqqət mərkəzində saxlayan hər kəs onu da yaxşı bilir ki, torpaqlarımızı işğal etmiş düşmən həmişə xarici güclərin həm silah-sursatından, həm də onların muzdlu döyüşçülərindən yararlanıbdır.

Heç kimə sirr deyil ki, Ermənistana daha çox Rusiya silah və sursatla yardım edibdir. Bu gün həmin yardım dəstəyini isə daha çox İran İslam Respublikası, Serbiya, eləcə də, digər erməni havadarları öz üzərinə götürüb.

Bu məsləyə də münasibət bildirən Azərbaycan Prezidenti yerli mediaya müsahibəsində vurğulamışdı ki, "Serbiya və Rusiya prezidentləri ilə mənim telefon söhbətlərim oldu və mən narahatlığımı ifadə etdim".

Həqiqətən də özünü sülhpərvər, Qafqaza sülh arzulayan dövlət kimi göstərən Rusiyanın erməniləri silahlandırması adamın yaddaşında hələ 1905-ci ildən qalan bir faktı təzələyir. Xatırlayırsınızsa, böyük dramaturqumuz Cəfər Cabbarlının "1905-ci ildə" dramında bir səhnə var.

Həmin səhnədə deyilir ki, "atam kazaklardı". Bu bir həqiqətdir ki, bu gün də sülhməramlıların yerləşdiyi torpaqlarımızda istifadə olunan silah və sursatlar daha çox Rusiyanın istehsalıdır və ermənilərin güvəndiyi də daha çox həmin dövlətdir. Nəhayət, bu da bir gerçəkdir ki, "Ermənistan siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır". Bu fikirlərin də müəllifi prezidentimiz cənab İlham Əliyevdir.

Deməli, onun dünyaya bəyan etdiyi bu gerçəklik bir daha göstərir ki, artıq ermənilərin kimliyi ortadadır. Və onlar Azərbaycan əsgərinin gücünü görməyə məhkum idilər. Həmin gerçəkliyi də Azərbaycan ordusu öz böyük Zəfəri ilə, Ali Baş Komandanın dəmir yumruğu ilə daddılar və gördülər. Təbii ki, həmin böyük Zəfəri dünya ictimaiyyətinə çatdırmaqda medianın rolu bütün zamanlardakından daha aktiv, daha sürətli və daha keyfiyyətli oldu.

Xüsusilə, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin dünyanın müxtəlif ölkələrinin media mənsublarına, telekanallarına verdiyi müsahibələr, həmçinin Prezident köməkçisi Hikmət Hacıyevin bu istiqamətdə gördüyü işlər dünyaya bizim haqqımızı və gücümüzü nümayiş etdirdi. Burada onu da vurğulamaq yerinə düşər ki, ölkəmizə səfər edən və baş verən hadisələri yerində izləyən xarici media mənsubları da, xüsusilə Türkiyə mediası yaradılmış şəraitdən peşəkarlıqla istifadə edərək torpaqlarını işğaldan azad edən xalqın komandanının və ordusunun nəyə layiq olduğunu daha çox qərəzsiz və gerçək şəkildə yayımladılar. Ona görə də indi bütün dünyada beynəlxalq təşkilatlarda söz sahibi olan Azərbaycan və onun Prezidenti dünyaya bir daha bizim həqiqətləri çatdırır və bu həqiqətlərə dünyanın dəstəyini qazanır.

Artıq ikili standartların qara pərdəsi ortadan qaldırılmaqdadır. Deməli, biz öz ədalətimiz üçün, öz torpaqlarımız üçün etdiyimiz mücadilədə kimsəyə qarşı haqsızlıq, işğalçılıq yox, ərazi bütövlüyümüz, dövlətçiliyimiz naminə döyüşüb şəhidlərimizin qanı bahasına torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırırıq.

**Bəli, şükürlər olsun ki, bu gün bizim gücümüzü görür və qəbul edirlər. Bayrağımız Şuşada dalğalanır!**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

---



*Emin Piri*

# Bu hələ başlanğıcıdır...

*Bu videonu dostlar atdı, özümü tanıya bilmədim. Müharibə bitəndə çəkilib.*

*Bu yer Cıdır düzündən baxanda qarşısında gördüyünüz meşələr, yüksəkliklərdi. Topxana meşələri...*

*Ora səfər edəndə hər dəfə Cıdır düzündən baxanda oranı görürsünüz. Bəlkə diqqətlə baxsanız şəhid ruhlarını da görərsiniz...*

*4 noyabrda gecəylə çıxış verildikdən sonra Hadrutun kəndlərindən, daha sonra Xocalı kəndlərindən hərəkət edərək Sığnaqa gəlmişdik. Sığnaqdan sonra xırda çay vardı, bir neçə dolamasını, sonra palçıqlı, bataqlıq meşəni, üzərimizdə silah, yüklə yüksəkləri çıxaraq o zirvələrə bizim batalyon və digər qüvvələr yerləşmişdi. Təbii ki, ardıcıl minamyot, top, raket mərmiləri altında.*

*Noyabrın 3dən-4-ünə keçən gecə meşə tərəfdən əks tərəfə keçməkçün XTQ hərəkət etmişdi.*

*Daha sonra düşmən qarşısındakı-yəni bizi və digər bizim kimi quru qoşunlarının Şuşaya hücum edəcəklərini gözlədiyindən müharibə bitənə qədər atmadığı mərmi qalmadı.*

*Komandanlıq isə ağla gəlməyən manevr etdi. Bunu da artıq bilirsiniz.*

*Düşmən Şuşaya qarşılarındakı-bizim kimi qüvvələrin girəcəyini, buna görə diqqəti bizlərə ayırdığından XTQ əks tərəfdən Şuşanın Xankəndi istiqamətindən, qala tərəfdən və.s hərəkət etdi. Beləcə, tarixi Şuşa zəfəri qazanıldı...*

*Orda elə bu videoda durduğum yerin yaxınlığında bir əsgərimizi də şəhid verdik.*

*Özümü tanıya bilmədim, soyuqdan, stresdən gözümdə yaranan spazmaya görə gözüm yumulur, özümsə kəkələyirdim.*

*Hələ bu videoda ekran naminə güclə danışmışam ki, kəkələmə olmasın. Bacardığım qədər. Çox qoca görünürəm, amma müharibəyə neçə yaşda gedirsənsə get, müharibənin içində artıq qocasan. Körpə uşaq belə müharibədə qocadır...*

*Hə, məni indi düşündürən, yalnız bir şeydir. Müharibə bitəndə ani dediyim "bu hələ başlanğıcdır" sözləri. Hansı hislər müharibə bitəndə dedirdib, indi cavabını tapa bilmirəm.*

*Sülhünmü, yeni müharibələrinmi, yeni qələbələrinmi? Bilmirəm.*

*Bildiyim odur ki, dediyim nədirsə, hər şeyin başlanğıcıdır...*

---

# Dünyanın ən böyük brilyantlarından biri satılır

**Dünyanın ən böyük "Fortune" çəhrayı brilyantlarından biri "Christie's" tərəfindən Cenevrədə 35 milyon dollara hərraca çıxarılıb.**

Hərrac noyabrın 8-də baş tutacaq.

Almazın çəkisi 18,18 karatdır. Çəhrayı almaz 25-35 milyon dollar dəyərində qiymətləndirilir.

Qeyd edək ki, "Christie's"də ən böyük brilyant 2018-ci ildə 50,4 milyon dollara satılaraq dünya rekordu vuran 18,96 karatlıq "Uinston Pink Legacy" olub.

---



*Adil MİSİRLİ*

# İşığın qurbanı

**Pərvanə! Kiçik bir cücü! İşığı hədsiz dərəcədə sevən (özü də bilmir niyə), onun başına fırlanıb, dolanan bir böcək. O, hər şeyi, özünü, ətrafı unudaraq isti işığın başına elə hey aramsız, fasiləsiz (fasilə onun ölümünə səbəb olur), fırlanır, fırlanır... Sanki həyata ancaq bundan ötrü, işığa keşik çəkməyə, onun adına yanmağa gəlib. Və sonra işığa olan hədsiz, özündən böyük məhəbbətinin qurbanı olaraq özünü oda, işığa yaxır. Onsuz da qısa olan ömrünü daha da qısaldır,kəsir. Ölür pərvanə... Güya işığa olan məhəbbətini yaşamaqdan, işıqlı həyatdan üstün tutur.**

**Bu niyə belədir? Əslində bu heç də bizim fəlsəfi məna verib poetikləşdirdiyimiz kimi hərəkət deyil. Baxmayaraq ki, biz pərvanənin hərəkətinə bədii don geyindirərək, ona məna qatıb məhəbbətin ölüm zirvəsi kimi ad veririk...**

Pərvanənin başının bəlası onun həddən artıq, şüursuz sürətdə fəal olması, ağılsızcasına bir yerdə qərar tuta bilməməsidir.

Axı pərvanə özü də bilmir niyə və nə üçün fırlanır. Onun istəyi işığı görüb düşünmədən, fərqinə varmadan ona tərəf qaçmaq həvəsidir. Öz güc imkanlarını lazımlı səviyyədə, dəqiq qiymətləndirməyi bacarmadığına görə, pərvanə həyata əlvida deyir.

Boş-boşuna, lazımsız, lüzumsuz yerə, dayanmadan fırlanan, artıq yorulan pərvanə bir an, daha dəqiq desək anın bir anı nəfəsini dərmək, güc yığmaq məqsədi ilə dayanır. Və təbii ki, bu zaman pərvanə müvazinətini itirərək, artıq hərəkətini nizamlayıb, nəzarət altında saxlaya bilmədiyindən işığa dəyir. Bu an onun ömrünə balta çalınır, ölümünə xitam veriir. Pərvanə ağılsız başladığı,sonunu görə bilmədiyi uçuşunun qurbanı olur.Pərvanənin əsl ağıl səviyyəsi uçuşu sona qədər idarə edə bilmir. Çünki onun ağlı boş , mənasız uçuşu qadağan edə biləcək, zamanında dayandıracaq bir səviyyədə deyil. Odur ki, pərvanə tərəfindən hərəkəti idarə edə biləcək, dayandırmağa səy göstərə biləcək addım atılmır. Pərvanə dərk edə bilmir ki, bu sonuncu, ölümə aparan uçuşdur. Təki hərəkətdə olmaq istəyinin arxasında, bu istəyi istiqamətləndirə bilən ağıl, anlayış mövcud deyil. Pərvanə anlaya bilmir ki, artıq ölümün ağuşundadır, kənara çəkilib dincəlmək, başqa hərəkət etmək lazımdır.

Pərvanənin işığa olan hədsiz məhəbbəti adı verdiyimiz hərəkət ona vaxtsız ölüm gətirir. Bircə o aydındır ki, pərvanə ölür. Ucuz, mənasız, lazımsız, mütləq ölüm onun nəsibi olur. Hər şey ani olur. Ölüm səbəbsiz, çarəsiz gəlir. Kiçik bir cücü olan pərvanənin qızmış, isti işığa bərk yox, ustufca toxunması kifayətdir ki, o, həyata əlvida desin.

Yorulub, əldən düşmüş pərvanə hara, niyə və necə getmək lazım olduğunu başa düşmür. İşığı nədənsə dayaq nöqtəsi kimi seçir. Həyata, yaşamağa can atır. Şüursuz atılan yaşamaq adlı hərəkətin adı burada ölüm olur.

Olum və Ölüm! Həyatın artıq çoxdan sadələşərək adiləşmiş qanunu özünü bir daha gösərir. Həyata davam edir, ancaq indi başqaları üçün.

Həyatda heç bir şey izsiz qalmır. Heç bir hərəkət məqsədsiz, məntiqsiz edilmir. Hər atılan addım azacıq da olsa irəliyə aparır. Bu addımın adı ölüm olsa da o, irəlidədir. Buna görə də maraqlıdır. Çünki o, təzədir, yenidir. Pərvanənin attığı addım da ölümün ağuşuna atılan addımdır. (Bu könüllü intihardır). Bu işığa hədsiz istəyin, məhəbbətin yox, küt inadkarlığın, sonu əvvəlcədən pərvanəyə bəlli olmayan şüursuz hərəkətin məhsuludur. Halbuki o, oradan, işıqdan uzaq gəzməli, dolanmalıdır. Odur ki, nəticə ağır, acınacaqlı olur. Çünki özünə yeni qurban axtaran ölüm yatmır.

O, lap yaxında keşik çəkir. Ölüm pərvanəyə sarı çox kiçik bir addım atır. Daha dəqiq desək pərvanənin canını sonsuz əzab, əziyyətdən qurtarır. Ölüm pərvanəyə kömək əlini uzadır. Bu vəziyyətdə ölüm pərvanənin xilaskarına çevrilir.

...Pərvanə işıqlı bir həyat axtarır. Nəsibi ölüm olur. Pərvanənin ən böyük, ömrünə balta çalan səhfi işığın qoynundaki ölümü görməməsi, ondan həyat, yaşam ummasıdır:

***İşığı sevmir pərvanə.***  
***İşıqdaki ölümü***  
***görmür pərvanə.***  
***İşığa pənah aparir.***  
***İşıq pərvanəni yandırıb-yaxır,***  
***Ölümün ağuşuna buraxır...***

---

# İtaliyada Mussoliniyə rəğbət bəsləyənlər yürüş edib

**İtaliyada diktator Benito Mussoliniyə rəğbət bəsləyənlər 1922-ci ilin oktyabrında faşist liderinin hakimiyyəti ələ keçirməsinin 100-cü ildönümünü "Qaraköynəklilər" adlı qrupla Romada yürüş edərək qeyd ediblər.**



Mussolininin doğulduğu və məzarının yerləşdiyi Predappio qəsəbəsinə toplaşan 2000 nəfərə yaxın qrup faşist liderinin "Duce" kimi tanınan məzarı üzərinə yürüş edib. Qeyd edilib ki, qrup üzvləri tez-tez "Roma və ya nasist salamı" kimi tanınan sağ əlini şaquli və üfüqi qaldıraraq salamlaşıb Benito Mussolinin lehinə şüarlar səsləndiriblər. Bildirilib ki, faşist lider Mussolininin nəvəsi Orsola Mussolini də anım yürüşündə iştirak edənlərə təşəkkür edib.

İtaliyada sentyabrın 25-də keçirilən ümumi seçkilərdə Mussoliniyə və faşist dövrünə rəğbət bəsləyən ifrat sağçı Giorgia Melonun rəhbərlik etdiyi "İtaliya Qardaşları" partiyası qalib gəlib.

Meloni və onun rəhbərlik etdiyi sağçı ittifaqın Mussolininin Romaya tarixi yürüşünün 100-cü ildönümünə təsadüf edən oktyabrın 22-də sağ koalisiya hökumətini qurması maraqlı bir təsadüfdür.

**Giorgia Meloni oktyabrın 25-də parlamentdə etimad səsverməsindən əvvəl etdiyi çıxışda "demokratik olmayan rejimlərə heç vaxt rəğbət bəsləmədiyini" ifadə edərək, 1938-ci ildə qəbul edilən irqçi qanunları İtaliya tarixindəki ən aşağı səviyyə kimi qiymətləndirib.**

**Eminquey**

---

# Mixaylonu kim dəfn edib?



**Hörmətli tədqiqatçı, sosioloq İlham Abbasovun yazısını oxuyurdum, orda onun naməlum partizanlar haqqında məlumatlarında "Mişa həkim" - Mikayıl Qulubəyov barədə bilgi əldə edəndən sonra kiçik araşdırma apardım. Mixaylo-Mehdi Hüseynzadənin yaxın silahdaşı olan, partizan hərəkatının fəal üzvü Mikayıl Qulubəyov kimya elmləri doktoru, professordur. İkinci dünya müharibəsi başlayanda anadan olduğu Gəncədən cəbhəyə yola düşür. Döyüşlərin birində yaralı halda əsir düşmüş, Almaniyaya, oradan İtaliyaya, daha sonra Yuqoslaviyaya sürgün olunmuşdur.**

Sağaldıqdan sonra əsirlikdən qaçıb (1943-cü ilin əvvəlində) azadlıq hərəkatına qoşularaq Mehdi Hüseynzadəyə yaxından kömək göstərir və onunla çiyin-çiyinə partizanlıq edir. Onun partizan ləqəbi "Doktor Mişa" idi. İlham Abbasov yazır ki, O, Yuqoslaviyanın iki "Qəhrəmanlıq ordeni" ilə və "Qəhrəmanlıq medalı" ilə təltif edilmişdir. İki dəfə yaralanan Mehdini bir kimyaçı həkim kimi Mikayıl müəllim sağaldır. Son döyüşdə Mehdini ağır yaralanır. Almanlar onun cəsədindən də qisas almağı qarşıya məqsəd qoymuşdular. Mikayıl Qulubəyov onu bacardıqca uzaqlaşdırıb meşənin dərinliklərinə aparır və Mehdi Hüseynzadə Mikayıl Qulubəyovun qucağında can verir. Mikayıl Qulubəyov qürbət eldə gecənin zülmətində üzü qibləyə ona özü tək məzar qazıb, dəfn edir. Bir həftə sonra partizan yoldaşları ilə Mehdi Hüseynzadəni Sloveniya qardaşlıq qəbiristanlığında yenidən dəfn edirlər...

**Zaur Əliyev,**
**Dosent**

---

# Acsansa, dron ye!



**İsveçrənin Lozanna Federal Texnologiya İnstitutunun alimləri bir hissəsi yeməli materialdan hazırlanan pilotsuz təyyarə hazırlayıblar.**

Bu tərtibat fövqəladə vəziyyətdə insanların həyatını xilas etmək üçün nəzərdə tutulub - əlavə kalorilər onlara xilasediciləri gözləməyə kömək edə bilər. Məlumata görə, dronun yeməli olan hissəsi qanadlarıdır - onlar düyü unundan hazırlanır və peçenyelərə bənzəyir. Onlar uçuş zamanı zədələnməmələri üçün folqa ilə sarınır.

Alimlərin fikrincə, belə bir dron hər hansı səbəbdən ərzağa əli çatmayan insanlara effektiv şəkildə yeməklə təmin edəcək. Belə bir dronun göndərilməsi onlara kömək gələnə qədər - əlavə bir və ya iki gün dayanması üçün nəzərdə tutulub. Tədqiqatçıların sözlərinə görə, qanadsız olandan sonra pilotsuz təyyarə yararsız sayılsa da insan həyatının mümkün xilası üçün bu kiçik qiymətdir.

**Hazırda alimlər cihazın konstruksiyasını daha yeməli etmək və ona su çəni əlavə etmək üzərində işləyirlər.**

**Akif**

Aqil ABBAS

# QURBAN QURBANOVUN NƏ ÇOX MƏSLƏHƏT VERƏNİ VARMIŞ?

*"Qarabağ" zəlzələdən yox, vəlvələdən, yəni VAR-ın zibilindən, hakimin zibilindən Avropa Liqasında oyunlarını dayandırmağa məcbur oldu. İndi yoluna Konfrans Liqası ilə davam edəcək. Uğurlar!*

*Oyun heç-heçə bitsə də, mənəvi cəhətcə "Qarabağ" qalib gəldi. Sübut etdik ki, 10 nəfərlə də alman "tanklarının" qarşısında nəinki dayanmaq olar, hətta hücum edib qol da vurmaq olar.*

*Məni başqa şey maraqlandırır. Gərək ki, bir rus alimiydi, ya rejissoruydu bir dəfə televiziyada ironiya ilə belə bir fikir işlətdi: "Bu dünyada hamı üç şeyi gözəl bilir: futbolu, kinonu, bir də polis işini".*

*İndi dünəndən baxıram, hamı Qurban Qurbanovu tənqid edir və hamı da məsləhət verir: "Gərək filankəsi sağ tərəfdə oynadaydı", "Şeydayevi axıra 20 dəqiqə qalmış buraxaydı", "Filankəsi dəyişməyəydi", "Hücumçunu çıxarıb Maksimi salmayaydı" və sair və ilaxır.*

*Yaxud yazırlar ki, özü qəsdən Avropa Liqasında zəif oynadı ki, "Barselona" ilə, nə bilim "Yuventus"la qarşılaşmasın, getsin Konfrans Liqasında zəif komandalarla qarşılaşsın.*

*Ağlınıza dua yazım, ay futbol dahiləri. Adı artıq Avropa klublarını lərzəyə gətirən Qurban Qurbanova hamınız məsləhət verən olmusunuz? Lay-lay bilirsiniz niyə yatmırsınız?*

*Qrupda 6 oyunda iki qələbə, iki heç-heçə, iki məğlubiyyət qazanan bir komandanın baş məşqçisinə nə qədər irad bildirirsiniz? Heç Avropa turnirlərində bir və ya iki oyundan sonra bayırda qalan komandalarımızın baş məşqçilərini nə bir belə tənqid etmisiniz, nə də məsləhət vermisiniz. Deyəcəksiniz ki, uman yerdən küsərlər, elə təkcə Qurbandanmı umursunuz?*

*Bu da bir faktdır ki, Avropada bizi sevmirlər. Bunu 44 günlük Vətən müharibəsində və müharibədən sonra da görmüşük və görürük. Futbol da bir müharibədi, sadəcə olaraq bir az mədəni müharibədi. Avropa istəməz ki, "kakoy-nibud" bir Azərbaycan komandası qoca qitədə meydan sulaya.*

*Bunu "Olimpiakos"un "Nant"la oyununda da gördük. Yunanlar və fransızlar danışdılar və "Olimpiakos" uduzdu ki, pley-offa "Qarabağ" yox, "Nant" getsin. Elə onların hər ikisi erməni kimi bir şeydi. Nə yunanların, nə də fransızların türkləri görən gözü yoxdu.*

*"Qarabağ"ın hər oyununa qurban kəsdirirəm. Avropa liqasında oyunumuzu dayandırmağımıza baxmayaraq, yenə qurban kəsdirəcəm. Noyabrın 8-də Ağdamın Çəmənli kəndində Seyid Lazım Ağanın məqbərəsində.*

*Uğurlar Qurban!*
*Uğurlar "Qarabağ"!*
*"Qarabağ" Azərbaycandır!*

# Qurban Məsimov: "Elə aktyorlar var ki, kloun kimi tanınmaqdan utanırlar"

*"Adalet.az"ın bu günki müsahibi bir çox rolların ifaçısı, tanınmış aktyor Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru Qurban Məsimovdur.*

**-Bildiyimiz kimi Kukla Teatrının tamaşaçıları daha çox uşaqlardı. Az yaşlılar üçün iş görmək və onlarla çalışmaq isə insanı mütləq ki əyləndirir. Bəs işinizin çətinliyi nədədir?**

-İşimizin ən çətin tərəfi odur ki, elə əsas tamaşaçılarımız uşaqlardı. Uşaq ən birinci səmimiyyət sevir. Səhnədə aktyor özü və ya idarə etdiyi kukla mütləq səmimi olmalıdır. Səmimiyyət yoxdursa, uşaqların marağını cəlb etmək alınmaz.



**-Uşaqları aldatmaq asandır ?**

-Xeyr. Böyükləri aldatmaq asandır, uşaqları aldatmaq isə çox çətindir. Uşaqlar daha çox hadisələri məntiqlə deyil, hisləri ilə, hərəkətlər ilə, bədən dili ilə qəbul edirlər. Sözü o qədər dinləmirlər, daha çox hərəkətlərə diqqət edirlər. Sözlə yalan danışmaq olur, ancaq bədən hərəkətləri ilə yox. Ona görə də bu, uşaqlara möcüzə kimi görünür. Uşaqlar Kukla teatrında tamaşaya qoyulan tamaşaları möcüzə kimi dərk edirlər. Təsəvvür edin ki, uzun müddət oynatdıqları kuklaları birdən- birə geniş səhnədə hərəkət edən və danışan vəziyyətdə görürlər. Uşaqlar bu teatra gəlməklə teatr mədəniyyəti ilə tanış olurlar. Balaca bir uşağın tamaşaçı zalı, səhnə, aktyor, tamaşa görməyi təbii ki, mütləq şəkildə onun düşüncəsinə öz müsbət təsirini göstərir. Bu minvalla uşaqlar teatr anlayışını burdan öyrənirlər. Burda teatr anlayışı onlara necə təqdim və təlqin olunursa, o cür də teatrı yadda saxlayırlar. Bütün teatrlar üçün tamaşaçını biz hazırlayırıq. Əgər biz səhnədə böyük bir səhvə yol versək, bütün teatrlar tamaşaçılarını itirə bilərlər.

Uşaqlar tamaşaya baxanda ilk dəfə möcüzə gördükləri üçün təəccüblənirlər. Ancaq valideynlər dana çox nostalji hislər keçirirlər. Hər bir valideyn həmin tamaşaya öz içindəki uşaq gözü ilə baxır. Ancaq elə valideynlər də var ki, onlarda öz övladları ilə birlikdə hələ indi- indi teatr mədəniyyəti formalaşır.

Mən tamaşaları hazırlayanda çalışıram ki, iki xətt üzrə getsin. Həm böyüklər üçün maraqlı olsun, həm də uşaqlar üçün. Bəzən uşaq tamaşaçı deyərək baxdığımız tamaşada elə replika olur ki, o, məhz böyüklərə aid olur. Onlar anlayıb gülürlər, uşaqlar isə sadəcə həmin səhnəni heç nə anlamadan seyr edirlər.

Dünyanın heç bir ölkəsində belə bir qayda yoxdur ki, bu teatr uşaq teatrıdır, yoxsa böyüklər üçündür. Bir çox festivallarda kukla tamaşalarının adının qarşısına "18+" yazılır. Bu o demək deyil ki, tamaşada hansısa erotik səhnələr var. Xeyr, sadəcə tamaşanın fəlsəfi yükünə görə qeyd olunur ki, ancaq gənclər, orta nəsil və yaşlı nəsil baxa bilər. Yeniyetmələr hələ o ağır fəlsəfi səhnələri dərk edəcək qədər inkişaf etməyiblər.

**-Demək Kukla teatrı tamaçaşını teatr üçün yetişdirməkdə "məktəbdir"...**

-Bəli. Bizdən başlayır uşağın teatr dünyası. Uşağın teatr zövqü formalaşır *(öz yaşına uyğun).* Kloun adı ilə uşaqların qarşısında çıxış edən insanlar var ki, onlar uşağın zövqünü korlayırlar.Sonra isə həmin uşaq böyüyüəndə kloundan zəhləsi gedir.

**-Kloun olmaq üçün nələr vacibdir?**

- İlk növbədə səmimiyyət mütləqdir. Hər adam səmimi ola bilmir axı. İndi kloun adı ilə çıxış edənlərin heç biri nəhəng Klaunada haqqında heç nə bilmirlər. Sadəcə üzlərini rəngləyib, pul qazanırlar.

Bəzən elə olub ki, həmin klounlara demişəm ki, niyə bu qədər qrimdən istifadə edirsiniz? -Deyiblər ki, axı istəmirik kimsə bizi tanısın. Hətta bunlar kloun kimi tanınmaqdan da utanırlar və gördükləri işdən də utanırlar. Uşaqları güldürmək xatirinə yerli- yersiz hər sözdən istifadə edirlər. İndi yeni çəkilən komediyalarda da aşağı səviyyəli zarafatlar da məhz tamaşaçını güldürmək üçündür. Onlara maraqlı deyil ki, tamaşaçı nəyə gülür və niyə gülür. Yetər ki, gülmək xatirinə gülsünlər.

**-Gülüş üçün edilən hər hərəkət aktyorluq qabliyyətidir?**

- *(Gülür)* əlbəttə yox.Teatr aşağı enməməlidir, əksinə tamaşaçını yuxar qaldırıb arxası ilə aparmalıdır, yüksək zövqə və yüksək estetikaya doğru... Tamaşaçıya gülüş xatirinə bayağı zarafatlar təqdim etmək həmin komediyanı və ya həmin teatrı da aşağı səviyyəyə endirir axı.



Bu tip filmlərin və ya tamaşaların tamaşaçısı azalıb.

Tamaşaçı düşünməyə başlayıb və artıq bayağı zarfatalara gülə bilmir.

Əslində tarixən belə olub ki, düşünən beyin cəmiyyətdə azlıq təşkil edib. Tamaşaçı daha çox əylənməyə meyil edir.

**- Aktyor Qurban Məsimovun ifa etmək istədiyi rol hansı roldur?**

-Əvvəllər "aktyor Hamleti oynamaq eşqi ilə yaşamalıdır" fikini şablon şəkildə aktyorlara təbliğat edirdilər. Mən o amilə inanmıram. O fikri qətiyyən qəbul etmirəm və "Hamlet"i heç də yaradıcılığımın zirvəsi sayılacaq obraz kimi görmürəm. Hamletə qlobal obraz kimi baxmıram.Hökmən deyil ki, aktyor baş rolu ifa etsin. Kino və teatr tariximizə nəzər salsaq görərik ki, o qədər epizodik rolları ifa edən aktyorlar var ki, həmin rolların replikaları indi də dillər əzbəridir.

Aktyor oturub xəyallar qurub hansısa rollar azulamaqdansa , ona verilən rolu yaxşı ifa edib tamaşaçıya çatdırmaq barədə düşünsə daha yaxşı olar.

**-Sizin üçün səhnədə rolun fərqi var?**

- Xeyr. Ancaq bəzi məqamlar var ki, aktyor həm də özünün meneceri olmalıdır. Azərbaycan aktyorunun demək olar ki, heç birinin meneceri yoxdur, bütün işləri özləri görürlər.

**-Elə olubmu hazırladığınız tamaşa son anda ləğv olunsun?**

- Xeyr, mən olduqca işimi dəqiq görən insanam. Hətta elə olub ki, kimlərinsə işi gecikəndə və ya dayananda mənə maraciət edən kimi mən həll etmişəm və hər şey qaydasına düşüb.

Heç nəyin qarşısında aciz qalan insan deyiləm. Düşünürəm ki, bu da aldığım təhsil və tərbiyədən irəli gəlir. Musiqi təhsilim var, hal-hazırda öz peşəm üzrə çalışıram, rəssam kimi əl qabliyyətim varmüxtəlif sahələrdə çalışdığım üçün universallıq mənə o qədər də çətin görünmür. Teatr aktyorun evidir. Aktyor kinoya, televiziyaya, radioya qonaq gedir.

**-Teatr aktyoru bu qədər istedadlı olsa da, nədənsə film təkliflərini heç vaxt rədd etmirlər. Əksinə, özləri seriallarda çəkilməyə can atırlar. Bunu madiyyatla əlaqələndirmək olar, yoxsa ümumiyyətlə həvəsdir ?**

- Burda iki xəttə var:- həm madiyyatla bağlıdır, həm də aktyor istəyir ki, tanınsın. Aktyorun tanınmasi üçün teatrda oynadığı rollar kifayət etmir. Gəlin etiraf edək ki, teatra həftədə bir dəfə 100 nəfər tamaşaçı gəlirsə, seriallara həftədə beş gün görün nə qədər insan baxır. Seriallara çəkilmək bir növ aktyorun reklamıdır. O da tanınmaq istəyir və buna görə də heç kəs aktyoru qınaya bilməz.

**-O zaman aktyor öz istedadını seriallara sərf edir və yorulur...**

-Xeyr,mən deməzdim ki, yorulur.Aktyor serialda və filmdə heç bir istedadını xərcləmir. Əksinə, aktyor teatrda qazandıqlarından seriallarda istifadə edir. Teatrda nə təcrübə toplayıbsa kinoda oyandığı obraza da həmin təcrübədən istidafə edir.

**-Deyirlər ki, teatr aktyor üçün qazanc mənbəyi deyil...**

-Bilirsiniz, mən sevdiyim işlə məşğulam. Əgər buna görə mənə pul verirlərsə nə xoş mənim halıma *(gülür).*

Əvvəllər bir qrup gənc toplaşırdı ki, teatr naminə nəsə etsinlər. İndi aktyorlar teatrda işləməyə başlayanda düşünürlər ki, mənim bu teatrdan qazancım nə olacaq. Əgər aldıqları maaş onları qane etmirsə, 3- 4 aydan sonra ya başqa işlə məğul olurlar, ya da asanlıqla öz iş yerlərini dəyişirlər.

**-Etiraf edək ki, madiyyatsız yaşamaq da çətindir...**

- İndiki zamanda tək aktyorları deyil, heç kəsi qınamaq olmaz. İndi danışacağım sözü ilk dəfə sizə etiraf edirəm və heç yerdə bunu danışmamışam. Elə vaxt olub ki, saat 14:00-dan sonra gəlib teatrda məşq eləmişəm, axşam çıxıb tamaşada rol ifa etmişəm. Ancaq heç kəs bilməyib ki, səhər saat 06:00-da mən bazarda qarpız satırdım.

**- Qarpız satan aktyoru bazarda tanıyanlar olurdu?**

- Yox, o vaxtlar o qədər də tanınmırdım. Etiraf edim ki, çox maraqlı satıcı idim. Qarpızlara şeirlər qoşa- qoşa, əyləncəli halda onları satırdım.

Bunu sizə etiraf etməklə onu demək istəyirəm ki, heç kəsdən heç nə gözləmək lazım deyil. Əksinə, nələrisə əldə etmək üçün addım atmaq lazımdır. Sadəcə sosializmdən kapitalizmə keçidi elə insanlar var ki, hələ də qəbul edə bilmirlər. Əsasən bu söz orta və yaşlı nəsilə aiddir.Çünki gənclər Sosializmdən xəbərsizdirlər, onlar doğulandan kapitalizm dövründə yaşayırlar.

**Əntiqə Kərimzadə**

## Söyüş faydalı çıxdı



**Böyük Britaniya və İsveçdə aparılan yeni bir araşdırma, söyüşün insanları güldürməkdə, qəzəblə mübarizədə və ağrıları azaltmaqda təsirli olduğunu müəyyən edib. Təhqiredici ifadələrin işlədilməsinin daha "inandırıcı" olduğu da qiymətləndirilmişdir.**

İngiltərədə Westminster, Keele və Ulster kimi nüfuzlu universitetlərin qatıldığı araşdırmada söyüşlə bağlı 100 akademik araşdırma araşdırılıb və söyüşün mümkün faydaları müəyyən edilib.

Araşdırmada qeyd edilib ki, söyüş emosiyaları ifadə etmək üçün güclü vasitə ola bilər.

Tədqiqatda söyüşün aqressivlik, zəif dil bilikləri və hətta aşağı intellekt əlaməti olduğu güman edildiyi üçün ciddi bir araşdırma mövzusu kimi uzun müddət diqqətdən kənarda qaldığı, yeni tapıntıların isə tədqiqatçıların təbiəti və gücü yenidən düşünməyə sövq etdiyi vurğulanıb. Tədqiqatda təsadüfi söyüşlər qorxu, sevinc, qəzəb və həyəcan kimi duyğuları, həmçinin yumor və həmrəylik kimi hissləri ifadə etməyə kömək etdiyi müəyyən edilib.

**Akif**

# Süleymanov tarixi ilki incələdi: "Mükəmmələ yaxın idi"

**Dünən Azərbaycan futbolu adına tarixi ilk reallaşdı. Çempionlar Liqasının qrup oyununu - "Kopenhagen" (Danimarka) - "Borussiya" (Dortmund, Almaniya) matçını (1:1) FİFA referisi Əliyar Ağayevin başçılığı altında azərbaycanlı hakimlər briqadası idarə etdi. Futbol ictimaiyyəti və azarkeşlər tərəfindən xüsusi maraqla qarşılanan görüşdə Ağayevin və köməkçilərinin ortaya qoyduğu performans barədə beynəlxalq dərəcəli hakim Tahir Süleymanovun fikirlərini öyrəndik.**

"Kopenhağen" - "Borussiya" qarşılaşması hakim idarəçiliyi baxımından ideal, uyğun matç kimi qəbul edilməlidir. Hər iki ölkə klubları ədalətli oyun prinsipinə hər zaman sadiq qalıb ki, bu görüş də istisna olmadı. Danimarkalı azarkeşlər çılğınlığı, öz komandalarına sonadək dəstəyi ilə seçilsə də, tribunalarda obyektiv mühit hökm sürür. Onlar üçün avrokubok matçlarını seyr etmək bir rituala çevrilir, nəticədən asılı olmayaraq, böyük futboldan zövq alır, istirahət edirlər. Belə mühitdə hakimlik etmək referilərə əlavə motivasiya verir.




"Alman maşını" öz yerində, danimarkalılar da dinamik, sürətli oyuna üstünlük verirlər. Matçlar qarşılıqlı hücumlar şəraitində keçir, açıq futbol üstünlük təşkil edir. Bu anlamda referilərin fiziki hazırlıqları yüksək səviyyədə olmalıdır. Əliyar Ağayev 90 dəqiqə ərzində funksional göstəriciləri ilə meydanda seçilirdi. Azərbaycanlı hakimlər briqadası oyuna psixoloji olaraq çox yaxşı hazırlaşmışdılar. Hakimlərimizin ÇL-də ilk dəfə matç idarə etdikləri sezilmirdi, meydanda hərtərəfli inamlı görünürdülər. Oyunda qarşılıqlı hücumlar, ikili mübarizələr yetərincə olsa da, görüş çox korrekt keçirdi ki, bu da hakimlərimizin işinə yarayırdı. Ağayev çəkinmədən, görüşün tepmini aşağı salmadan oyun üstünlüyü prinsipindən kifayət qədər və yerində istifadə edirdi. Bu da referinin özünəinamının göstəricisi idi. Epizodlara vaxtında yetişir, böyük ölçüdə, oyunu "oxumağı" bacarır, futbolçularla dialoqları yaxşı səviyyədə qururdu.

Baş hakimin köməkçiləri ilə vizual, sinxron əlaqəsi mükəmmələ yaxın idi. Oyunda əsas yüklərdən biri hər iki hissədə Zeynal Zeynalovun cinahına düşürdü.

Köməkçi hakimimiz yerində və dəqiq müdaxilələrlə, bir neçə epizodda obyektiv qərarları ilə Əliyara əla dəstək vermiş oldu. Referinin verdiyi qərarlar, sarı vərəqələrin dördü də yerində idi. Hətta fitin verilmə anı, səslənməsi, jestikulyasiya baş hakimin özünə son dərəcə inamının ifadəsi idi. Oyunun gedişində bəzi cüzi, xırda məqamlar oldu ki, bu da təbiidir. İstənilən görüşdə, illərin təcrübəli referilərində belə, oyunun axarına təsir etməyən xırda xətalar ola bilir. Ən önəmli məqam budur ki, Əliyar və köməkçiləri - Zeynal Zeynalov, Akif Əmirli, Kamal Umudlu öz idarəçilik bacarıqları ilə Çempionlar Liqası səviyyəsinə uyğunluqlarını nümayiş etdirdilər. Başqa sözlə, Azərbaycan futbolu, hakimliyi adını uca tutdular.

Təsadüfi deyil ki, dolu tribunalar qarşısında prinsipial, dinamik, sürətli, ilk dəqiqələrdən sona kimi qarşılıqlı hücumlar şəraitində keçən matçdan sonra hər iki komanda hakim idarəçiliyi adına məmnun görünürdülər.

İlk öncə bir ata kimi dəfələrlə yaşıl meydanlarda yardımçımız olmuş sabiq FİFA referisi köməkçisi Kərim Ağayevi və Əliyarın yetişməsində əməyi keçmiş hər kəsi təbrik edir, daha böyük uğurlar arzulayıram. Azərbaycan futbolu adına klublarımızın, hakimlərimizin Çempionlar Liqası qrupları həyəcanının davamı gəlsin..."

**fanat.az**

## Damla pis hadisə ilə üzləşib

**Damla instagram hesabında açıqlaması ilə gündəm olub. Adalet.az xəbər verir ki, "Mən razı" mahnısı "Youtube " kanalından silinib. Bu barədə müğənni özü xəbər yayıb.**



"Mən razı" adlı mahnımız youtube kanalımızdan sildirildi.

Saxta blokla mahnımızı bağladılar. Uğurun zamanını gecikdirmək olar. Amma əsl qarşısını almaq mümkün deyil.Zamanınızı və pulunuzu daha səmərəli istifadə edin. Sizə lazım olcaq. Aciz olmayın"

Qeyd edək ki, müğənni Damlanın sözügedən mahnısı son zamanlar xitə çevrilən mahnılar siyahısında idi.

**Əntiqə Kərimzadə**

# İstanbulun bənzərsiz dəniz məhsullarını sınayın

**Türkiyə təkcə dünyaca məşhur kababları ilə deyil, həm də unikal dəniz məhsulları yeməkləri ilə kəşf etməyə dəyər bir qastronomik mərkəzdir. Üç sərhəddə dənizlərlə əhatə olunmuş bir ölkə olan Türkiyə min illik dəniz məhsulları ənənəsini əks etdirən qeyri-adi yeməkləri, yerli və regional balıq və dəniz məhsulları, bişirmə texnikası və şərhlərini təqdim edir.**

Adalet.az xəbər verir ki, çoxəsrlik dəniz məhsulları mədəniyyəti bu coğrafiyada yaxşı tanınır.

Məsələn, Osmanlı dövrünə aid kulinariya qeydləri sarayda yeyilən ləzzətlər arasında sazan, skumbriya, qılınc, turba, mavi və ilanbalığı kimi balıqların, həmçinin lakerda (duzlu palamut), cüyür və kürü kimi balıqların olduğunu ortaya qoyur. Duzlu balıq və balıq şorbaları da saray mətbəxinin vazkeçilməzləri idi.

Michelin Guide-nin ən yeni məqaləsi İstanbulun hörmətli balıq mədəniyyəti ilə tanış olaq...

### İstanbulun bənzərsiz balıqlı sendviçi

Bir çox su cəbhəsi olan İstanbulda balıqçılıq həyat tərzidir. Boğaziçi xüsusilə payızda bol olsa da, İstanbulda qış mövsümü zəngin balıq növlərini gətirir. Mövsümi ovlar istanbulluların il boyu süfrələrini bəzəyən hamsinin kefalına, lələkdən palamuta, sardina və skumbriyaya qədərdir.

Balıq bazarları, balıqçılar və Boğaziçi boyunca sürüşən balıqçı qayıqları əsrlər boyu İstanbulun simvolu olub. Əslində, balıqlar İstanbul küçələri ilə o qədər inteqrasiya olunub ki, İstanbulda rahat gəzinti balığın aparıcı rol oynadığı onlarla müxtəlif mənzərədən keçəcək. Haliçin hər iki tərəfində uzanan Karaköy və Eminönü yollarında balıqlar diqqət çəkir. Sahildə satıcıların ətrafında toplanmış yeməkxanalar var, təzə qızardılmış balıq və çörək yeyirlər. Qalata körpüsünün səkilərindən çubuqlarını Boğaza atan balıqçılar İstanbulun balıq mədəniyyəti ilə eyniləşdirilən yerlər arasındadır.



İstanbulun ayrılmaz hissəsi olan balıq, rakı və gözəl mənzərələrin müşayiəti ilə Boğazdakı restoranlarda həm qonaqların, həm də bölgə sakinlərinin mövsümün balıqlarından dadmaq ritualına qoşulur.

### İstanbul və Balıq Restoranları

Türk yeməkləri deyincə ağla ət və kabab gəlsə də, əslində təzə balıq türk qastronomiyasının ən zəngin sahələrindən biridir. Xüsusilə İstanbulun sahil rayonlarında təzə salatlar və mövsümi balıqların dadına baxa biləcəyiniz çoxlu ənənəvi balıq restoranları var. Meyxanalar (meyxanalar) balıq restoranlarının fərqli bir sinfidir və ailələr və dost qrupları üçün məşhur yemək və əyləncə məkanlarıdır.

Balıq restoranlarında xidmət kiçik boşqablarda təqdim olunan və nahar edənlər tərəfindən paylaşılan qəlyanaltılarla başlayır. Otuzdan yüzə qədər müxtəlif qəlyanaltı ilə bu restoranlar başqa heç bir yerdə tapa bilməyəcəyiniz xüsusi dəniz məhsulları dadları təklif edir. Karides güveç, yağ, sarımsaq və pomidor ilə karides yeməyi; xırda doğranmış balıqları ədviyyat, pomidor, soğan və bibərlə qarışdıraraq bişirilən balıq kokoreç; tavada yağda bişmiş ədviyyatlı karides; dərin qızardılmış kalamar; İstanbulun leykerdə palamut və palamutun duzlu dadı balıq restoranlarının təqdim etdiyi isti qəlyanaltılar arasındadır. Heç bir əsas kurs sifariş etməyə ehtiyacınız olmayacaq. Sahil şəhərlərinin məşhur küçə yeməyi olan midye dolması limonla və əllə yeyilir. İndi Michelin Star Veneranın da evi olan İstanbulda balıq restoranında hansı xüsusi yeməklərlə qarşılaşacaqsınız? Bu sualın cavabı mövsümə görə dəyişdiyi üçün hansı balığın mövsümdə olduğunu soruşmaq seçimi asanlaşdıracaq. Sifariş verməzdən əvvəl şəhərin ən məşhur məzələrindən bəzilərini dada bilərsiniz: ızgara levrek, çipura, ızgara qril, duzda bişmiş levrek, midye dolması, qızardılmış midye, ızgara ahtapot, qril kalamar, qovrulmuş kalamar, kalamar dolması, əqrəb balığı şorba, hisə verilmiş balıq, balıq pastramı (hisə verilmiş balıq) və hisə verilmiş balıq!

**Türk balıq süfrəsində layiqli bir şöhrət qazanmış hamsi üçün ayrıca bir paraqraf tələb olunur. Qara dənizin sevimli balığı olan hamsi əsrlərdir Qara dəniz vilayətlərindən İstanbula qədər bölgələrdə süfrənin tacı olub. Hamsi düyüdə, buxarda bişirilir, tavada, çörəklə və ya hətta desert kimi verilir.Hazırlanmasından asılı olmayaraq, hamsi bu coğrafiyanın bəşəriyyətə bəxş etdiyi xüsusi və təsvirolunmaz dadı təqdim edir.**

**Sübhan**

## *Gənc aktrisa dünyasını dəyişib*



**Avstraliyada yol qəzası gənc aktrisa Erika Hoyun həyatı bahasına başa gəlib. Adalet.az xəbər verir ki, maşında olan digər iki nəfərə ağır bədən xəsarətləri yetirən sürücü hadisə yerindən qaçıb.**

Polisin başlatdığı əməliyyatdan sonra yalan danışan sürücünün kimliyi məlum olub. Magistral yolda Erika Hoyun olduğu avtomobil yük maşını ilə toqquşub. 26 yaşlı aktrisa əkiz bacısı və sevgilisinin gözü qarşısında dünyasını dəyişib.

## *Ülviyyə Xəlilbəyli: "Aktrisalıq edə bilmirəm"*

**Aktrisa Ülviyyə Xəlilbəyli "Səhər mərkəzi" verlişində qonaq olub.**

Adalet.az xəbər verir ki, aktrisa evliliyindən söz açıb. Xüsusən, qaynana- gəlin münasibətinə aydınlıq gətirib. Aktyor Murad İsmayılla evli olan aktrisa Ülviyyə Xəlilbəyli qaynanası ilə bağlı suala belə cavab verib: " Həmişə xəyal edirdim ki,qaynanamla rəfiqə olacam. Amma "qaynana- gəlin" necədirsə, elə də oldu. Nə qədər desələr ki, gəlin qaynana üçün qız olur. Bu mümükün deyil. Bəlkə də ola bilər. Amma bunu qarşı tərəfdən də hiss etməlisən. Məndə biclik yoxdur.Aktrisalıq edə bilmirəm. Nəsə xoşuma gəlməyəndə üz ifadəm dəyişir. O saat da bəlli olur. Biraz kinliyəm."

**Əntiqə Kərimzadə**

**Mərkəzi Bank tərəfindən "AFB Bank ASC"nin "1 saylı" mübadilə şöbəsinə verilmiş 253 / MŞ-1 saylı icazə sənədi itirilmişdir. Tapan şəxslərdən +994 12 565 65 56 telefon nömrəsi ilə əlaqə saxlamaqları xahiş edilir.**

Aqil Abbas **Namiq Quliyevə** əzizi

**Fazil Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəhman Salmanlı və Faiq Qismətoğlu tələbə yoldaşları **Bəxtiyar Bəxtiyarova** həyat yoldaşı

**Qızılgül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 103
Çapa imzalanmışdır:
04.11.2022